Lexicography as a scientific field has a complex nature: its historical and philological aspect is manifested in a constant interest in the typology of dictionaries and their connection with culture, knowledge collected by society, its semantic-lexicological aspect associated with generalization, dictionary data on the modeling of the plan of language content, its the epistemological aspect follows from its essence as a way of organizing and presenting dictionaries. However, the defining feature of lexicography is its applied focus. The role of lexicography is associated not only with its application, but also with the solution of information and cognitive methodological problems. Today the dictionary is at the intersection of science and information technology. The article explains the reflection of dictionary parameters in dictionaries.



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 10.08.2023 |
| | Son variant | 15.08.2023 |

**УДК 398.3** DOI 10.54758/16801245_2023_19_3_16

# О КОСМОГОНИЧЕСКОЙ МИФОЛОГИИ КУМЫКОВ

**ХАЛИПАЕВА ИМПЕРИЯТ АРСЛАНБЕКОВНА**
*Дагестанский государственный педагогический университет*
*Россия, Дагестан, Махачкала, д.ф.н., профессор*
*turkdgpu@mail.ru*

***Ключевые слова**: кумыкская мифология, Тенгри, космогонические предания, сотворение мира, число «три», «древо жизни».*

*В настоящей статье рассматриваются древние космогонические мифы кумыков (в основном у южных кумыков), где они сохранены более значительно, чем в остальных регионах. Самые ранние сведения о Тенгри и тенгрианстве на территории Европы ,а именно на Кавказе около города Дербента появились в начале IV века. Особое внимание у южных кумыков уделялось голубому цвету великого Тенгри.*

Богатая духовная культура хазар не исчезла бесследно, как об этом писали многие исследователи, а рудиментарно сохранились у кумыков – народа, являющегося одним из непосредственных наследников хазарской культуры и с древних времен проживающего на землях, ставших колыбелью Хазарии.

Кумыкская мифология порой обнаруживает поразительные сходства и с античной мифологией, и библейскими сюжетами из Ветхого Завета, и с мифологией тюркских народов. Это объясняется не только историческими связями кумыков с другими народами, но и сходством социально-экономических условий, неизбежно порождавших одинаковое представление о мире.

В кумыкском фольклоре есть мифологические мотивы о происхождении гор, скал, родников, рек, озер и т.д., основанные на анимистических представлениях. Возможно, прежде в них отражались космогонические представления человека о сотворении мира из первобытного хаоса.

В ряде космогонических преданий, где мы записали в селе Башлы («О небе», «О семи пластах неба» [1] и др.) земля олицетворяет материнское начало, небо – отцовское, а люди, находящиеся в середине, – дети Великой Матери и Всемогущего Верховного Божества Тенгри.

Так, например, в мифологическом предании «О мирах» [2] говорится, что вселенная состоит из трех миров: верхний мир – небо, средний – люди и земля, нижний – подземный мир. Небо состоит из семи сфер («*етти къат кёк*»), земля состоит из семи слоев [3], пластов («*етти къат ер*»), а люди живут в срединном мире.

Наиболее распространенным в архаической мифологии кумыкского народа является мотив о сотворении мира: о дихотомическом и трихотомическом строении Вселенной.

А.М.Аджиев, исследовав мотив мироздания [4], пришел к выводу, что эпос сибирских народов и кумыкские сказки представляют, как бы две его противоположные фазы, две крайние стадии его развития, а широкое привлечение материалов из фольклора других тюрко-монгольских народов позволяет наметить «срединные» этапы исторической трансформации данного мотива.

Приведем вкратце мифологическое предание «О происхождении людей» [5], записанное нами в селе Башлы.

«Мать Ева в день три раза рожала: утром - брата и сестру, в обед – двоюродных брата и сестру, вечером – троюродных брата и сестру. Близнецы по истечении определенного времени, а именно, во время созревания осенних яблок должны были жениться, тем самым образуя, три супружеские пары. Но случилось иначе. Брат, рожденный утром, полюбил двоюродную сестру (ту, которая родилась в обед) и захотел на ней жениться. Двоюродный брат, который действительно должен был на ней жениться, убивает «утреннего» брата. Это была первая смерть на земле. Люди не знают, как поступить с умершим. Вдруг прилетает черный ворон [6], кружится и закапывает клювом орех. Люди следуют его примеру». Есть варианты этого сюжета, где ворон закапывает своего птенца [7].

В приведенных сюжетах, где встречается мировоззренческий комплекс кумыкского язычества, обнаруживается и числовая символика: семь, три. Создается представление о связи рождения и смерти, об образе прародительницы Евы, близнечном культе [8], об образе ворона, о мести. В основе данного мифологического сюжета – человеческое существование. При этом только акт убийства позволяет человеку осознать смысл всей жизни: ничто не вечно. Смерть людей приводит их к мысли, что жизненно необходимо продолжить род. Возможность жизни связано с плодородием. Только в сюжете нет образа Всемогущего Верховного Божества – Создателя, нет также мотива происхождения самой Великой матери.

Число «три», обозначавшее множество, рассматривалось как число магическое, волшебное. Пережитки этих воззрений, в частности, сохранились в том, что заклятия и заговоры для придания им колдовской силы произносились трижды. Многие племена и народы изображали мир в образе духов или богов, один из которых олицетворял небо или свет, другой – землю или воздух, третий – воду или огонь.

Первый бог – материя, из которой все творится, второй бог –пространство, в котором все живет, третий бог – все разрушающее время.

Первый бог – солнце, дающее жизнь, второй – вода или воздух, поддерживающие его, третий бог – все разрушающий огонь; первый бог – прошлое, второй – настоящее, третий – будущее.

У древних греков культ предков состоял из почитания тритапаторесы: отца, деда, прадеда.

У Гомера триада богов – Зевс, Афина и Аполлон, известна и другая троица: Зевс, Посейдон и Аид.

У римлян были свои троицы: Юпитер, Марс и Кривин; Юпитер, Юнона и Минерва.

В христианской троице – отец, сын и мать, впоследствии замененная представлением о святом духе, сохранились следы веры в отца, владыку мира, сына, владыку преисподнего мира (сошествие Христа в ад) и святого духа- воздуха.

Известно также большое число легенд, представляющих различные толкования конфликта между братьями, приведшего к убийству: У Каина и Авеля [9] была сестра (или две сестры, одна из которых была красивее другой), из-за нее и возникла ссора: с Авелем родились две сестры-близнецы, одну из которых Каин хотел взять в жены. Каин и Авель поссорились из-за «первой Евы». Очень распространено предание о том, что Каин, собравшись убить брата, не знал, как это сделать, но в это время появился ворон и убил другого ворона куском камня. Каин также не знал, как быть с трупом, тогда бог послал двух «чистых птиц; одна из которых, убив, другую, зарыла труп в землю» [10].

Из приведенных сюжетов можно видеть, как перекликаются события кумыкского мифа с библейскими. В центре кумыкского мифа также находится триада: три раза рожала, три брата, три сестры, три супружеские пары. Самый существенный момент, объединяющий их, - смерть одного из братьев.

Представление о первом человеке, о первой смерти во многом связано с идеей конца мифического времени, когда люди еще были «бессмертными». А со смертью первого человека все последующие поколения люди стали смертными.

«Такие представления связаны с нанайским Ходо», с древнеиранским Йимой, родственным древнеиндийскому Яме, который, согласно «Атхар-ваведе», «умер как первый из смертных» - и оттого стал «Богом мертвых» [11].

Смертью первого человека в ряде мифологических систем объясняется создание Вселенной.

Особый интерес в этом аспекте представляют воззрения о Тенгри, игравшие важную роль в мифологии древних тюркских народов. Это основано на том, что у тюрко-монгольских народов представления о небе, демонах, божествах, сложная культовая практика древности связаны с Тенгри [12].

По представлениям народа, небо вначале было настолько близко, что высокие люди могли рукой достать до него. В те времена люди могли общаться с небожителями, рассказывать им о своих нуждах и даже подниматься на небо. Но небо принимало только чистых людей (т.е. не грешных), говорится в мифологическом предании «Почему небо так высоко» [13], записанное нами в с Башлы.

Приведенные материалы свидетельствуют о сложных путях формирования мифологических воззрений у кумыков, эволюционная трансформация которых показывает основные космогонические акты: установление космического пространства, разъединение неба и земли и т.д.

Космогонические воззрения развивались во всей совокупности существующих представлений, подвергая их дальнейшей переработке. Лишь незначительная часть их сохранила свои архаичные формы, и соответствующие воззрения древнего человека на душу.

Имя бога Тенгри уносит нас в мир древнейшей религии центральноазиатских кочевников, отраженный в ранних орхонских надписях древнетюркских камнеписных текстах первой половины VII века.

Тенгири в представлении древних – небесный дух-хозяин. Он, как и все прежде созданные боги живет на небе и контролирует то, что происходит на земле. Более того, подобно Зевсу, вмешивается в судьбы людей, используя других нижестоящих богов. Тенгири, как и водится в древней мифологии бог мужского начала, что указывает еще раз на вероятную смену социального уклада: от матриархата к патриархату. На тенгрианских иконах же вокруг лика Бога делали нимб. Нимб – древнейший символ на Востоке, означающий истечение жизненной силы, энергии, мудрости. Нимб изображали голубого или небесного цвета.

Особое внимание и у южных кумыков (башлынцев) уделялось голубому цвету великого Тенгри. В короткой песне, которую мы записали в Каякентском районе с.Башлы, это явление прослеживается наиболее четко:

*Гёк Тенгирим кёкден магъа*
*Гёк гёзлерин ачып багъа*
*Гёк чуман авлакъларда*
*Гёк чечекли талада*
*Гёк къозулар гьайдейген*
*Гёк чёпгенли балама*
*Гёк Тенгирим оьрден багъа.*

*Голубой Тенгири мой с неба на меня*
*Голубые глаза, открыв, смотрит,*

*Голубых полях*
*Голубо цветущей поляне*
*Голубых ягнят пасущего*
*Голубой черкеске на сына моего*
*Голубой Тенгири сверху смотрит.*

Вероятно, данная песня являлась языческой молитвой-оберегом – обращением к Тенгири. На эту мысль нас наталкивает архаичная форма стихосложения, где обнаруживаются элементы нарушения законов силлабического стихосложения. Уместно здесь вспомнить, что в Киевской Руси, задолго до официального крещения в IV-V веках, когда жили там тюрки-кыпчаки рефреном в молитве звучали слова: «*Ходай алдында бетинг адем ачыкъ болсун*» – «*перед Богом каждый человек должен быть с открытым лицом, открытой душой*». И называлась та религия древнего Киева – «тенгрианство», которое более известно в Европе как «арианство».

В следующей песне, скорее обрядовой, обращенной к природе, говорится о просьбе людей, пожалеть нутро Земли, чтоб по велению Тенгири пошел дождь, скалы, равнины одели голубой наряд.

Голубой цвет ассоциируется здесь с зеленым покровом, зеленью. Возможно, эта песня связана с представлением древних кумыков об умирающей и воскресающей природе. По-видимому, эту песню распевали ранней осенью, когда Земля должна быть покрыта обильной зеленью. Вероятно, “Гёкша марал гюз” определенное время года, по-нашему мнению, сентябрь:

*Яшил язбаш*
*Сари яз*
*Гёкша марал гузунгда*
*Ерни къарни горуна*
*Гёк чивара юзунгда*
*Гёк чадире гийгандай*
*Гёк булутлар баралар*
*Буйругъунгу гутмага*
*Гёк денгизни устуна*
*Тузлу сувлар ичмага*
*Чыгъып сагъа тилама*
*Гёк мадарай къызларда*
*Гёк Тенгирим языкъсин!*
*Ерни къарнин къыйнама*
*Къой тавлани ташлани*
*Гёк капутлар гиймага.*

В тенгрианской мифологии очень часто Тенгри, изображен в образе гигантского дерева, соединяющего небо и землю. Поэтому могучие высокие деревья всегда почитались верующими и богато украшались.

Интересно отметить, что около села Каякент, которое исследователи справедливо отождествляют с Хамрином [14], находится священное дерево, именуемое местными жителями Тенгриханом. В данном случае дерево-фетиш, подтверждающее, что божество Тенгрихан главенствовал в божественном пантеоне. С течением времени культ Бога Тенгри эволюционировал в сторону фетишизации.

В мифологическом предании «Древо жизни» [15] говорится о том, что есть древо жизни, где каждый человек имеет свой лист и у каждого есть своя звезда. Когда умирает человек, вместе со звездой падает и его лист. Падая, задевает другие листья. В то время те люди, чьи листья были задеты, слышат звон в ушах. Корни этого дерева находятся глубоко, под семью пластами, а крона – на семи небесах.

В фольклоре башлынцев встречается также мифическое дерево, корни которого, по их представлению, распространены под землей каждого магала [16]. По велению Всемогущего Тенгири трясутся корни (один из корней) дерева, тогда происходит землетрясение в том или ином магале. Вариантов мифа о землетрясении у кумыков довольно много – это объясняется их мифологическими представлениями. Один из вариантов: мир держится на ветвистых рогах животного (бык, олень), когда он качает головой или перебрасывает мир с одного рога на другой, происходит землетрясение [17]. Однако все мифы приводят нас к одному знаменателю – к древу жизни, к опоре Неба и Солнца, к дереву как связующему звену неба и земли.

Из нашего полевого материала можно сделать подтверждающий вывод, что мир (Вселенная) у кумыков трактуется трихотомически: верхний – небесный, средний – земной, нижний – хтонический, и связывает все эти миры образ вертикального предмета, т.е. дерева, у которого крона соотносится с верхним миром, ствол – со средним, а корни – с нижним, подземным.

Как мы уже отмечали, часто можно увидеть на кумыкских свадьбах дерево, увешанное разными сладостями. Это делается для того, чтобы молодые были счастливы, жили в изобилии. Особо украшается столб дома, куда приходит невеста. Аналогичное украшение центрального столба (*орта багъана*) характерно и для других кавказских народов, в частности для грузин, азербайджанцев, что говорит о типологической общности этого явления.

Махмуд Кашгари, правоверный мусульманин, в XI в. сокрушался о тюрках – «неверных», которые словом «Тенгри» называют «большие деревья» [18].

Все космогонические явления представляются в мифах как творения Верховного Божества Тенгири. Клянутся именем Тенгири: «*Мени яратгъан Тенгирим гьакъына*» («*Клянусь породившим меня Тенгири*»). Обращаются с мольбой к нему: «*Эй, къудратны есси Тенгирим…*» («*Эй, хозяин силы, мой Тенгри*») и просят то, что им хотелось: дождя в засушливое лето или ясной погоды при дожде.

Итак, в кумыкской мифологической прозе отразились космогонические представления народа, где в архаической форме сохранились мотивы сотворения мира, Вселенной, образ Верховного Божества Тенгири, представления о первом человеке, о первой смерти на земле, о древе жизни, астральные воззрения и т.д.

Мифологические памятники фольклора по объему, как правило, не велики и не оснащены изобразительно-выразительными средствами (эпитетами, гиперболами, метафорами и т.д.). Обычно они носят повествовательный характер. Это, очевидно, связано с целым рядом причин, из которых, на наш взгляд, следует выделить три основные:

1. Рассмотренные нами памятники возникли в глубокой древности, когда в народном творчестве еще не были выработаны средства создания объемных, многоконфликтных развитых сюжетов.

2. Многие из этих памятников, по-видимому, дошли до наших дней в разрушенном виде, как «осколки», возможно, некогда более развитых сюжетов, как рудименты былых сложных и развитых представлений, верований.

3. Эти типы памятников несут, прежде всего, информацию о различных рода поверьях, представлениях, через которые регламентируется поведение человека. А вся

сложная система поведения состоит из отдельных табу, рекомендаций и т.п., что передается, в частности, посредством небольших произведений.

## ЛИТЕРАТУРА

1.Зап. нами в с. Башлыкент, Каякентскаго района,1978г. от Пашаевой А.,60л.
2.Зап. там же
3.Число семь является магическим, в частности у народов Востока. В древнейших мифах это число связано с семью планетами. У алан существовал культ семи богов. Кумыки Большую Медведицу называют семь звезд.
4. Аджиев А.М. О поздней трансформации эпического мотива мироздания//Эпическое творчество народов Сибири и Дальнего Востока
5. Зап. нами в с. Башлыкент, Каякентскаго района,1978г. от Пашаевой У.,118 л.
6. Ворон, по представлению кумыков, предвестник неприятного: каркает ворон то к смерти, то к непогоде. «*Къара ер гёрсетген къаргъа*» - так называют ворона в народе. т.е. ворон, указавший путь к могиле. Когда он каркает, обычно отвечают «*къаралып оьлгюр сен*» - «*чтоб ты сдох, почернев*». Также проклинают вороном «*къаргъалар айлансын атангны юртунда*», «*къаргъа чокъусун гёзюнгню*» - «*чтоб вороны кружились в твоем отцовсмком доме*», «*чтоб ворон выклевал твой глаз*».
7. Зап. Аджиевым А.М. от Аджиевой М.,1903г. рожд. в с.Ботаюрт Хасавюртовского р-она,1986; Зап. Аджиевым А.М. в с.Аксай Хасавюртовского р-она в 1972г. Рукоп. фонд ИИЯЛ. ф.9. Оп.1, п.386, л.158-159.
8. Халидова, М.Р. Об эволюции мотивов культа близнецов в дагестанском фольклоре // Поэтика фольклора народов Дагестана. – Махачкала, –1981. –с. 25-43.
9. Мифологический словарь. Каин.- М.,СЭ,1990г. –с 262.
10. Мифы народов мира: в 2-х т.-М.:СЭ 1982г. –Т.2 –с 6.
11. Там же.
12. Кляшторный С.Г. Мифологические сюжеты в древнетюркских памятниках // Тюркологический сборник,1972. –М.: Наука, –1984. –с.123.
13. Зап. нами в с.Башлыкент, Каякентскаго района,1978. от Пашаевой А., 60л.
14. Ибн-Русте. Ибн-Хаукаль. Книга путей и царств. Пер. Н.А.Караулова//СМОМПК.-Тифлис, 1908. -Вып.38. –С 81-129.
15. Зап. нами в с. Башлыкент, Каякентскаго района,1978г. от А.Пашаевой
16. Магал – квартал, часть города
17. Зап. там же от Рустамовой С.,1980г.,73 л.
18. Mahmud al-Kashgari. Divanu Lugat-it-Turk. Ankara,1941-S 461.

## XÜLASƏ

## KUMIKLARIN KOSMOGONİK MİFOLOGİYASI HAQQINDA

***Xalipayeva İ.A.***

***Açar sözlər***: *kumık mifologiyası, Tengri, kosmogonik ənənələr, dünyanın yaradılması, "üç" sayı, "Həyat Ağacı".*

Məqalədə kumıkların qədim kosmogonik mifləri (əsasən cənub kumıkları arasında) nəzərdən keçirilir, burada digər bölgələrə nisbətən daha əhəmiyyətli dərəcədə qorunur. Avropada, yəni Dərbənd şəhəri yaxınlığında Qafqazda Tengri və tengrianizm haqqında ən erkən məlumatlar IV əsrin əvvəllərində ortaya çıxdı. Cənub kumıkları arasında böyük Tengrinin mavi rənginə xüsusi diqqət yetirildi.

**SUMMARY**
**ABOUT THE COSMOGONIC MYTHOLOGY OF THE KUMYKS**
***Khalipayeva I.A.***

***Keywords:*** *Kumyk mythology, Tengri, cosmogonic legends, creation of the world, the number "three", "tree of life".*

This article examines the ancient cosmogonic myths of the Kumyks (mainly among the southern Kumyks), where they are preserved more significantly than in other regions. The earliest information about Tengri and Tengrianism in Europe, namely in the Caucasus near the city of Derbent, appeared at the beginning of the IV century. The southern Kumyks paid special attention to the blue color of the great Tengri.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 21.08.2023 |
| | Son variant | 11.09.2023 |

**UOT 82-6** DOI 10.54758/16801245_2023_19_3_23

# EPİSTOLYAR MƏTNLƏRİN KREATİVLİYİ

**ƏFƏNDİYEVA LALƏ RASİM qızı** ORCID
*Bakı Dövlət Universiteti, Azərbaycan, f.f.d., dosent*
lalare@mail.ru

***Açar sözlər:*** *kreativlik, epistolyar mətnlər, şəxsi məktublar, diskurs, diskretlik, spontan nitq.*

Müasir dövrdə kreativlik yaradıcılıq qabiliyyəti, orijinal məhsulların və ideyaların yaradılması prosesi kimi izah edilir. Təfəkkürün itiliyi, aydınlığı, orijinallığı şəxsiyyətin xarakteristikasını təşkil edir, onun ənənəvi düşüncə sxemlərindən kənara çıxma qabiliyyətini göstərir. Epistolyar mətnlər diskurs prosesində yaranır və diskursun kreativlik xüsusiyyətlərini epistolyar mətnlərə də aid etmək olar. Epistolyar mətn müəlliflərinin "yaradıcılıq potensialı" da kreativlik kimi qəbul edilə bilər. Məktubların yazılması da müəyyən mənada yaradıcılıq prosesidir. Epistolyar mətnlərdə ümumi qəbul edilmiş məktub şablonlarından nə qədər uzaqlaşma baş verdikcə burada bir o qədər geniş mənada kreativlikdən danışmaq olar.

Bütün məktub mətnlərində müxtəlif səviyyələrdə kreativlik müşahidə edilir. Diskurs prosesində kreativlik "dil oyunları"nda təzahür edir. Məqalədə Azərbaycan ədiblərinin epistolyar irsindən gətirilən nümunələr əsasında diskurs prosesində dil oyunları spontanlıq, diskretlik kimi müxtəlif aspektlərdə nəzərdən keçirilir.

Müasir dövrdə elmi terminologiyada latın mənşəli (creato) "yaratmaq, qurmaq" [1] mənasını verən «kreativlik» sözü müəyyən problemə yaradıcı yanaşma, yeni baxış bucağından nəzərdən keçirmə, fərqli düşüncə tərzi, yeni orijinal ideyalar kimi qəbul edilir. "Kreativlik ümumi anlamda yaradıcılıq qabiliyyəti kimi izah olunur. Geniş mənada kreativlik isə yaradıcı intellektual qabiliyyətlərdir, yəni orijinal məhsulların və ideyaların yaradılması prosesidir. Təfəkkürün itiliyi, aydınlığı, çevikliyi, problemlərə həssaslıq, orijinallıq, onların həllində ixtiraçılıq ünsürləri kreativlik amilləridir" [2]. Deməli, bu xüsusiyyətlər şəxsiyyətin xarakteristikasını təşkil edir, onun ənənəvi düşüncə sxemlərindən kənara çıxma qabiliyyətini göstərir. Hal-hazırda "kreativ psixologiya", "kreativ kommunikasiya", "dilin kreativliyi" və s. kimi birləşmələrin tez-tez işlədildiyini müşahidə etmək olar.

Epistolyar mətnlərin diskurs prosesində yarandığını nəzərə alsaq, diskursun kreativlik xüsusiyyətlərini bu mətnlərə də şamil etmək olar. Kreativlik haqqında yuxarıda deyilənləri nəzərə alaraq, bunu epistolyar mətn müəlliflərinin "yaradıcılıq potensialı" da adlandırmaq olar. Ancaq onu da nəzərə almaq lazımdır ki, məktubların yazılması özlüyündə elə yaradıcılıq kimi qəbul edilə bilər və kreativlik cəhətdən epistolyar mətnlərdə ümumi qəbul edilmiş məktub şablonlarından nə qədər uzaqlaşma baş verdiyini nəzərdən keçirmək maraqlıdır. Buna görə də epistolyar mətnlərin orijinallığından danışarkən «kreativlik» terminінə müraciət etməyi məqsədəuyğun hesab edirik. Yazışmanı diskurs yaradan amilə çevirən müəlliflərin şəxsiyyəti epistolyar mətnlərin kreativlik xüsusiyyətlərini müəyyənləşdirir. Təbii ki, hər bir məktubun kreativlik dərəcəsi fərqlidir, ancaq məktubların hamısında müəyyən kreativlik müşahidə edilir, yəni müəllifinin kimliyindən asılı olmayaraq, epistolyar mətnlərdə özəl düşüncə əlaməti mövcuddur. Müəllif qeyri-adi, özünün görmə bucağı altında nə isə yaza, yeni nitq vahidi işlədə bilər, ancaq öz yaradıcılıq məhsulunu mütləq bir ənənəyə çevirə bilməz. Yeni ənənələr yalnız diskurs prosesində universal ünsiyyət forması kimi «dil oyunları»nda təzahür edir. "Dil oyunları stereotiplərin sarsılmazlığına əminlik olduğu halda,

onlardan yayınmaq üzərində qurulur" [11, s.97]. Bu, insan mədəniyyətinin mühüm xüsusiyyətidir. Deməli, «dil oyunları»nı kreativliyin təzahürü kimi nəzərdən keçirmək olar [7].

Epistolyar diskursun kreativliyi ondan ibarətdir ki, fərqli dil şəxsiyyətlərinin nitq fəaliyyəti məhsullarından istifadə etməyə və onları bir-biri ilə harmonik əlaqələndirməyə imkan verir. Bu zaman nitq yaratma fəaliyyəti müəyyən diskurs tipinin nitq stereotiplərindən yayınmağa əsaslanır. Bu fəaliyyətin məhsulları isə yarandığı milli zaman diskursiv məkanında tədricən normativləşir.

Epistolyar diskursda daha geniş anlamda "dil oyunu" adi məişət dialoqu forması, şifahi nitq modelidir. Məktub müəllifləri yaxşı başa düşürdülər ki, məktub mətnlərinin imkanları məhduddur və şifahi nitq vasitəsilə yaradılan ünsiyyəti tam əvəz edə bilmir, buna görə də məktub yazmağa o qədər də həvəsli olmadıqlarını vurğulayırlar. Məsələn, C.Məmmədquluzadə bu barədə Fərəculla Pişnamazzadəyə özünəməxsus yumor hissi ilə yazmışdır: "*Bir vaxt bunu bəhanə gətirdim ki, qoy alma, armud yeyək, sonra razılıq kağızı yazaq. Məlum ki, alma və armud çoxdan yeyildi, qurtardı, amma kağız yazılmadı. Xudaya, yemək nə qədər kağız yazmaqdan asan imiş... Amma keçən-keçib və indi istəyirəm borcdan çıxam*". [5, s.329]).

Dostluq məktubları yazan hər bir müəllif onu şifahi nitqə yaxınlaşdırmağa çalışırdı. Bu cəhətdən epistolyar mətnlər üçün iki nitq forması xarakterikdir: "bunlardan biri şifahi söhbət-dialoq formasına, digəri isə qırıq-qırıq monoloqa əsaslanır. Adətən bu formaların ikisi də bir yerdə qarşılaşır və öz aralarında sıx əlaqələnərək «söhbət» dialoqu yaradır. "Birtərəfli" dialoji nitq formasına can atmaq (yəni maksimum danışıq üslubu və fraqmentar) məhz müəllifin öz təxəyyülündə müsahibinin cavab və replikalarını canlandırdığı məktub nümunələrində daha aydın görünür" [12, s.82]

Məktub mətni sual-cavab prinsipi ilə qurula bilər. Müəllif özü sual verir və özü də bunlara cavab verir, məsələn: *"Bizim qohum-əqrəbamız necədir? Məşədi Yusif haman halətdədir, ya təğyir tapıb haləti? Ağam nə qayırır və Ələkbər haradadır? Məşədi Heydərin, söz yox, əhvalı pərişandır. İndi necədir Nəsir, varmı yaxşı olmağa ümidi, ya yox?" (*5, 298); "*Bizim balalar necədir? Səni yenə incidirlər? Eybi yoxdur, Sarıçka, onların əziyyəti ayrılığın əzabından min dəfə yaxşıdır. Aydın və Sevda məktəbə gedirmi? Sevıçkaya de ki, dərsini yaxşı öyrənsin və Aydına da öyrətsin. Balaca Xavər nə təhərdir? Yenə gülüb özündən gedirmi* " [6, s.61]

Bu üsul məktuba dinamiklik verir, canlı dialoji ünsiyyət təəssüratı yaradır. Bu zaman epistolyar mətn yalnız informasiya ötürmə vasitəsi deyil, qarşılıqlı anlaşma vasitəsinə çevrilir.

Nəzərdən keçirdiyimiz məktub nümunələri arasında epistolyar mətn strukturunda dialoqdan bütün qaydalara uyğun şəkildə istifadə edilir. Buna numunə kimi Bağırov Bahadurdan M.İbrahimova yazılmış məktubu göstərə bilərik. Burada gənc yazıçı əsərinin çap olunmasına etirazla bağlı söhbəti M.İbrahimova dialoq şəklində çatdırır: "*Biz həyatımızdakı real və gözəl temaları götürüb cocuq pyesləri yazmaq istərkən Naxçıvan Yazıçılar İttifaqının katibi Hüseyn Baqiyə verərkən bizə yardım əvəzinə: – Sən uşaqsan, sən hələ teatr yaza bilməzsən, – deyir. Mən soruşuram: – Yazmaqdamı yaşa baxar? Axı atalar misalı var, ağıl yaşda deyil, başdadır"* (3, 89). Əslində belə məktub yazmaq forması bədii əsərlər üçün xarakterikdir. Bu, bədii əsərdə təbii qarşılanır. Epistolyar ənənələrdə isə belə variantlar yoxdur, buna görə də göstərdiyimiz nümunə söhbətin modelidir, yəni məktubda həmin söhbət «zahiri simasını» saxlamışdır.

Epistolyar mətnlərdə dialoji nitq xüsusiyyətlərindən danışsaq da, bütün dialoq qaydalarına əməl edən məktub yazmaq çətindir, elə buna görə də müəlliflər başqa imkanlardan yararlanmışlar. Bəzən elə təəssürat yaranır ki, məktub mətnlərində təsvir edilən hadisələr arasında əlaqə və ardıcıllıq yoxdur, ayrı-ayrı hissələrdir və bu, spontan nitqə bənzəyir:

– "*Əzizim Əziz! Salam! Məktubunuzu və materialı aldım. Şikayətlənirsiniz ki, cavab vermirəm. Ancaq bundan qabaq məktub almamışam və sizin suallarınızdan xəbərsizəm.*

*Sizə balaca bir açıq məktub yazmışam. Çatıb-çatmadığını bilmirəm. Keçək məsələyə. Materialı oxuyuram. Bəzi qeydlərim var, qurtaranda sizə yazaram. Özünüzün təyin etdiyiniz vədəyə qədər qaytararam. Arxayın olun. Əziz, xahiş edirəm, suallarınızı mənə deyəsiniz, mühüm*

*dəyişiklikləri mənə göstərəsiniz. Məktubunuzda yazırsınız ki, dəyişdirilən yerlər var. Hansı yerlərdir? Qaldı epiqrafların bəzisi ruscadan tərcümədir...Daha nə var, nə yox? O gün Moskvada ədəbiyyat dekadasına hazırlıq planı tuturduq. Siz də dekada iştirakçısısınız. Bir sıra məruzə və məqalələr sizin öhdənizdədir. Bu barədə sizə xəbər verəcəklər. Bakıda elə yeni bir hadisə yoxdur. "Manifest" haqqında Arif bir yaxşı məruzə elədi.*

*Xəstəliyim bir az yaxşıdır. İşləyirəm, müasir həyatdan böyük bir şey yazmaq istəyirəm. Xəstələnməsəm, ümidvaram ki, müvəffəq olam. Ayın 14-15-nə qədər materialı qaytararam. Məndən yoldaşlara və Cavada salam. Hələlik bu qədər".* [4, s.351]

Y.M.Lotman mətnin informasiyanı belə hissə-hissə vermək xüsusiyyətini diskretlik – «informasiyanın porsiyalarla verilməsi» adlandırır: "Dialoqa tələbat, dialoji situasiya gerçək dialoqu və hətta onun üçün dilin mövcudluğunu da önləyir…ümumi dil yaratmaq üçün situasiya iştirakçılarının hər biri "özgənin" dilinə keçməyə çalışır. .. həmçinin bu da maraqlıdır ki, dialoqda məlumat ötürülməsində ciddi ardıcıllığa əməl edilir: tərəflərdən biri «məlumatı» canlandırır, nəzərə almaq lazımdır ki, dialoji situasiya kənar müşahidəçi tərəfindən seyr edilərkən ötürülmə posesindən qəbul etməyə keçən zaman təsvir səviyyəsində diskretlik meydana gəlir. Diskretilik – informasiyanı porsiyalarla vermək xüsusiyyəti bütün dialoji sistemlərin xüsusiyyətidir". [9, s.194]

Nəzərdən keçirdiyimiz məktubların əksəriyyətində həmin diskretlik müşahidə edilir. Spontanlıq effekti, nitqin hazırlıqsız səsləndirilməsi (burada yazılması) sintaktik səviyyədə inversiya, ellips kimi vasitələrlə yaradıla bilər, məsələn: "*Münəvvər və Müzəffər gəlmişdilər. Onlar müvəffəqiyyətlə işləyir və yaxşı xeyir verirlər"* (C.Məmmədquluzadə oğlu Midhətə, 23 may 1930); "*Həmidə xanıma, Münəvvərə və Müzəffərə salam göndərirəm. Qaryagindəki xəstəlikdən təşvişə düşməyin, ləğv edilib. Ənvər deyir ki, tez-tez məktub yazır, siz isə şikayət edirsiniz ki, yazmır*" (17 fevral, 1931); "*Midhət ayın 10-u Leninqradın şimalına, Sbir çayına təcrübə işlərinə getməyə hazırlaşır, on nəfər yoldaşı ilə*" (17 fevral, 1931); [5, s.370-376].

Bununla yanaşı, belə bir məqamı da nəzərə almaq lazımdır ki, spontanlığı bütün məktublara aid etmək doğru olmaz, çünki bəzi müəlliflərin, məsələn: M.F.Axundzadənin, H.Zərdabinin, C.Məmmədquluzadənin məktublarının qaralamaları mövcudur [10, s.123-128]. Epistolyar mətnlərin nəzəri xüsusiyyətlərini araşdıran Y.Yelina bəzi rus yazıçılarının məktublarının qaralamalarını nümunə göstərərək qeyd edir ki, məktub həmişə irəlicədən düşünülür. Buna görə də məktub yazma prosesi istənilən halda danışıq prosesindən ləng həyata keçirilir. [8, s.30]

Fikrimizcə, hətta qaralamaların mövcudluğu da epistolyar mətnləri müəlliflərinin düşüncələrinin tam planlaşdırılmış ifadəsinə çevirə bilməz, çünki bütövlükdə mətnlərdə spontanlıq müşahidə edilir, düzəlişlər isə ayrı-ayrı ifadələrin seçilməsi ilə bağlı ola bilər ki, bunu da dil oyununun bir funksiyası kimi qəbul etmək olar.

Məktub müəllifləri "dialoq imitasiyası" yaradarkən epistolyar diskursu müxtəlif mövzuların müzakirə məkanına çevirirlər. Əgər diskurs ünsiyyət formasıdırsa, deməli, epistolyar diskurs da, xüsusən daha çox araşdırdığımız şəxsi məktublar da dostlar, yaxın insanlar arasındakı söhbət kimi nəzərdən keçirilə bilər. Söhbətlərin mövzusu isə hədsiz genişdir. Bununla əlaqədar olaraq, adətən, epistolyar diskursun politematikliyi vurğulanır. Nəzərdən keçirdiyimiz məktubların da əksəriyyəti yalnız informasiya ötürmək məqsədilə yazılmamışdır. Mətnlərin əksəriyyətinə müxtəlif mövzular daxil edilir (ailə məsələləri, ictimai problemlər, ədəbiyyatla bağlı problemlər, əsərlərin nəşr edilməsi və s. bir məktubda cəmlənə bilər). Bu zaman müəllif yalnız informasiya verməklə kifayətlənmir, epistolyar mətndən özünüifadə (fikirlərini açıqlamaq və emosional vəziyyətini çatdırmaq) vasitəsi kimi istifadə edir.

Qeyd etdiyimiz kimi, məktubların əksəriyyəti üçün politematiklik səciyyəvi xüsusiyyətdir. Bir məktubda bir neçə mövzunun müzakirəsini müşahidə etmək olar. Məsələn, Mir Cəlalın həyat yoldaşına yazdığı bir məktubda (19 may 1942-ci il, Novosibirskdən) həm ailəsi, uşaqları və yaxınlarına qayğı və narahatlıqları, onlarla bağlı xatirələri, həm də yol qeydləri, təəssüratları, səfər yoldaşı haqqında rəyi, gələcək planları da əks olunur: "*Bu məktubu Novosibirsk şəhərindən*

*yazıram. Səfərimiz bizi sizdən 10 günlük bir məsafə uzaqlaşdırmışdır. Bura Sibirdir. Soyuqdur. Sağ-salamat gəlmişik. Şeylərimizin çoxluğu, bir neçə yerdə vaqonumuzu dəyişməyimiz bizi incitdi. Daşkənddə bir gün qaldıq. Gözəl, səfalı, böyük bir şəhərdir. Sabah saat 11-də yola çıxdıq, getdiyimiz yerə hələ 6 sutka qalmışdır. Yolumuz yaxşı keçir. Mirzənin yoldaşlığı çox yaxşıdır. Əsas nigarançılığımız siz tərəfdəndir. Bilirəm ki, bizdən sonra nə qədər narahat olmusan. Bilirəm ki, uşaqlar ananı, səni nə qədər incidirlər. Ancaq buralarda, yolda, vaqonlarda bir uşaq görən kimi ürəyim bir tikə olur. Gözüm balalarımızı axtarır...Ailəmizin xoşbəxt saatları – axşamüstü hamımızın bir yerdə deyib-güldüyümüz yadıma düşür. Deyirəm əsl həyat, əsl səadət odur.. Bilmirəm Azərkinodan pul çatdımı? Maaşları vaxtında ala bilməsən, Arifə de. Vaxtında qəzet almasaq da, radionu hər gün eşidirik. Cəbhə xəbərlərini aramsız izləyirik. Bütün yod boyu qeydlər götürmüşük. İntibahlarımız var. Sağlıq olsa, qayıdanda yazarıq.*

*Püstə! Bilirəm, istilər düşəndə ananın səhhəti ağırlaşır. Başısoyuqluq eləməsin. Həkim çağır evə, müalicə eləsin... Yenə məktub yazacağam... Uşaqların üzündən öp!"* [4, s.355].

Göstərdiyimiz bu nümunə ilə bağlı onu da qeyd etmək lazımdır ki, burada epistolyar mətnlərin yuxarıda haqqında danışdığımız diskretlik xüsusiyyətləri də aydın görünür. Mövzulara diqqətlə baxdıqda onların hər birinin ayrıca bir mətn kimi genişləndirilməsinin mümkün olduğunu görə bilərik.

Bu cəhətdən xahiş və tövsiyə xarakterli qısa məktublar istisna təşkil edir:

– *"Həmidə! Yadımdan çıxdı sənə xatırladım ki, dəmir yolu ilə gələndə yumşaq vaqona bilet alasan, çünki xəstəsən,gərək yolu rahat gedəsən*" [5, s.310];

– "*Bu gün zakaznoy kağız içində 50 manatlıq çek göndərdim. Kağızı tez al və pulu al haman bankdan Buxovun 50 manatlıq vekselini çıxart, saxla. Təfsili haman kağızdadır*" [5, s.315];

– "*Əziz, mənim kitabımın tərcümə məsələsi necədir? Siz nəşriyyat ilə müqavilə bağlamısınızmı? Yaxın zamanlarda çap olunacağına ümid varmı? Mən istəyirəm Yevgenyevə məktub yazım. Onlardan ağlım bir şey kəsməsə, Moskvaya "Cənclər" nəşriyyatına vermək fikrindəyəm, istəyirlər. Siz məlum olan vəziyyəti mənə yazmanızı rica edirəm. Hələlik, sağ olun*" [4, s.350].

Qeyd edək ki, belə məktublar C.Məmmədquluzadənin epistolyar irsində daha çox izlənir və məzmunundan aydın görünür ki, bunlar bir mövzulu mətnlərdir.

Məktubların politematikliyini C.Məmmədquluzadənin də şəxsi məktublarında izləmək mümkündür, məsələn onun da həyat yoldaşı Həmidə xanıma yazdığı məktubda (14 fevral, 1912) bir neçə mövzuya – məişətlə bağlı problemlər, siyasət məsələləri, hava, maddi problemlər və s. toxunduğunu görürük: "*Həmidə! Dəyirmançı bu gün yola düşür. Dəyirman üçün bütün işləri görmüşük, lazım olan şeyləri sifariş veririk. Sənə 15 portağal və bir neçə qəzet göndəririrəm. Veksellləri və Ələkbərin məktubunu aldım. Gör, Kazımbəyov Ələkbər haqqında necə səmimi məktub göndərib.*

*Bu gün Qayıbova kağız göndərmişəm öyrənsin ki, Ağdamda kirayə verilən ev varmı? Cavabını İrəvana bildirəcəyəm.*

*Rus qoşunları İrandan qayıdır. Trablisdə böyük vuruşma olub, türklər qalib gəliblər. Ona görə də İtaliya Kisik Asiyadakı türk limanlarını bombardman eləyir.*

*Burada yağış yağır. Müzəffər indi mənim yanımda idi. Hamı salamətdir. Fevralın axırı üçün gələcəyəm. Veksellərin vaxtı barədə çalışaram; amma hər halda, pul olsa, poçtla göndər (veksellər üçün).*

*İstəkli kəhrizlilərsiz, xüsusilə Midhətsiz yaşamaq çox çətindir. Qızlar salam göndərirlər. Ağacları fevralın axırı üçün gətirərəm. Öpürəm*" [5, s.317].

Nümunədən göründüyü kimi, bu məktubda da diskretlik xüsusiyyətləri geniş təzahür etmişdir. C.Məmmədquluzadənin epistolyar irsində qeyd etdiyimiz xüsusiyyətlər adresatlardan asılı olaraq dəyişir, məsələn: Məmmədəliyə yazdığı məktublar daha çox bir mövzulu və xahiş, göstəriş

xarakterlidir, Həmidə xanıma yazdığı məktublar isə politematikdir. Bunu görkəmli ədibin digər adresatlara ünvanlanmış məktublarında da müşahidə etmək olar.

Ümumiyyətlə, politematiklik, demək olar ki, şəxsi məktubların əksəriyyəti üçün səciyyəvi olan xüsusiyyətdir.

Məktub müəllifləri epistolyar mətnlərin dilini danışıq üslubuna yaxınlaşdırmaqla məqsədyönlü şəkildə sadə nitq variantlarından, məişət leksikasından istifadə etməyə çalışmışlar. Məktublarda bəzən ədəbi dilimiz üçün xarakterik olmayan, ancaq məişətdə təsadüf edilən varvarizmlərdən də istifadə edilir ki, bu da şəxsi məktublarda daha çox səmimiyyət, yaxınlığın təzahürü kimi izah edilə bilər.

Ümumiyyətlə, qeyd etməliyik ki, dil oyunu müəllifdən böyük ustalıq, dilin incəliklərinə dərindən bələd olmaq və öz fikirlərini, yuxarıda qeyd etdiyimiz kimi, mövcud dil stereotiplərini qıraraq ifadə etmək bacarığı tələb edir. Sadalanan bu xüsusiyyətlərin hamısını nəzərdən keçirdiyimiz ədiblərin epistolyar irsində müşahidə edə bilərik.

Epistolyar mətnlərin bir xüsusiyyəti olan kreativlik müəyyən diskurs tiplərinin nitq normalarından kənara çıxmasıdır, onun yaratdığı vahidlər isə tədricən normativləşərək milli zəmində ənənəvi ifadələrə çevrilir. Kreativliyin isə əsas təzahür forması dil oyunudur. Dil oyunu dedikdə epistolyar nitqin spontanlığı, diskretliyi, politematikliyi kimi xüsusiyyətləri nəzərdə tutulur.

Epistolyar mətnləri şifahi məişət üslubuna yaxınlaşdıran dil oyunu daha çox məktubların etiket çərçivələrini pozmaq və müraciət formalarında müəyyən komik effektlər yaratmaq, həmçinin leksika və frazeologiya səviyyəsində yeni ifadə formaları işlətməklə də təzahür edə bilər. Qeyd edər ki, epistolyar mətnlərin kreativliyi aspektində dil oyunlarının bu xüsusiyyətləri daha geniş şəkildə başqa tədqiqat işimizin mövzusu kimi nəzərdə tutulmuşdur.

## ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Azərbaycan dilinin etimologiya lüğəti// https://obastan.com/azerbaycan-dilinin-etimologiya-lugeti/pd/
2. Çələbiyev N. Müasir psixologiyada kreativlik və yaradıcı istedad problemi. https://tehsiljurnali.az
3. Məmməd Səid Ordubadi arxivindəki məktublar / –Bakı: Nurlan, –2002. –100 s.
4. Mir Cəlal. Epistolyar irs: ünsiyyətin canlı şahidi: [2 cilddə] // Mir Cəlal. –Bakı: Nurlar, C.2, –2014, –s.343-370.
5. Məmmədquluzadə, C. Əsərləri. Memuarlar, məqalələr, məktublar: [4 cilddə] / C.Məmmədquluzadə. –Baku: Öndər nəşriyyat, –2004, –472 s.
6. Mirzə İbrahimovun Sara xanımla yazışmaları. Sevgi məktubları. –Bakı: Qanun, –2016, –96 s.
7. Şiriyev, F. A. Siyasi diskurs və leksik vahidlər / –Bakı: Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. –2011, №2, s.5-10.

**Rus dilində**

8. Елина, Е.Г. К теории эпистолярия / Е.Г. Елина // Поэтика и стилистика, сб. ст. / под ред.: И.В. Чуприны, В.Е. Гольдина. –Саратов: Саратов, ун-т, –1980.
9. Лотман, Ю.М. Механизмы диалога / Ю.М. Лотман // Лотман Ю.М. Внутри мыслящих миров. Человек - текст - семиосфера - история / Ю.М. Лотман. – М.: Яз. рус. культуры, 1999. - С. 193 - 206.
10. Переписка Мирзы Фатали и Рашиб-бека Ахундовых. –Баку, –1991, –176с.
11. Седов, К.Ф. Дискурс и личность: эволюция коммуникативной компетенции / К.Ф. Седов. –М.: Лабиринт, –2004. –320 с.
12. Степанов, Н.Л. Дружеское письмо начала XIX века. Письма Пушкина как литературный жанр / Н.Л. Степанов // Степанов Н.Л. Поэты и прозаики. / Н.Л. Степанов. — М.: Худож. лит., –1966. –С. 66-100.

**РЕЗЮМЕ**
**КРЕАТИВНОСТЬ ЭПИСТОЛЯРНЫХ ТЕКСТОВ**
***Эфендиева Л.Р.***

***Ключевые слова:*** *креативность, эпистолярные тексты, личные письма, дискурс, дискретность, спонтанная речь.*

В современное время креативность объясняют как творческую способность, процесс создания оригинальных продуктов и идей. Острота, ясность, оригинальность мышления составляют характеристику личности, показывают его способность выходить за рамки традиционных образов мышления. Эпистолярные тексты создаются в процессе дискурса, а творческие черты дискурса можно отнести и к эпистолярным текстам, также и «творческий потенциал» авторов можно рассматривать как креативность эпистолярного текста. Составление писем тоже в определенном смысле является творческим процессом. Чем больше отклонение в эпистолярных текстах от общепринятых шаблонов письма, тем шире можно говорить о креативности в эпистолярии.

Во всех эпистолярных текстах наблюдается разный уровень креативности. Креативность в процессе дискурса проявляется в «языковых играх». На основе примеров, приведенных из эпистолярного наследия азербайджанских писателей в статье рассматриваются языковые игры в дискурсивном процессе в различных аспектах, таких как спонтанность и дискретность.



**SUMMARY**
**CREATIVITY OF EPISTOLAR TEXTS**
***Efendiyeva L.R.***

***Key words:*** *creativity, epistolary texts, personal letters, discourse, discreteness, spontaneous speech.*

In modern times, creativity is explained as a creative ability, the process of creating original products and ideas. Acuity, clarity, originality of thinking constitutes a characteristic of a person, shows his ability to go beyond traditional thought patterns. Epistolary texts are created in the discourse process, and the creative features of discourse can also be attributed to epistolary texts. Creativity can also be attributed to the “creative potential” of the epistolary text’s authors. Writing letters is also, in a certain sense, a creative process. The greater the deviation in epistolary texts from the generally accepted patterns of writing, the wider one can talk about creativity.

Different level of creativity exists in all texts of letters. Creativity in the process of discourse is observed in “language games”. Based on examples given from the epistolary heritage of Azerbaijani writers, the article examines language games in the discursive process in various aspects, such as spontaneity and discreteness.



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 14.08.2023 |
| | Son variant | 11.09.2023 |

Sumqayıt Dövlət Universiteti – **"ELMİ XƏBƏRLƏR"**– Sosial və humanitar elmlər bölməsi
**Cild 19 № 3 2023**

**UOT 82.11** DOI 10.54758/16801245_2023_19_3_29

# MİR HƏMZƏ SEYİD NİGARİNİN (1797-1885) POEZİYASINDA QARABAĞIN ƏDƏBİ MÜHİTİNİN TƏCƏSSÜMÜ

**ƏLİYEV ƏLİ UMUD oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı, Azərbaycan, f.f.d., baş müəllim*
eli.eliyev.54@mail.ru

***Açar sözlər:*** *Qarabağ, Zəngəzur, Laçın, Cijimli, Nigari, Məlik Əjdər, Sultan Baba, Şeyx Əhməd, Çilgəz yaylağı, Həmzə bulağı.*

**Giriş.** Mir Həmzə Seyid Nigari Qarabaği təkkə-təsəvvüf ədəbiyyatının nümayəndəsi, nəqşbəndi şeyxidir. O, Qarabağ ədəbi mühitinin nümayəndəsidir. Onun yaradıcılığı mühitin spesfikasını təyin edən bədii faktdır. Odur ki, bu mühitdə aşıq yaradıcılığı ilə klassik üslub vəhdət təşkil edir. Həmçinin Seyid Nigari yaradıcılığı Qarabağ ədəbi mühitinin əsas xüsusiyyətlərini əks etdirməklə, mühitin zənginliyini göstərir. Seyid Nigari müasir gənclik üçün mənəviyyat ocağı, tərbiyə məktəbidir. Bu məktəbi dərk etmək üçün bütöv bir ədəbi mühitin deyimi, duyumu və yozumu araşdırılmalıdır. Odur ki, bu da mövzunun aktuallığını şərtləndirir.



XVII-XIX əsr Qarabağ ədəbi mühitinin öyrənilməsi bir sıra ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığının qaranlıq və gizli qalan tərəflərinin aşkarlanması deməkdir. Həmin şəxsiyyətlərdən biri də Şeyx Mir Həmzə Seyid Nigaridir. Onu da qeyd edək ki,XVII-XIX əsrləri təkcə xalq şeiri üslubunda yazan şairlərin yaradıcılığı ilə səciyyələndirmək mümkün deyil. Burada əsas olan aşıq şeiri tərzinin aparıcılığı xəttidir. Lakin hər iki üslub biri-birilə bahəm inkişaf edirdi. Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Kərbəlayi Səfi Valeh, Abdulla Canızadə, Aşıq Qənbər, Qasım bəy Zakir və digərləri Şeyx Mir Həmzə Seyid Nigari də daxil olmaqla klassik üslubda şeirlər yaradırdılar. Həmin nümunələr mühitin spesifikasını, sənətkarların yaradıcılıq imkanlarını aşkarlayan bədii faktdır.

Yeri gəlmişkən bir məqamı da qeyd edək ki, Şeyx Mir Həmzə Seyid Nigari daha çox klassik üsluba, Füzuli ruhuna, təriqət düşüncəsinə köklənən şairlərdəndir. Mənbələr onun haqqında bir qədər az məlumat verir. Daha doğrusu, onun adı yalnız kiçik bir xatırlama ilə verilir. "Bu seyidi - alicənab ki, darayi-elmü ədəb imiş, islami-şərifi Hacı Mirzə Əfəndidir. Qarabağın Zəngəzur uyezdinin Cicimli nam qəryəsində təvəllüd etmiş." [1, s. 242].

Bu, məşhur təriqət Şeyxi Seyid Nigari haqqında deyiləndir. Qarabağda "təhsili-kamalata" yetişən nəqşbəndi mürşidi haqqında Məhəmmədağa Müctəhidzadə də, Mir Möhsün Nəvvab da elə bir yaradıcılıq faktı verməmişdir. Ancaq yuxarıdakı informasiya özünün mükəmməlliyi, təzkirəçinin bələdliyi ilə xarakterizə olunur. Onun şeirlərindən isə heç bir nümunəyə rast gəlmirik. Bir məqamı da xatırladaq ki, bu nəqşbəndi mürşidi haqqında Firudin bəy Köçərli kifayət qədər məlumat verir. Onun Qafqazda, Kiçik Asiyada məşhur olmasını, "Divanı"nın "Qeyrət" mətbəəsində Ömər Faiq Nemanzadənin və Cəlil Məmmədquluzadənin 1907-ci ildə çap etdirdiyini qeyd edir.

Nəqşbəndi təriqətinin böyük şeyxi Seyid Nigari sözün həqiqi mənasında XIX əsr Qarabağ ədəbi mühitinin ən qüdrətli nümayəndəsidir.

Şeyx Mir Həmzə Seyid Nigari Qarabağ mahalının Zəngəzur bolgəsi (bu bölgə 1930-cu ildən etibarən Laçın adlandırılmışdır) üzrə Cijimli kəndində 1797-ci ildə anadan olmuşdur. Atası Ruknəddin (Mir Paşa da deyilirmiş), anası isə Qızxanım (Xeyrünnisə də deyirmişlər) olmuşdur. Seyid Nigari 1885-ci ildə Harput şəhərində vəfat etmişdir. O, Cijimli seyidlərinin nəslindəndir. 6 aylıq olarkən atasını itirmişdir. Sonralar kürdəmirli nəqşbəndi Şeyxi İsmayıl Əfəndinin təlim və tərbiyəsini alır. Hac ziyarətində olur və oradan Amasiyaya gedir. 1840-1841-ci illərdə yenidən doğma kəndi Cijimliyə qayıdaraq müəllimlik etmiş, Qarabağda şöhrət qazanmışdır. Əminə adlı bir xanımla evlənmiş və ondan Siracəddin adlı oğlu olmuşdu. Siracəddin 20 yaşında dünyasını dəyişmişdi. [5].

Klassik üslubda yazdığı qəzəl, qəsidə, təcribəndləri ilə Məhəmməd Füzuli ənənəsinə yaxınlaşırsa, xalq şeiri üslubunda yazdığı nümunələrlə Yunis Əmrə yaradıcılığının davamçısı olaraq mühüm dəyər qazanır:

*Eşqin kanı, Qarabağdır məkanım,*
*Bülbülü-şeydayam, cənnət yerimdir.*
*Əzəl başdan Qaraqaşlı bustanım,*
*İmdi gülüstanım Qara pirimdir.* [2, s. 332]

Seyid Nigari şeirlərində bu ruh əvvəldən axıra qədər davamlı olaraq yaşanır. Yurd, torpaq sevgisi, dövrün, zamanın təlatümləri, şair – mürşid narahatçılığı ayrı-ayrı misraların, bütövlükdə şeirin fikir yükünə çevrilir. Müəllif Qarabağı eşqin kanı, cənnət yeri, özünü isə bülbüli-şeyda kimi təqdim edir. Son olaraq: “Qarabağım qanlı qara bağımdır, Gözlərimdən axan yaş Tərtərimdir” deyir. Bu, şairin vətən sevgisi, yurd narahatçılığıdır. Onun başlanğıcı isə Qarabağ xanlığının başına gətirilən müsibətlərdən qoyulmuşdu və həmin dövrün siyasi probleminin ağırlığı kimi müxtəlif nümunələrdə yaşanırdı. Çünki Seyid Nigarinin özü də bu proseslərin ağırlığından bir müddət Qazağa, sonra isə oradan da Türkiyəyə –Amasiyaya üz tutmaq məcburiyyətində qalmışdı.

Doğulduğu torpağın həmişə erməni və ruslar tərəfindən işğala məruz qalması şairin şeirlərindəki nisgilin əsas səbəblərindən biri olmuşdur. Qarabağ məfhumu şair üçün bütöv Azərbaycan deməkdir” [3].

Başqa bir məlumatda isə Seyid Nigarinin Qarabağdan getməsinin təfərrüatı belə qeyd olunur.

Qafqaz Universiteti Pedaqoji Fakültəsi, Türk Dili və Ədəbiyyatı bölməsinin əməkdaşı Pərvanə Bayram “Seyid Nigarinin həyatı və yaradıcılığı” haqqında məqaləsində yazmışdır:

“Vətəni Qarabağda və daha çox Qazax mahalının Xanlıqlar kəndində yaşayan şair, Çar Rusiyasının, bu irşad fəaliyyətindən narahat olaraq onu sürgünə göndərmək istəyini öyrənir və yenidən Anadoluya qayıdır.” [İntenetdə 13 səhifə. Qafqaz Universiteti Pedaqoji Fakültəsi, Türk Dili və Ədəbiyyatı bölməsinin əməkdaşı Pərvanə Bayram “Seyid Nigarinin həyatı və yaradıcılığı”].

O səbəbdən də Qarabağ onun yaradıcılığında tez-tez xatırlanırdı.

Seyid Nigari Vətən həsrəti motivində sələfi Ağabəyim Ağabacı ilə birləşir. Ancaq onun yaradıcılıq üslubu Qarabağ mühitində tamamilə fərqlilikdə səciyyələnir. Bir növ Əhməd Yasəvi, Yunis Əmrə xəttində müşahidə olunur. Qarabağ ədəbi mühitində XIX və XX əsrin əvvəllərində bu böyük sənətkar qədər məşhurlanacaq ikinci bir şəxs yoxdur. Biz onun xalq şeiri üslubunda yazdığı nümunələri Vətən, Qarabağ sevgisi timsalında xatırladıq. Ancaq onun daha böyük və zəngin tərəfini əruz vəznində yazılan nümunələr təşkil edir. Böyük təriqət mürşidi kimi Qarabağ, Qazax, Borçalı, Ermənistan və Amasiya tərəflərdə məhşurlaşıb. “Seyid Nigari qədər Azərbaycanda və sonralar Türkiyədə geniş nüfuza malik olan Şeyx olmayıb” [2, s. 6]. Məhz bunun nəticəsi idi ki, o, hər zaman təqib olunurdu. Bütün məqamlarda Seyid Nigari Qarabağ ədəbi mühitinin nümayəndəsi kimi böyük dəyər kəsb edir:

*Gəlin ey əhli-könül, artıb azarım, eşidin,*
*Yox rəvacım, kəsilib biinəzarım, eşidin.*
*Pozulub rövnəqi-gülzari-baharım, eşidin,*
*Qalmayıbdır tükənib leyli-naharım, eşidin.* [2, s.120]

Bu, özlüyündə mühitin ağrıları idi və Seyid Nigari şeirlərində bir ardıcıllıqla yaşanırdı. Şairin yaradıcılığı XIX əsr Qarabağ ədəbi mühitinin rəngarəngliyini ifadə edir. Məhz bütün bunların nəticəsi olaraq F. Köçərli yazırdı: "Qarabağın elmü kamalı ilə mərufü məşhur olan şairlərindən biri də mərhum Hacı Mirhəmzə Əfəndi ibn Mirpaşadır" [5, s.142]. Bunu onun Azərbaycanda və Türkiyədə böyük müridlər mürşidi olması da aydın şəkildə göstərir. Hətta bu gün də xalq arasında onun şeirləri, ideyaları, təriqət ənənəsi yaşanır. Və çox böyük düşüncə sahibi kimi ədəbiyyatımızı izləyir. Bunların hamısı isə ümumilikdə Qarabağ ədəbi mühitini xarakterizə edərək, mühitin zənginliyini göstərir.

*Nə əcəb dövlət imiş Seyri-Şikari-Qarabağ,*
*Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ!*
*Rəşki-mişk-ənbər imiş buyi-gübari-Qarabağ,*
*Abi-heyvan imiş ənhari-pünari-Qarabağ.* [2, s.8]

Bu nümunələr XIX əsrdə Qarabağ ədəbi mühitindəki ümumi mənzərənin ifadəsidir. Klassik üslubun, təriqətçilik ənənəsinin davamı kimi bu əsrdə özünün parlaq mərhələsini yaşayır. Bunun kökləri isə daha əski çağların düşüncəsinə, sufizm, hürufizm ideyalarının tüğyan etdiyi orta çağlara gedib çıxır. Bu, Qarabağ ədəbi mühitinin timsalında məsələnin bir tərəfidir. Onun zənginliyində klassik üslubun Şərq poeziyası ənənələrində davamlı olaraq yaşanması var. Bu, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu Natəvan xəttində açılır. Bütün bunlar XIX əsr Qarabağ ədəbi mühitinin spesifikasına dayanır. [6, s. 32-35]

Şeyx Mir Həmzə Seyid Nigari Qaraqaşlı Əhməd Əfəndiyə yazdığı məktubda Nigar xanıma olan sonsuz məhəbbətindən söz açmışdır. Qeyd etmişdir ki, Nigar xanımın camalı yalnız İlahi nurun təcəssümüdür. Şeirlərinin birində bu barədə belə vurğulayır:

*Alıbdır canımı qəmzə,*
*Düşübdür könlümə lərzə,*
*Hər bir aşiq Seyid Həmzə,*
*Hər bir dilbər Nigar olmaz.* [2, s. 15]

Başqa bir deyimlə Seyid Nigari segilisi, ciyərparası olan Nigarı nəzərdə tutaraq belə deyir:

*Abad olsun Qarabağ içrə ol yer, çünki cananın,*
*Həbibanə qəra qaşına qurban olduğum yerdir.*
*Abad olsun gözüm, zira ki bir dəsti-dilaradan*
*Çəkib badeyi-vəhdət kamil insan olduğum yerdir.* [2, s.163]

Buradan bir daha aydın olur ki, Mir Həmzə Qarabaği Nigar xanıma olan yüksək İlahi məhəbbətə görə "Nigari" təxəllüsü götürməklə bu diyarın, yəni Qarabağın bütün varlığına heyrandır və onun vurğunudur:

*Bir atəşdir bana, yad eylədikcə gəzdigin yerlər,*
*Cigər büryan edər andıqca bağrım əzdigin yerlər.*
*Könül, yad eylədikcə, ləxtə-ləxtə qan tökər çeşmim,*
*Gəzib avlaqların, avların, ey büt, süzdügün yerlər.* [2, s.166]

Şair "Çaynamə" adlı məsnəvisində Qarabağın sərhədlərini poetik dillə belə təsvir etmişdir:

*Bir yerdəyəm, istidir Qarabağ,*
*Cənnət yeri. Abi şirü qaymaq...*
*Qərbiyyəsi - Göyçə, gahi-xuban,*
*Şərqiyəsi – Badikubi - Şirvan.*

*Sərhəddi - Cənubisi Ərəsdir,*
*Gürcidi Şimali, xoş nəfəsdir.* [2, s. 773].

Şairin doğulduğu Cijimli kəndi qədim tarixə malik, tarixi abidələrlə zəngin olan bir məkandır. Burada Çobandaş, Daranlı, Zahar kahası, Başmaqçının yalı, Dibək dərəsi, Çələbi yurdu, Div kahası, Çıraq daşı, Dibəkli, Cijim ocağı, Cinlicə və s. tarixi yer-yurd adları vardır. Həmçinin Cijimlidə dəmir dövrünə aid "Qız qəbri" kurqanı, XI-XIV əsrlərə aid "Məlik Əjdər" türbəsi, Qoşa məbəd, "Sultan Baba" və "Şeyx Əhməd" türbələri Cijimlinin qədim tarixindən soraq verir.

Cijimli kəndinin adı "Cijim ocağı" adlanan qəbir-pirin adı ilə adlandırılmışdır. Bu ocaq xalq sınağından keçdiyinə görə, bir çox dərdlərin sağalıb, şəfa tapmasına görə müqəddəs məkana çevrilmişdir. Belə nəql edirlər ki, bu ocağa quduzluğa tutulmuş heyvanların dişləməsi nəticəsində quduzluğa tutulma qorxusu yaranan uşaq-böyük kim gəlib buranı ziyarət edib, pirin torpağından hazırlanmış palçıqdan yaranın üstünə qoyub sarıyarmışsa, quduzluqdan xilas olarmış. Hətta bir dəfə iki uşağı quduz tülkü dişləyir. Uşağın birini "Cijim ocağı"na aparıb yarasına palçıq çəkib sarıyırlar. O, uşaq sağalır. O, biri uşağı isə oraya aparmırlar, uşaq ölür.

Şeyx Mir Həmzə Seyid Nigari Laşın rayonunu qarış-qarış gəzmiş, onun yer-yurd adlarına yaxından bələd olmuş, əsərlərində bu yerləri, yaylaqları vəsv etmiş, həmin adları tarixin yaddaşına əbədi həkk etmişdir:

*Canıma çəkmiş fələk Bərgüşadın dağını,*
*Sönməz atəşi, ursan Həkəri irmağını.* [2, s. 520].

*Ol yerdə cənab Malik Əştər,*
*Dəstində kəməndi-çərxi-çənbər...*
*Bir ali binadəndir o dilbənd,*
*Məşhurdur adı Qoşa künbəd.*
*Tövt eylə o barigahi-xasi,*
*Səhbalini eylə qəm xilası.*
*Ol qəryədədir məzari-aşiq,*
*Əlqabi-şəhiri Sarı Aşıq.* [2, s. 779].

Göründüyü kimi şair Çilgəz yaylağı, Qaraqaş yaylağı, Həmzə bulağı, Bərgüşad çayı, Həkəri çayı və irmağı, Malik Əjdər türbəsi, Qoşa künbəd abidəsi, Sarı Aşiqin qəbri və Mirbali-Heydər türbəsini yad etməklə vətənə məhəbbətini və sevgisini əks etdirməklə bərabər bu yerlərə öz möhürünü də vurmuşdur.

**Nəticə.** Laçın rayonunun, bütövlükdə Zəngəzurun ədəbi-bədii möhür vəsiqələrindən biri də Mir Həmzə Seyid Nigari Qarabağidir. O, vətəndən uzaqlarda yaşasa da, uşaqlıq, gənclik illərinin keçdiyi Bərgüşad-Bərşad, Həkəri çaylarını, Cijimli kəndini, Laçın dağlarını, yaylaqları, bulaqları xatırlayır və xatırladır. Vətən sevgisi onun ülvi duyğusudur. Qarabağın ülvi gözəlliklərini Seyid Nigari qədər vəsf edən olmayıb.

XIX əsrin ortalarında Qafqazda rus işğalına qarşı çıxan, onun fəsadlarını dərk edən, ilk üsyan ideyasının müəlliflərindən biri olan Seyid Nigari bu səbəbdən təqiblərə məruz qalmış və vətəndən didərgin düşmüşdür. Onun sadiq müridləri isə XX əsrin 20-ci illərində bolşevik-daşnaq işğalına qarşı çıxdıqlarına görə Zəngəzurun qazisi Bəhlul Behcət, onun bacısı oğlu Mir Sədi Ağa və Hacı Fətəli Əfəndi represiyanın qurbanı olmuşlar.

Mir Həmzə Seyid Nigarinin yaradıcılıq dünyası bir ədəbi məktəb, tərbiyə ocağıdır.

## ƏDƏBİYYAT

1. Müctəhidzadə, M. Riyazül–aşiqin / M.Müctəhidzadə, –Bakı: Azərnəşr, –1995. –128 s.
2. Nigari, S. Xaki–pakın, tacı-sərim / S.Nigari, Tərt. edən: Yəhya Çələbi. –Bakı: Azərbaycan, –2004, –336 s.

3. Xuraman, H. Mir Həmzə Seyid Nigari yaradıcılığında Qarabağın vəsfi / –Bakı, Azərtac, –2020, 21 noyabr.
4. Pərvanə, B. Seyid Nigarinin həyatı və yaradıcılığı. https://turkoloji.cu.edu.tr/ESKI%20TURK%20%20EDEBIYATI/pervane_bayram_nigari_hayati.pdf
5. Köçərli, F. Azərbaycan ədəbiyyatı: 2 cilddə / F.Köçərli, II cild. –Bakı: Elm, –1981. –460 s.
6. Əliyev, Ə.U. Qarabağ ədəbi mühiti və Mir Möhsün Nəvvab: monoqrafiya /. Ə. Əliyev; elmi red. K.İ.Əliyev. –Bakı: Avropa, –2016. –151 s .
7. Mir Həmzə S. N. Nigarnamə / S.N. Mir Həmzə, –Bakı: Elm və təhsil, –2012. –406 s.
8. Mir Həmzə S. N. Divan / S.N. Mir Həmzə. –Bakı: Elm və təhsil, –2010. –824.

## РЕЗЮМЕ
## ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ КАРАБАХА В ПОЭЗИИ МИР ХАМЗЫ СЕИДА НИГАРИ (1797-1885)

***Алиев А.У.***

***Ключевые слова***: *Карабах, Зангезур, Лачин, Джиджимли, нигари, Мелик Дракон, Султан Баба, Шейх Ахмед, плато Чилгаз, источник Хамза*.

Шейх Хамза Сеид Нигари – одна из самых ценных фигур карабахской литературной среды XIX века. Он один из тех поэтов, которые в основном придерживаются классического стиля, духа Физули, сектантской мысли. Также он приобрел важное значение как последователь творчества Ионы Амра с примерами, написанными в стиле народной поэзии.

Шейх Хамза Сеид нигари родился в 1797 году в селе Джиджимли Лачинского района, умер в 1885 году в городе Харпут. Он прошел долгий и значимый творческий путь от джиджимли до Амасии.

## SUMMARY.
## THE ARTISTIC EMBODIMENT OF KARABAKH IN POETRY MIR HAMZA SEYID NIGARI (1797-1885)

***Aliyev A.U.***

**Keywords:** *Karabakh, Zangazur, Lachin, Cijimli, Nigari, Malik Ajdar, Sultan Baba, Sheikh Ahmad, Chilgaz plateau, Hamza spring*.

Sheikh Hamza Seyid Nigari is one of the most valuable figures of the 19th century Karabakh literary environment. He is one of the poets who is more in tune with the classical style, Fuzuli spirit and sectarian thinking. Yunus Emre also gained significant value as a follower of his work with his examples in the style of folk poetry.

Sheikh Hamza Seyid Nigari was born in 1797 in the village of Cijimli, Lachin region, and died in 1885 in the city of Harput. He traveled a long and meaningful creative path from Cijimli to Amasya. It is known for its Karabakh ratio.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 06.07.2023 |
| | Son variant | 08.09.2023 |

**UOT 82.11** DOI 10.54758/16801245_2023_19_3_34

# VİLYAM ŞEKSPİRİN FACİƏLƏRİNDƏ ŞƏXSİYYƏT VƏ CƏMİYYƏT PROBLEMİ

**ZEYNALLI GÜNEL FAZİL qızı** ORCID
*Sumqayıt Dövlət Universiteti, Azərbaycan, fil.f.d., müəllim*
*gunel185@gmail.com*

***Açar sözlər:*** *dramaturq, faciə, mühit, insan, humanizm*

Görkəmli ingilis dramaturqu, şair və yazıçı Vilyam Şekspir dünya xalqlarının ədəbi-mədəni fikir tarixində şərəfli yer tutan korifey sənətkarlardan biridir. İnsanın həyatda yeri, onun sosial mövqeyi Şekspirin yaradıcılığında, xüsusilə faciələrində başlıca sosial problemlərdən biridir. Şekspir pisliklərlə dolu bir cəmiyyətdə insanın taleyini təsvir edir. Onun qəhrəmanı ağır sınaqlardan keçir, dərin iztirablar yaşayır, daxili mübarizə onun üzüntülərini, həyəcanlarını artırır və istər-istəməz bu təlaşlar içərisində mənəvi təkamülə məruz qalır. Biz bu məqalədə əsasən dramaturqun “Hamlet”, “Otello”, “Kral Lir”, “Maqbet” faciələri üzərində dayanmaqla sosial mühit və şəxsiyyət, cəmiyyət və kamil insan problemini araşdırmağa çalışacağıq. V.Şekspirin ən məşhur faciəsi olan “Hamlet” əsərində də bu problemlə qarşılaşırıq. Əsərin qəhrəmanı mənəvi seçimlə üzləşmək məcburiyyətindədir: “Olmaq, yoxsa olmamaq?”. Bu məşhur ifadə Hamletin dərin ruhi iztirablarını təcəssüm etdirir. “Necə yaşamalı?”, “nəyə inanmalı?”, “olanlarla barışmaq, yoxsa mübarizə aparmaq?”. Atasının xaincəsinə qətlə yetirilməsi, anasının xəyanəti, dostlarının satqınlığı-bütün sarsıntılar Hamleti idealist dünyadan çıxarır və o, reallığın sərt üzü ilə qarşı-qarşıya dayanır. Ətrafındakı insanlarının əslində heç də hamısının vicdan və namus anlayışlarına uyğun yaşamadığının fərqinə varır. Ailə namusunu ləkədən təmizləmək və atasının intiqamını almaq mövcud cəmiyyətdə təbii hal kimi qəbul olunur. Hamlet də vəzir Polonini öldürməklə qatilə çevrilir. Poloninin oğlu Layert atasının qisasını almaq niyyətindədir. Nəticə etibarilə pislik pisliyi doğurur və oxucu yenidən həmin suala qayıdır: “Olmaq, ya olmamaq?” Hansı doğrudur? Heç nə etməmək və taleyin qarşısında baş əymək, yoxsa pisliyə pisliklə cavab verərək mübarizə aparmaq? Bu çox çətin mənəvi seçimdir. “Olum, ya ölüm” monoloqu Hamletin bir obraz olaraq faciəsinin açarıdır:

*Olum, ya ölüm, budur məsələ.*
*Hansı şərəflidir? Azğın taleyin*
*Müdhiş oxlarına susub dözməkmi,*
*Yoxsa fəlakətlər nəhrinə qarşı*
*Silaha sarılıb üsyanmı etmək?*
*Ya qələbə çalmaq, ya həlak olmaq*? [5, s.220]

Şekspir bu faciəni intibah dövründə yazmışdır. İntibah dövrünün əsas prinsipi humanizm və bəşəri dəyərlər idi. İnsanını şəxsi seçim və azadlıq hüququna malik olması konsepsiyası məhz renessans dönəmində irəli sürülmüşdür. Danimarka şahzadəsi olan Hamlet intibah dövründə yeni nəslin ədəbi qəhrəmanına çevrildi. Şekspir onun simasında renessans insanının zəkasını və güclü iradəsini nümayiş etdirir. Hamlet təkbaşına şərə qarşı mübarizə aparmağa qadirdir. Ətrafındakı eybəcərliklər onun daxilində böyük sarsıntılar yaradır:

*İlahi, ilahi! Mənə bu dünya*
*Necə də mənasız, miskin görünür.*
*Hər yanda rəzalət, hər yanda dəhşət!*

*Baxımsız bağçanı kol-kos basantək,*
*Əclaflıq, alçaqlıq tutub dünyanı.* [5, s.170]

Şekspirə qədər bədii ədəbiyyatda belə qəhrəman obrazı olmamışdır. Ona görə də Hamletin əhvalatı Avropa ədəbiyyatının ideoloji istiqamətində bir sıçrayış oldu.

Hamlet əsərin mərkəzi qəhrəmanıdır. Pyesin əvvəlindən Hamletin məqsədi bəllidir: atasının vəhşicəsinə öldürülməsinin qisasını almaq. Amma Hamlet humanistdir, o, yeni dövrün adamıdır və onun zərif təbiəti qəddarlığı və zorakılığı qəbul etmir. O, şərin və zülmün hökm sürdüyü aləmdə yaşaya bilmir. Onun daxilindəki mənəvi təzadların əsas məğzi budur ki, o, özünü hərəkətə keçməməkdə, heç nə etməməkdə dəfələrlə qınayır, başa düşür ki, sadəcə sözlərlə heç nə həll olunmur, amma konkret olaraq da nəsə edə bilmir. “Hamlet bu xaosun içərisindən keçməli idi ki, özünün həyatdakı mövqeyini dərk edə bilsin” [6, s.127]. Atasının qətlinə pisliyin hökm sürdüyü dünyanın bir portreti kimi yanaşır. Hamlet üçün dünya ən böyük dustaqxanadır. Danimarka isə onun ən pis, qorxunc yeridir. Hamlet acı bir təəssüflə dərk edir ki, ətrafında onun kimi düşünən, onun xarakterində olan kimsə yoxdur, nəcib duyğular və alçaqlığın və eqoizmin basqısı altında məhv olur. Cəfər Cabbarlının Oqtayı, Aydını kimi Şekspirin Hamleti etirazçı, üsyankar, daxili konflikt yaşayan romantik qəhrəmandır. Humanizm və şəxsiyyət azadlığı hər üç qəhrəmanın amalıdır. Onlar rəzil mühitin haqsızlıqlarını görür və ümumbəşəri dəyərlərin müdafiəsinə qalxaraq mövcud cəmiyyətin amansız qanunlarını inkar edirlər.

Hamlet təkcə Klavdiy və onun casuslarını aldatmaq üçün yox, öz qəzəb və kədərini daha sərbəst şəkildə ifadə edə bilmək və şübhədən yayınmaq üçün dəli rolunu oynayır. O, qisas almaq qərarına gəlir və bu şərin öz cənginə aldığı dünyanı dəyişmək cəhdidir. Tərəddüdlər içərisində çırpınan Hamletin ləng davranmasının səbəbi nə qədər qətiyyətli və güclü olsa da, tək bir nəfərin belə bir tapşırığın öhdəsindən gəlib və yaxud gələ bilməmək bacarığıdır. “Şekspirin faciə qəhrəmanları çox düşünür. Onlar köhnə düşüncələrlə qane olmurlar. Onlar üçün əbədi həqiqət deyə bir şey yoxdur. Real olaraq yaşanan, məntiqin sınağında keçən, gerçək duyğulara söykənən hər nə varsa onlar üçün başlıca kriteriyadır” [10, s.152]. Buna görə də Hamlet daima düşüncələr, narahatlıqlar, şübhələr içərisindədir. Bu təzadlar içərisində onun mənəvi faciəsi dayanır. Hamlet bütün pisliklərdən, yaşadığı cəmiyyətin eybəcərliklərindən uzaqlaşmaq üçün ilk olaraq ölümü düşünür. Eyni zamanda ölkəsinin taleyi qarşısında məsuliyyətini hiss edir, başa düşür ki, bəşəriyyəti dəyişmək, şərin kökünü kəsmək zəruridir. Amma bir nəfər tək şəkildə bu vəzifənin öhdəsindən gələ bilərmi? Əlbətt ki yox. Bu həm qəhrəmanın, həm də Şekspirin faciəsidir. Hamletin monoloqlarında çox vaxt istehza və sarkazm ifadə olunsa da, ancaq bununla paralel onun təəssübkeşliyini, şəxsi həyəcanlarını, həssaslığını hiss etməmək qeyri-mümkündür: “İndi belələri nə qədər desən var. Onları bu dəyəris əsrimiz yaman qiymətə mindirib. Onlar saraya yığılmış bir növ adamlardı, çəlləyə toplanmış köpük kimi hamının diqqətini cəlb edirlər. Onları yoxlamaq üçün bir azca üfürəndə o saat qovuq kimi partlayıb heç olurlar” [5, s.300].

Hamletlə bağlı qədim rəvayətdə Hamletin əsas vəzifəsi qan davasıdır, qisasdır. Amma Şekspirin Hamleti isə sadəcə atasının intiqamını almaqla kifayətlənmir, o, xəyanət və hiylənin hökm sürdüyü dünyanı yaxşılığa doğru dəyişmək arzusundadır. Bu baxımdan Hamlet bizə C.Məmmədquluzadənin “Ölülər” faciəsinin qəhrəmanı Kefli İskəndəri xatırladır. Hamletin əsas düşməni əmisi Klavdiy, Kefli İskəndərin isə əsas tənqid hədəfi Şeyx Nəsrullahdır. Hər iki qəhrəman mübarizə meydanında təkdir, yalnızdır. Hamlet düşüncələrini aydınlığa qovuşdurmaq, intiqamını almaq üçün məcburən özünü dəliliyə vurur. Kefli İskəndər isə bütün gerçəklikləri sərxoşkən daha cəsarətlə dilə gətirir.

V.Şekspir öz faciələrində davamlı olaraq insan həyatını ən mühüm suallarını ortaya qoyur və bizə dərin məna kəsb edən cavablar verir. Şekspirin fikrincə, hər kəsin taleyi öz xarakterinin və ətrafdakı şəraitin qarşılıqlı təsirinin nəticəsidir. Ədib soyuq bir məntiqlə, aydın şəkildə xeyirxah, ağıllı, istedadlı insanların şər qüvvələrin basqısı altında necə məhv olduğunu, qaranlıq qüvvələrin insanların ruhunu necə asanlıqla ələ keçirdiyini və bunun hansı dəhşətli nəticələrə gətirib

çıxartdığını göz önünə sərir. "Otello" faciəsinin mərkəzi qəhrəmanı Otello öz əziyyəti və cəhdləri hesabına mövqeyini yüksəldir, böyük hörmət qazanır. Amma öz əlləri ilə də öz həyatını, sevgisini, qazandığı hörməti, nüfuzu məhv edir. Faciənin mərkəzində üç qəhrəman var: Otello, Dezdemona, Yaqo. Dezdemona ilə Yaqo xeyirlə şər arasındakı mistik qarşıdurmanı təcəssüm etdirir. Otello isə onların arasındakı bir mövqedədir. A.Dantenin "İlahi komediya" əsərindəki üçlüyü-cəhənnəm, əraf, cənnəti xatırlasaq, Yaqo cəhənnəmi, Dezdemona cənnəti, Otello ərafı təmsil edir. Yaqo şeytandır, Dezdemona mələkdir, Otello isə insandır, şübhəyə düşərək günahsız bir insanın günahına girərək qətl törədən və daha sonra bağışlanmasını diləyən, təmizliyə çıxmağa ümid edən bir insan. Şekspirin qəhrəmanları sanki mövcud vəziyyətin doğurduğu məcburiyyətlər səbəbindən onların təmiz xislətinə yad olan əməllər törədir. Necə ki, Hamlet atasının intiqamını almaq üçün qətl planı hazırlayır, eləcə də Otello daxilində tüğyan edən şübhələr və yalnış səbəblər üzündən çox sevdiyi Dezdemonanın qatilinə çevrilir.

Şekspir insan haqqında fikrini bu şəkildə izah edir: "İnsan! Təbiətin möcüzəsi, xeyirxah düşüncəli, sonsuz qabiliyyətli, mütənasib əndamlı, heyrətamiz davranışlı insan! Hərəkəti ilə mələklərə, kamalı ilə Allaha bənzəyən insan! Kainatın yaraşığı, bütün canlı varlığın tacı olan insan! Belə bir insan-yaratmaq, sevmək, şənlənmək üçün doğulmuşdur, ictimai münasibətlər, qanunlar, adətlər onu məhdudlaşdırıb korlamamalıdır" [1, s.43]. Şekspirin Otellosu da nəcib hisslərə malik xeyirxah, işgüzar, zəhmətkeş bir insandır, amma iblisləşmiş Yaqonun onun içinə düşürdüyü boş şübhə onun bütün varlığına hakim kəsilir və bu şübhənin qurbanına çevrilir, nəticə etibarilə iblisin oyununa alət olur. Yaqo çox yaxşı bilirdi ki, mavr təbiətcə saf, səmimi biridir, ona görə də öz alçaq və rəzil planını bunun üzərində qurur. Yaqo pyesin şər qüvvəni təmsil edən demonlaşmış obrazı olsa da, dramaturq onun monoloqları vasitəsilə zəmanənin bir çox acı gerçəkliklərini dilə gətirir:

*Nə üçün bu dərdin yoxdur dərmanı?*
*Bu mənsəb bəlası tutub hər yanı.*
*Çatır ada, sana bu gün hər axmaq,*
*Bir adamın varsa, adamsan ancaq.* [5, s.317]

Hamlet, Otello kimi "Kral Lir" pyesinin aparıcı qəhrəmanları olan kral Lir və qraf Qloster mövcud situasiyanın qurbanına çevrilir. Bu pyesdə ailədaxili münaqişələr ictimai, siyasi problemlərlə sıx vəhdətdədir. Biz bu üç planda yenə də bəşəri dəyərlərin şəxsi maraq və ambisiya ilə toqquşmasının şahidi oluruq. Kral Lirin qüruru və təkəbbürü, həqiqəti görə bilməməsi, düşünülməmiş qərarlar verərək addımlar atması onun faciəli sonluğunu gətirir. Qeyri-qanuni övlad olan Edmundun hər vasitə ilə üstün olma istəyi, cəmiyyətdə nüfuz qazanma ehtirası və ikinci dərəcəli övlad olma qorxusu atası Qlosterin faciəsi olur. Əsərin əvvəlində Lir kral olmanın ona verdiyi səlahiyyətlərdən bihuş olmuş vəziyyətdədir. Xalqının ehtiyaclarına qarşı biganədir və sanki gerçəkliklərə qarşı kordur. Lirə elə gəlir ki, ölkə onun şəxsi mülküdür və onu istədiyi şəxslər arasında istədiyi kimi bölüşdürə bilər. Ətrafındakı hər kəsdən, hətta dogma qızlarından belə səmimiyyət əvəzinə yalnız kor-koranə itaət tələb edir. Yaranmış vəziyyətdən böyük və ortancıl qız sui-istifadə edərək Liri öz sevgilərinə inandırmağa çalışırlar. Amma həqiqət və dürüstlük qanununa tapınan kiçik qız Kordeliya onların əksinə hərəkət edir. O da atasını sevdiyini etiraf edir, amma digər iki qızdan fərqli olaraq onun sevgisi bəzək-düzəkdən, pafoslu sözlərdən kənar olur və bu Lirin xoşuna gəlmir. O, ədalətsiz hərəkət edir və amansız cəza verir. Onun bir kral, bir ata və bir insan kimi xəyalları puç olur. Verdiyi ədalətsiz qərarların acı nəticələrini özü də yaşayır:

*Ədalət yoxdursa, el qaragündür,*
*Qürbət azadlıqdır, vətən sürgündür.* [5, s.475].

Amansız yıxılışı ilə Lir sanki yenilənir, ehtiyac və məhrumiyyətlər yaşayaraq həyata başqa nəzərlərlə baxmağa başlayır. Əsərin fəlsəfi baxış bucağı buradan aydın olur. Vacib olan insanı düzgün qiymətləndirmək və başa düşməkdir, yaltaqlığın arxasında çox vaxt bədxahlıq və alçaqlığın dayandığını anlamaqdır: "Həqiqət vəfalı köpəyə bənzəyir. Onu qamçılaya-qamçılaya it damına qovurlar. Yaltaqlıq isə əltulası kimidir. Onu aparıb isti soba yanında başını tumarlayırlar. O da

yavaş-yavaş evin havasını korlayır" [5, s. 491]. İnsan niyə xoşbəxtliyə nail ola bilmir? İnsan həyatının qayəsi nədir? Şərə qalib gəlmək mümkündürmü? – bunlar Şekspirin əsərdə önə çəkdiyi başlıca fəlsəfi problemlərdir. Ədib bunlara qəti cavab vermir, yəqin bu mümkün də deyil. Lakin onun insana pisliklərə qarşı gələrək xeyirxah əməllər sahibi olmasına inamı cavaba aparan yoldur. Amma əfsuslar olsun ki, həddindən ziyadə təkəbbür, şan-şöhrət hərisliyi, hakimiyyət sevdası insan mənəviyyatını uçuruma sürükləyir. Müəllif "Maqbet" faciəsində hakimiyyət uğrunda mübarizənin dağıdıcı təsiri və bunun Maqbet kimi cəsur, vətənpərvər birinin hamının nifrət etdiyi rəzil bir adama çevirməsi məsələsini qaldırır. Şekspir demək olar ki, bütün əsərlərində insan və cəmiyyətin hərtərəfli təhlilinə məxsusi yer ayırır, onların bilavasitə qarşılıqlı təsirinə xüsusi diqqət yetirir. O, insan ruhunda hisslərin çarpışmasını, müxtəlif psixi, şüurun kritik və böhranlı vəziyyətini təhlil edir, mənəvi böhrana səbəb olan obyektiv, subyektiv, xarici və daxili təsirlərini araşdırır. Məhz bu cür daxili konflikt "Maqbet" faciəsinin əsas mövzusunu təşkil edir. "Maqbet" faciəsi Şekspirin şərin hər şeyi öz ağuşuna aldığı yeganə faciəsi hesab oluna bilər. Əgər əsərin əvvəlində Şekspirin qəhrəmanının rəşadətinin həddi-hüdudu bilinmirdisə, indi böyük sərkərdəni cinayətkar tirana çevirən iddialı istəkləri sərhəd tanımır. Şərin toxumu Maqbetin qəlbində məskən saldqıca tədricən cücərib böyüyür, onun ağlını, ruhunu korlayır, şəxsiyyətini məhv edir. Mənsəbpərəstlik, şöhrətpərəstlik onu iyrənc cinayətlər törətməyə sövq edir. O, bu yolda təkcə rəqiblərinin qatilinə çevrilmir, eyni zamanda vicdanını, əxlaqını, insanlığını öldürür:

*Bu işə cəlb edən məni nədir, nə?*
*Buna bir həvəsim, bir inamım yox,*
*Yalnız mənsəb hissi, şöhrətpərəstlik*
*Könlümdə kəhərtək şahə qalxaraq*
*Göylərlə əlləşir, tezcə də birdən.*
*Büdrəyib yıxılır...* [5, s.681]

Müəllif qəhrəmanını müxtəlif tərəflərdən oxucuya təqdim edir. Maqbet bir tərəfdən sevgi, inam, şübhə hisslərinə yad olmayan bir insan, bir tərəfdən cəsur sərkərdə, digər tərəfdən taxt-tac qəsbkarı, qaniçən tiran kimi bizə tanıdılır. Müdafiəsiz vəziyyətdə olan yatmış kralın həyatına qəsd etməklə pis iş tutduğunu dərk edərək yenə də yüksəlmək arzusundadır. Bu situasiyada ona yeganə yol göstərən və bütün cinayətlərə təşviq edən ledi Maqbetdir. Ledi Maqbet qanlı əllərinə baxır və anlayır ki, qan izlərini heç cürə silib apara bilməz. Bu səhnə dərin simvolik xarakter daşıyır. Qan bahasına hökmdarlıq qazanılır. Maqbetin səltənəti qətlə yetirilən kral Dunkanın qanı üzərində qurulub və bunu onun həm vicdanından, həm də ledi Maqbetin əllərindən yuyub aparmaq olmaz. "Qəhrəmanın monoloqu vasitəsilə Şekspir göstərir ki, Maqbet cəsur döyüşçüdən, xalqının, vətəninin və kralının azadlığı, müdafiəsi uğrunda rəşadətlə mübarizə aparan sərkərdədən cinayət törədən zavallı bir qatilə çevrilir" [8, s.24]. Maqbet mənən təmizlənmədən ölür və onun ölümü mənəvi çöküşün əyani sübutudur.

Şekspirin qəhrəmanları öz məqsədlərinə nail olmaq üçün özləri belə fərqində olmadan şər qüvvələrə xidmət edən istiqamətlərə üz tutdular. Hamlet atasının qisasını almaq üçün istəmədən qətl törədir, məkrli plan hazırlayır. Otello demonlaşmış obraz olan Yaqonun sözləri və yalnış dəlilləri nəticəsində istəmədən qatilə çevrilir. Kral Lir daxili eqoizminin, gerçəklərə kor olmasının qurbanı olur. Şöhrətpərəstlik, yüksəlmək ehtirası, hakimiyyət hərisliyi Maqbetin faciəli sonluğuna səbəb olur. Ədib öz qəhrəmanlarının faciəli taleyini təsvir etməklə insanları ümidsizliyə, bədbinliyə deyil, yüksək ideal uğrunda mübarizəyə çağırır. Şekspir bir əsr üçün deyil, bütün zamanlar üçündür!

## ƏDƏBİYYAT

1. Cəfərov, C. Vilyam Şekspir / C. Cəfərov. –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1964. –64 s.
2. Həmzəyeva, S. Azərbaycan-ingilis ədəbi əlaqələri və bədii tərcümə / S.Həmzəyeva. –Bakı: Elm və təhsil, –2014. –152 s.
3. Xəlilov, Ə. Dünya ədəbiyyatı. / Ə.Xəlilov. II cild. –Bakı: Bilik, –2013. –535 s.

4. Nağıyev, C. Qərbi Avropa ədəbiyyatı / C.Nağıyev. –Bakı: Elm və Təhsil, –2019. –520 s.
5. Şekspir, V. Seçilmiş əsərləri: [2 clddə] / Tərcümə edən: Sabir Mustafa. I cild. –Bakı: Şərq-Qərb, –2009. –776 s.
6. Дубашинский, И.А. Вильям Шекспир / И.А.Дубашинский. М.: Просвещение, –1965, –226 с.
7. Захаров, Н. Гений на века: Шекспир в европейской культуре. Научная монография. / Н.Захаров, В.Луков. –М.: ГИТР, –2012, –504 с.
8. Лобанова, Е.А. Гендерная реализация фрейма «власть» в трагедии У. Шекспира «Макбет» // Вестник ТюмГУ. Гуманитарные исследования. Humanitates. –2020. Том 6. № 2 (22). –с. 19-36.
9. Пинский, А. Шекспир. Основные начала драматургии / А.Пинский, –М.: Художественная литература, –1971, –603 с.
10. Холлидей, Ф.Е. Шекспир и его мир / Ф.Е.Холлидей. –М.: Радуга, –1986, –168 с.
11. Шенбаум, С. Шекспир / С.Шенбаум. –М.: Прогресс, –1985, –431 с.

## РЕЗЮМЕ
## ПРОБЛЕМА ЛИЧНОСТИ И ОБЩЕСТВА В ТРАГЕДИЯХ УИЛЬЯМА ШЕКСПИРА

***Зейналлы Г.Ф.***

***Ключевые слова:*** *драматург, трагедия, окружающая среда, человек, гуманизм*

Жизненное положение человека, убеждения, духовная эволюция, личные мечты и требования общества - одна из ведущих социальных проблем в творчестве выдающегося английского драматурга Уильяма Шекспира, главным образом в его трагедиях. Почти во всех своих произведениях он уделяет особое внимание проблемному анализу человека и общества, уделяя особое внимание их непосредственному взаимодействию. В данной статье мы попытаемся исследовать социальную среду и проблему личности, общества и совершенного человека, ориентируясь преимущественно на трагедии драматурга «Гамлет», «Отелло», «Король Лир», «Макбет».

## SUMMARY
## PERSONALITY AND SOCIETAL PRBLEM IN WILLIAM SHAKESPEARE'S TRAGEDIES

***Zeynalli G.F.***

***Keywords****: playwright, tragedy, environment, human, humanism*

The life situation of a person, beliefs, spiritual evolution, personal dreams and demands of society are one of the leading social problems in the work of the outstanding English playwright William Shakespeare, mainly in his tragedies. In almost all of his works, he pays special attention to the problematic analysis of man and society, paying particular attention to their direct interaction. In this article, we will try to explore the social environment and the problem of the individual, society and the perfect person, focusing mainly on the tragedies of the playwright “Hamlet”, “Othello”, “King Lear”, “Macbeth”.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 06.04.2023 |
| | Son variant | 01.06.2023 |

**UOT 398.3:398.4** DOI 10.54758/16801245_2023_19_3_39

# AZƏRBAYCAN MİFOLOJİ MƏTNLƏRİNDƏ ƏYƏNİN MİFİK MAHİYYƏTİ

**BABAYEVA AYNURƏ NİZAMİ qızı**
*Sumqayıt Dövlət Universiteti, Azərbaycan, doktorant*
aynure.nizamiqizi@mail.ru

***Açar sözlər:*** *mifoloji təfəkkür, rəvayət, əyə, hami ruhlar, Qara çuxa, inanc, insan, düşüncə*

Bu gün ədəbiyyatda bədii düşüncənin rəngarəngliyini təmin edən istiqamətlərdən biri də mifologiyadır. Ilkin şifahi bədii mətn olan miflər, mifik obrazlar özünəməxsus unikallığa malikdirlər. Bizə görə, apriorilik baxımından milli konseptin inkişafına təkan verən mifopoetik təfəkkür ilkinlik vasitəsilə müasirlik və gələcək üçün tramplin və açar rolunu oynayır. Deməli, ədəbiyyatda arxetip səciyyəli obraz və motivlərin işlənməsi həm bədiilik, həm millilik, həm davamlılıq, həm də analitik təhlil üçün vacib və aktualdır. Xanım Sultanova “XX yüzil Azərbaycan poeziyasında mifopoetik ənənə” mövzusunda yazdığı doktorluq dissertasiyasında qeyd edir ki, *mif özünün mifik əsasından məhrum olduqdan sonra folklor mətninə, folklordan da ədəbiyyata çevrilir* [9, s.5]. Deməli, mif həm də bədii bir kod, modeldir. Buna görə də hal-hazırda istifadə olunmuş mif və kodlaşdırılmış bədii mətn ədəbiyyata köçürülərkən mövzunun dərin alt laylarına sirayət etməklə psixoloji və fəlsəfi çalar yaradır. Bu səbəbdən də remifologizasiya, yəni ta qədimdə yaranmış, müəyyən bir fikrin, ideya və inancın daşıyıcısı olan mifin yenilənməsi vacibdir. Ona görə də ta qədimlərdən bu günə qədər süzülüb gələn düşüncə, inanc, əfsanələrin və s. yenidən fərqli şəkildə işlənməsi üçün onların dərin qatlarını anlamağa, dərk etməyə xüsusi ehtiyac duyulur.

Hal-hazırda bu tədqiqat işində biz Azərbaycan mifoloji mətnlərində əyənin mifik mahiyyətini açmağa çalışacağıq. Ümumiyyətlə, əyə nə deməkdir? Lüğəvi mənasına görə yiyə, sahib olan bu sözə həm türk, həm də avropa xalqları mifologiyasında rast gəlinir. “Azərbaycan mifologiyası” adlı dərslikdə oxuyuruq: ““*Əyə” sözü türk dillərində “ege, eye, iyə, ezə və s.” formalarda işlənib, “sahib, yiyə” mənasını bildirir. İnama görə, hər şeyin əyəsi, yəni sahibi vardır. Dağ əyəsi, su əyəsi, ağac, meşə əyəsi və digər ifadələrdə yiyəlik, sahiblik, hökmdar anlayışları mühafizə olunmuşdur” [1, s.70].* Yaradılışdan bu günə qədər insanın özünə hami axtarması halını müşahidə edirik. Çünki şüurlu insan dərk edir ki, bütün bu kainatın, varlıqların bir hamisi – yaradanı, qoruyanı, ədalət tərəzisində çəkib-çəkişdirəni var. Bu halda da bu fikir qətiləşir ki, deməli, xeyirlə yanaşı, həm də şər mövcuddur və insanın əməlindən, düşüncəsindən asılı və ya asılı olmadan sınağa çəkilməsi qaçılmazdır.

Nəinki Azərbaycanda, hətta qədim Romada da ev, ailə, ocağı himayə edən, qoruyan ruhların (Tanrılar) – Lareslərin mövcudluğuna inam olmuşdur. Xalq bağ-bağat, qidanın əldə edilməsi, nikah, doğuş, ölümlə bağlı onlardan kömək istəmişdir. Bu ondan irəli gəlir ki, romalıların düşüncəsinə görə hami Lareslər ailədaxili münasibətlərə, sosial, siyasi siniflər arasındakı normalara nəzarət edirlər və ailə başçıları onların baş keşişləri funksiyasını daşıyır. Ailə möhkəmliyi və rifahını qoruyan bu xeyirxah ruhları həm də penates adlandırırdılar. Hər bir xeyirli, sevincli hadisə ilə bağlı onlara – larlara qurban kəsilər, təsvirlərini ocaq başındakı rəf və ya şkafda yerləşdirilərdi. Evlərini tərk etməyən bu ruhlarla hörmətlə davranan insanlar inanırdılar ki, hamilər onları həm də səyahət və hərbi yürüşlər zamanı da qoruyurlar. Bu inanca biz Çin mifik təfəkküründə də rast gəlirik. Onlarda da bu ruhlar iki qismə bölünür: əcdad ruhlar və ev hamiləri, qoruyucuları. Hər evdə kiçik bir qurbangah mövcuddur və onun üzərinə müəyyən günlərdə ev sahibinin vəfat etmiş qohumlarının

adları, hətta rütbələri də həkk olunmuş taxta lövhələr qoyulur. Qəməri təqviminin birinci və on beşinci günlərində, bayramlarda, ailədə körpənin doğulması, evlilik, ölüm, başqa yaşayış yerinə köçmə, vəzifə yüksəlişi – bir sözlə, özəl günlərdə həmin əcdadlara sitayiş edilirdi və hörmət əlaməti olaraq buxur, bitki mumu yandırılır, önünə şərab, düyü, hazırlanmış yeməklərdən qoyulur, möhkəm səslə dualar oxunardı.

Eyni zamanda, çinlilər fikirləşirdilər ki, hər bir evin öz tanrısı – ***Şeni*** mövcuddur. Qədim rituallardan aydın olur ki, müxtəlif fəsillərdə qurban kəsilən beş tanrı – şenlər evin müəyyən hissələrinə (evin darvazasına, qapısına, quyusuna, ocağına və döşəməsinə) nəzarət edərmişlər. Ümumilikdə, Yan Yakob Mariya de Qroot öz "Qədim Çində Demonologiya" adlı kitabında qeyd edir ki, Çində on iki ev hamisi var və Mavi Əjdaha, Ağ Pələng (evin sağ və sol tərəflərini təmsil edirlər) onların arasında ən vacibləri hesab edilir.

Slavyan mifik təfəkküründə də ev hamisi sayılan ruhlara inam bu günə qədər yaddaşlardan silinməmişdir. *"Domovoy", "cin", "şeytan"* kimi adlanan bu ruhlar ev sakinlərinin rifahını himayə edərək tanrı Velesə (ev, təsərrüfat tanrısı) kömək edir. Slavyanlar inanırlar ki, domovoylar qoca doğulub körpə şəklində ölürlər. Düzdür, bu fikrin mənşəyini şərh etmək çətindir, lakin bu inanclara istinadən demək olar ki, slavyanlara görə domovoylar mərhum əcdadların ruhlarıdır və yenidən insan kimi doğula bilərlər. Buna görə də onlara xüsusi diqqət lazımdır. Evi, mal-qaranı qoruma funksiyasını daşıyan bu ruhlar inanclara görə hər xırda şeyi görür, yorulmadan zəhmətkeşə kömək edir, qayğısını əsirgəmir, lakin yersiz xərclərə qəzəblənir. Əgər ev, onun sakinləri domovoyun xoşuna gəlsə, hər işdə onlara kömək edər, yox, əksinə, xoşuna gəlməsə, onlara zülüm, işgəncə verib qorxudarmış.

Qədim yunan mifologiyasında da əyələrin analoqları mövcuddur. Satir adlanan bu varlıqlar meşənin sahibi hesab edilirlər. Aid olduğu təbiətin qoruyucusu, hamisi olaraq xeyirxahlıqları, insanlara dəstəkləri ilə seçilirlər. Amma onları qəzəbləndirmək də asandır. Məsələn, meşədə icazəsiz ov ovlamaq, yanğın törətmək satirləri qisas, intiqam almağa vadar edir. Hətta mifik təfəkkürə görə, ağacların qırılıb yolu bağlaması, şirin su hövzələrinin zəhərlənməsi və s. bu qəzəbin nəticəsidirlər. Slavyan mifologiyasında rast gəldiyimiz "leşiy" də satirlərin analoqudur. Lakin bu varlıqlar mənəvi keyfiyyətlər baxımından satirlərdən, meşə əyələrindən fərqlənirlər. Əgər əyələr, satirlər xoşməramlı kimi təqdim olunursa, slavyan xalq nağıllarında tez-tez rast gəldiyimiz leşiylər, əksinə, meşəyə gələn hər kəsi qorxutmağa, ona mane olmağa çalışır. Bu mifik obraz haqda belə bir rəvayət də danışılır: "Yer üzündə bir Allah, bir də Şeytan var imiş. Günlərin bir günü Allah insanı yaradır. Şeytan da ona baxıb insan yaratmağa çalışır. Amma, Tanrıdan fərqli olaraq, o, bu işin öhdəsindən gəlmir. Onun yaratdıqları özünəbənzər varlıqlar olur. Bunu görən Allah qəzəblənir və Cəbrayıla əmr edir ki, onların hamısını göydən yerə töksün. Deyilir ki, onların bəziləri meşələrə, bəziləri dəniz və çaylara, bəziləri də evlərə tökülür. Buna görə də onlar indi fərqli adlansalar da (leşiy, domovoy və s.), hamısı Şeytanın yaratdığı varlıqlardır.

Bir qədər ziddiyyətli mənəvi prinsiplərə malik əyələr, eləcə də onların analoqları daha çox Qafqaz, Ural, Kiçik Asiya və Orta Asiya, Qərbi Sibir, Yaxın Şərq xalqlarının folklorunda rast gəlinir. Bu inanc Azərbaycan mifologiyasında da özünü göstərir. Göyçə folkloruna xas mifoloji rəvayətlərin birində oxuyuruq: " *Bir gün evdə oturardum. Ərim yenicə rəhmətə getmişdi. Uşaxlar hələ lap balacaydılar. Şər vaxtıydı. Birdən qulağıma pəyədən səs gəldi. Hiss elədim ki, kimsə inəyi sağır. Düzü lap qorxdum. Sonra bir az özümə ürək-dirək verif yavaş-yavaşpəyəyə tərəf getdim. Qapının deşiyindən baxıf nə görsəm, yaxşıdı?*

*Mənim paltarım əynində olan eybəcər bir arvad süd vedrəmi qavağına qoyuf inəyi sağır* [2, s.66]. Bu halı görən qadın qorxub çəkilir və bir az keçmiş "bismillah" deyib bir də qapıya yaxınlaşır. Lakin tövlədə artıq inəkdən başqa heç kim olmur. Rəvayətdən belə başa düşmək olar ki, evin əyəsiköməksiz, sahibsiz qalmış qadına işin müəyyən bir qismini yerinə yetirməklə yardım etməyə çalışır. Bu da evdə məskunlaşmış əyənin xoş niyyətinin nəticəsinin göstəricisidir. Burada göstərilən bir fakt da diqqəti cəlb edir: eybəcərlik. İstər Azərbaycan, istərsə də digər xalqların

mifoloji mətnlərinin çoxunda da bu hal ilə rastlaşırıq. Bizə elə gəlir ki, eybəcərlik faktı özlüyündə qoruyuculuq funksiyasını artıran keyfiyyətdir. Çünki qorxunc görünüş xoş olmayan niyyətlərin qarşısına hədd çəkən ilkin xüsusiyyət olaraq qəbul edilə bilər. Məsələn, digər xalqlarda (yunan, slavyan, çin) bu, əsasən, eybəcər insanabənzər ruhların həm də quyruqları mövcuddur. Bizə elə gəlir ki, bu onların qəzəbli, qisascıl (şeytana uyğun olaraq) ola bilmələrini simvolizə edir. Yunan mifologiyasında onlar görkəmlərinə görə Olimpə buraxılmırdılar, insanlar isə qorxduqlarına görə bu varlıqları öz aralarında görmək istəmirdilər. Bu səbəbdən də onlar yalnız meşədə yaşamağa məhkum olmuşlar.

Ümumiyyətlə, mifoloji mətnlərdən aydın olur ki, bizə məxsus mifoloji təfəkkürümüzə görə hər şeyin – evin-eşiyin, bağ-bağatın, ilxının, bağın, suyun, yolun, izin əyəsi var. Və inanca görə bu əyələrin davranışına biz insanlar da təsir edə bilərik. Əgər onlara sayğı ilə yanaşılsa, hörmətlə salam verilsə, o halda hami ruhlar (əyələr) xoşrəftar olarlar: "*Əvin, həyatin, bağın, suyun, yolun, dağın – hər şeyin əyəsi var. Gərəh bunnara səlam verəsən. Timsalı, gəlmisən bağa. Gərəh deyəsən: "Səlam, a bəğ əyəsi, gəlmişəm bəğivi suvaram, ağaşdarıvın dibin belliyəm". Gedəndə də deyirsən ki, salamat qal, a bağ əyəsi, mən gedirəm, genə gələciyəm*".

Və ya "*Elə ki, məhsul yetişdi, gəldin meyvə yığmağa, onda, gərəh bəğ əyəsinnən icazə isdiyib sonra bəğin meyvəsini dərəsən. Əyər belə dedixlərimi eləsən, bəğin mədaxılı çox olacax*" [2, s.51].

Bəzi yerlərdə əyə Qara çuxa kimi də təqdim edilir. Hamilik edən bu ruh sanki bir bəxt, qismət kimi onu izləyir və hər işində kömək edir: *"Babam Salahın at ilxısı varmış. Il uzunu ilxını çölə ötürərmiş, qar yağanda gedib toparlayıb gətirərmiş. Bir gün Salah babam ilxını gətirməyə gedibmiş. Birdən ilxıya canavar düşüb. Kişi görüb ki, o tərəfdən bir adam çıxdı, canavarların qabağını kəsdi, ilxıya yaxın düşməyə qoymadı. Salah babam başa düşüb ki, bu onun Qara çuxasıdı. Salah babam gedib həmin yerdə yurd saldırıb. İndi ora Salah kahası deyirlər"* [2, s.53]. Bu səbəbdən də bəxti gətirməyən insanlara deyirlər ki, Qara Çuxası yatıb (bəxti yatıb). Rəvayətlərə istinadən demək olar ki, Qara çuxanın yatması da insanın sayğısızlığına bağlıdır. Yəni evin astanasına girib salam vermirsənsə, hər bir yeni işə başlayanda ondan kömək istəmirsənsə, Qara çuxa inciyir və hamilik etdiyi insandan, ailədən uzaq gəzir.

Deməli, bütün bunlara görə özünü təklənmiş hiss edən ilkin insandan tutmuş bugünkü mədəni, sərbəst, azad insana qədər hamı fövqəl bir varlığa, himayədara, ideyaya tapınır. Məhz hamilik bundan törənmiş bir faktdır. Keçmişə fikri səyahət edərkən görürük ki, tunc dövründən başlayaraq (fiziki gücə ehtiyac) hakim qüvvəyə çevrilən ataxaqanlıq modelinə uyğun ata-baba ruhları da hamiyə çevrilir. Bu faktı, yəni anaxaqanlığın – qadının ataxaqanlıqla – kişi ilə yerdəyişməsi hadisəsinə misal olaraq Ülgen (Bay Ülgen) obrazını xatırlamaq yerinə düşər. Bir çox türk dastanlarında kişi tanrıça simasında gördüyümüz bu mifik obrazı *Dırenkovanın topladığı materiallarda "Göyün on altıncı qatında oturan Bay Ülgen ana" kimi təqdim olunmuşdur* [11]. Bəxtiyar Tuncayın araşdırmalarından aydın olur ki, *təktanrıçılığa (tenqriçilik dininə) keçməmişdən öncə hər bir türk soy bə boyu üçün Tanrı rolunda ayrı-ayrı soyun əcdad ruhları (Ağ ana, Qara xan, Ülgen, Payana – Umay ana) çıxış etmiş, təktanrıçılığa doğru təkamül prosesində həmin ruhlarla Tanrının çuğlaşması baş vermiş, sonradan tək Tanrı obrazı ata-baba ruhlarından arınaraq onları əyə (iyə) // yumuşçi (Xeyirxah ruh, mələk) səviyyəsinə sıxışdırmışdır* [11].

Cəlal Bəydilin araşdırmalarında qadın hami ruh kimi təqdim olunan Sarı Qız folklorşünasa görə etnogenetik miflərdə əcdad obrazların məskənlərindən biri dağın hamisi, əyəsi, sahibidir. *"Dağ əyəsi Sarı qız"* məqaləsində o qeyd edir ki, k*osmik nizamın bütün parametrlərini özündə əks etdirərək dünyanın tam mərkəzində ucalıb sakral güc qaynağı və ulu başlanğıc, soyun əsası, ana yurdun rəmzi kimi qavranılmış dağ mifopoetik dünya modelində dünyanın öz obrazıdır* [4]. Deməli, buradan çıxış edərək belə qənaətə gəlmək olar ki, mifik obraz olan Sarı Qız dünyanın, başlanğıcın yiyəsi, türklərin müqəddəs hesab etdiyi göylə yeri birləşdirən dağın əyəsidir.

Yuxarıda dediyimiz kimi, Azərbaycan mifologiyasında hami ruhlardan hesab edilən su əyəsi də mövcuddur. Əsas ünsürlərdən olan suyun energetik mənbə olduğunu hamımız bilirik. Azərbaycan xalqı üçün su müqəddəs məfhumlardan biridir və buna görə də mifoloji mətnlərdə rastlaşdığımız su əyəsi bizim xalqın mifik təfəkkürünü təcəssüm etdirir. Məsələn, əfsanələrin birində belə rəvayət edilir: Həddi-buluğa çatmış dörd gənc qız dağda çiçək yığarkən çox da böyük olmayan, amma dərin bir füsunkar gölə rast gəlirlər. Göldə bir az üzüb çıxdıqdan sonra həmin qızların üçü suya tüpürür. Həmin an göl qeybə çəkilmiş, bərəkət, nemət sayılan suya tüpürənlər isə saçından asılı vəziyyətə düşmüşlər. O arada göydən bir səs gəlir ki, bağışlanmanızı istəyirsənizsə, qarşıdakı yaşıllıqda iki məzarın üzərində kümbəz tikilsə, həm göl geri qayıdar, həm də ki, qızlar bu əzabdan qurtarar. Əfsanəyə görə, kümbəz tikildikdən sonra, həqiqətən də, bütün bu deyilənlər baş verir. Bundan belə anlama gəlmək olar ki, müqəddəs hesab edilən suya göstərilmiş hörmətsizlik günah sayılarmış və bunun da bir bədəli, cəzası varmış.

Ümumtürk yaradılış və törəyiş dastanlarına diqqət yetirsək, görərik ki, onların bir çoxunda su əsas ünsür kimi qeyd olunur. Bu da türk xalqlarının suya tapınmasının bariz sübutudur.

Mifoloji mətnlərdə açıqrəngli libasda, ağsaçlı təsvir edilən su iyəsi də bu düşüncəni təsdiq edir.

Bu günümüzdə də suya olan bu yanaşma bir çox türk xalqlarının, eləcə də azərbaycanlıların inanclarında özünü göstərməkdədir. Novruz bayramının ilk çərşənbəsi, hər hansı bir vacib iş dalınca gedən, uzaq yola çıxan və ya başqa bir evə köçənin arxasınca atılan su həmin inamın göstəricisidir.

Mifik təfəkkürün ruhumuza hopdurduğu anlama görə biz insanlar ta qədimdən dualarımızı etmək üçün, tanrıya daha yaxın olub onu eşitmək, bölüşmək üçün dağa çıxırıq. Məhz Sarı Qız inancı da bunu sübut edir. Cəlal Bəydili Sarı Qız əcdad kultunu öz araşdırmasında elmi, ensiklopedik cəhətdən maraqlı tədqiqinin davamı kimi Tahir Nəsib *"Sarı qızdan Sarı gəlinə..."* adlı məqaləsi də diqqəti cəlb edir. O, həmin tədqiqat işində belə bir fikir irəli sürür ki, *uzun tarixi zaman ərzində tədricən xeyirxah hami ruhlar mifoloji görüşlərin zəifləməsi, demifologizasiya nəticəsində xalq yaddaşında mahiyyətcə fərqli oxşar səviyyələrə enir. Belə çevrimələrdən biri də məşhur xalq mahnısı "Sarı gəlin"in yaranması ilə nəticələnir* [10]. ""Sarı gəlin" mahnısının tarixi" məqaləsində isə sarı gəlinin kimliyi hələ islamı qəbul etməmiş qıpçaq türklərinə şamil edilir. Hətta araşdırmada sarı gəlinin Hüseyn Cavidin "Şeyx Sənan" Xumarı ilə də bağlılığı göstərilir. Deməli, təkrarolunmaz dramaturqumuz bəşəri hisslərin altında həm də milli kökümüzü, soyumuzun tarixini oxucumuza çatdırmağa çalışmışdır.

Tədqiqatçı alim Seyfəddin Rzasoy da yazılı ədəbiyyatda – Nizami yaradıcılığında əks olunmuş hamilik və qoruyuculuğun əsas xətlərini miflərlə əlaqələndirir. Məsələn o deyir ki, "Kitabi-Dədə Qorqud" dasatanında keyiklərin hamisi Bəkili xatırladan *Bəhram da bir səviyyədə gurların hamisi, digər səviyyədə (və daha geniş mənada) etnosun qoruyucusudur[8].* Yəni onun təbiət və etnosa qarşı hamilik hissi Bəhramı mifik düşüncədən gələn "*kosmoloji harmoniya*" [8] nın müdafiəçisinə çevirir.

Ümumilikdə, belə bir nəticəyə gəlmək olar ki, qoruyuculuq funksiyasını daşıyan əyələr məxsus olduğu həm ailənin, həm etnosun, həm də təbiətin simasını – düşüncəsini, mahiyyətini, ən əsası, xeyir və şər başlanğıcı əks etdirir. Deməli, gözəgörünməz bu ruhlar mənbəyini fərdi keyfiyyətlərdən götürərək ümumiləşmiş mifik bir obraza çevrilmişlər.

## ƏDƏBİYYAT


1. Ağbaba, A. Azərbaycan mifologiyası / A.Ağbaba, D.Cümənov. – Bakı: Şirvannəşr, –2005. – 276 s.
2. Azərbaycan folkloru antologiyası. Göyçə folkloru (III kitab) / – Bakı: Səda, - 2000, 768 s.
3. Babaoğlu, H. "Sarı gəlin" mahnısının tarixi. https://kayzen.az/blog/musiqi/8784/sari-gəlin-mahnısının-tarixi.html
4. Bəydili, C. İstiqbal xalq ədəbiyyatınındır... (seçmə yazılar) / C.Bəydili. –Bakı: Folklor İnstitutu, –2015. –312 s.

5. Əsatirlər, əfsanə və rəvayətlər / – Bakı: Şərq-Qərb, – 2005. – 304 s.
6. https://fengshui-bazi-qimen.ru/fengshui/191-dukhi-khraniteli-semi-i-domashnie-bozhestva-v-kitajskoj-traditsii.html
7. https://www.proto-slavic.ru/slavonic-myths/spirits-domovye.htm
8. Rzasoy S. Nizami Gəncəvi və türk mifologiyası. https://edebiyyatqazeti.az/news/diger/7961
9. Sultanova, X. XX yüzil Azərbaycan poeziyasında mifopoetik ənənə / X.Sultanova. –Bakı, –2022. – 314 s.
10. Nəsib, T. Sarı qızdan Sarı gəlinə...: “Sarı gəlin” mahnısı ilə bağlı araşdırma: 1 yazı // Xalq cəbhəsi. –2017. 15 iyul, –s.14. http://www.anl.az/down/meqale/xalqcebhesi/2017/iyul/550632.htm
11. Tuncay, B. Türk mifologiyasinda üçqatli dünya və onun mifik sakinləri / https://bextiyartuncay.wordpress.com/2012/03/30/turk-mifologiyasinda-ucqatli-dunya-v%C9%99-onun-mifik-sakinl%C9%99ri-4/



## РЕЗЮМЕ
## МИФИЧЕСКАЯ ПРИРОДА ДОМОВЫХ В АЗЕРБАЙДЖАНСКИХ МИФОЛОГИЧЕСКИХ ТЕКСТАХ

***Бабаева А.Н.***

***Ключевые слова:*** *мифологическое мышление, повествование, поклонение, мифическое существо, духи-покровители, черная дыра, вера, человек, мысль*

Миф, отражающий первоначальное коллективное сознание, можно рассматривать как ядро интеллектуального начала. Поэтому мифическая мысль, являющаяся источником, имеет характер ключа и трамплина. По этой причине образы, существующие в мифологическом мышлении, также приобретают художественный и национальный характер. Ремифологизированные опекуны, стражи имеют архетипический характер и помогают осмыслить некоторые существующие убеждения.

В статье рассматривается мифическая сущность аятов и проводятся параллели в мыслях и верованиях Азербайджана, а также других народов. Исследование показывает, что совмещая в себя индивидуальных качеств домовые выражают мнения и мысли о добре и зле, силе этноса, к которому он принадлежит. Также как архетип предка он совершил переход в письменную литературу как покровитель и защитник хаотичной, но упорядоченной «космологической гармонии».



## SUMMARY
## THE MYTHICAL NATURE OF BROWNIES IN AZERBAIJANI MYTHOLOGICAL TEXTS

***Babayeva A.N.***

***Keywords:*** *mythological thinking, narrative, worship, mythical being, patron spirits, black hole, faith, man, thought*

Myth, reflecting the original collective consciousness, can be considered as the core of the intellectual principle. Therefore, the mythical thought, which is the source, has the character of a key and a springboard. For this reason, the images that exist in mythological thinking also acquire an artistic and national character. Remythologized custodians, guardians have an archetypal character and help to make sense of some existing beliefs.

The article examines the mythical essence of the ayas and draws parallels in the thoughts and beliefs of Azerbaijan, and also other peoples. The research shows that by combining individual qualities, brownies express opinions and thoughts about good and evil, the strength of the ethnic group to which they belong. Also as an ancestor archetype, he made the transition into written literature as the patron and protector of chaotic but orderly “cosmological harmony.”



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 06.07.2023 |
| | Son variant | 11.09.2023 |

**UOT 930.2** DOI 10.54758/16801245_2023_19_3_44

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI QUBERNİYASININ DÖVLƏT KƏNDLİLƏRİNİN SU MÜLKİYYƏTİ VƏ SUDAN İSTİFADƏ TARİXİNDƏN

[1]**BAXŞƏLİYEV ADİL BAXŞƏLİ oğlu** ORCID
[2]**ABDULLAYEVA SEVDA MÜZƏFFƏR qızı**
*[1]Sumqayıt Dövlət Universiteti, Azərbaycan, professor*
*[2]Lənkəran Dövlət Universiteti, Azərbaycan, dissertant*

***Açar sözlər**: Bakı quberniyası, Mirab, cuvar, su idarəsi, sudan istifadə, iqtisadi həyat*

Şimali Azərbaycanın şimali-şərq və şərq bölgələrinin əhatə edən, relyefi çox rəngarəng olan Bakı quberniyasının dağətəyi əkinçilik qəzalarında torpaqlar suvarılmadan məhsul verdiyi halda, iqlimi quru və isti olan xüsusilə Kür-Araz və Xəzərsahili boyu düzənlik yerlərdə isə əkinçiliyi suvarmasız təsəvvür etmək mümkün deyildir. Tədqiq olunan regionun potensial zəngin su mənbələrinə malik olduğu halda, mövcud suvarma sistemi əhalinin suya olan tələbatını ödəmirdi, həm də suvarma torpaq sahələri xəzinə kəndlilərinin istifadəsindəki torpaq sahəsinin az hissəsini təşkil edirdi. 1885-ci ilin məlumatına görə Bakı quberniyası xəzinə kəndlilərinin istifadəsindəki torpaq sahəsinin 19 faizi suvarılan, 19,8 faizi isə suvarılmayan torpaqlar hesab olunurdu. Burada Bakı quberniyasının dövlət kəndlilərinin istifadəsindəki torpaq sahələrinin Bakı qəzasında 507 desyatini suvarılan, 58 324 desyatini suvarılmayan, Göyçay qəzasında müvafiq olaraq 41 117 desyatini suvarılan, 41 179 suvarılan, Cavad qəzasında 75 191 desyatını suvarılan, 22 483 desyatini suvarılmayan, Quba qəzasında 87 793 desyatini suvarılan, 109 532 desyatini suvarılmayan, Lənkəran qəzasında 10 000 desyatını suvarılan, 92 979 desyatini suvarılmayan, Şamaxı qəzasında 26 024 desyatını suvarılan, 89 161 desyatini suvarılmayan torpaqlar idi [1, s. 105].

Bazar iqtisadiyyatı münasibətlərinin getdikcə dərinləşdiyi və yeni-yeni sahələri əhatə etdiyi bir dövrdə yeni gəlirli təsərrüfat sahələrinin çoxalması, dövlət torpaq sahələri hesabına icarə torpaq sahələrinin genişlənməsi, meşələrin qırılaraq əkin sahələrinə çevrilməsi və s. xəzinə kəndində suvarma suyuna olan tələbatını artırırdı ki, bu da suvarmada dəyişikliklər tələb edirdi.

XIX yüzilliyin ortalarında, daha dəqiq desək 1848-ci ildə quberniyalar üzrə suvarma təsərrüfatına rəhbərlik üçün yeni bir inzibati orqan yaradıldı. Bu quberniya idarələri nəzdində təşkil olunmuş, bilavasitə suvarma təsərrüfatına rəhbərlik və nəzarət edən su mühəndisinin başçılıq etdiyi idarə orqanı idi [1, s. 35].

Bütün Rusiya imperiyası üzrə "Suvarma və torpaqların qurudulması haqqında" adlı 1860-cı ildə Dövlət Əmlak Nazirliyi tərəfindən hazırlanmış qanun layihəsində qoyulan məsələlərin heç biri Cənubi Qafqaz üçün səciyyəvi deyildi. Lakin buna baxmayaraq, 1868-ci il noyabrın 19-da Qafqaz canişini knyaz Baryatinski həmin layihənin canişinliyin Baş idarə şurasında müzakirə olunması haqqında xüsusi sərəncam vermişdi. Baş idarə şurasında iştirak edən nümayəndələrinin böyük əksəriyyəti bu layihənin Cənubi Qafqazda tətbiqinin qeyri-mümkünlüyü göstərdilər [1, s. 79 ].

Haqqında yuxarıda danışılan "Suvarma və torpaqların qurudulması haqqında" adlı qanun layihəsinin Cənubi Qafqaz şəraitinə uyğunlaşdırılmış şəkildə işlənməsi üçün 1873-cü ildə Qafqaz canişinliyi nəzdində xüsusi komissiya təşkil edildi. Komissiya suvarma və sudan istifadə qaydalarını tərtib etmək üçün əsas etibarilə yerli adətləri öyrənməyə və müsəlman şəriət kitablarından yararlanmağa başladı. 1880-ci ildə artıq "Cənubi Qafqazda su üzərində hüquq və sudan istifadə qaydaları haqqında" layihə hazırlandı [7, s. 9]. Qafqaz canişinlik şurasına təqdim olunan layihə üç il baxılmamış qaldı. Cənubi Qafqaza ezam olunmuş Dövlət Əmlak Nazirliyinin

nümayəndəsi suvarma təsərrüfatına ciddi əhəmiyyət verərək, layihə üzərində bir sıra düzəlişlər və dəyişikliklərin edilməsi üçün yeni komissiya təşkil etdi. Tərkibi suvarma mühəndislərindən, habelə az-çox suvarma işində səriştəsi olan torpaq sahiblərindən və mirablardan ibarət olan komissiya 1883-cü il noyabrın 5-də işə başladı [3, s. 2]. Komissiyanın iclaslarında layihənin müzakirəsi çox mübahisəli keçirdi. Layihənin müzakirələrində dövləti təmsil edən N.P.Smitten, M.N.Kuçayev və A.Bıkov kimi nümayəndələri fəallığı ilə seçilirdi. Layihənin müddəaları ətrafında baş verən ixtilaflar dövrün müxtəlif mətbuat səhifələrində böyük səs-küyə səbəb olmuşdu. Nəhayət, 1890-cı ildə dekabrın 3-də "Cənubi Qafqaz diyarında su üzərində hüquq və torpaqların suvarılması haqqında layihə" çarın özü tərəfindən təsdiq olunub qanun hüququnu aldı. Qanun 34 maddədən ibarət "Cənubi Qafqazda torpaqların suvarılmasında sudan istifadə haqqında əsasnamə" və 47 maddədən ibarət "Torpaqların suvarılmasında sudan istifadə hüquqlarının müəyyən edilməsi üçün qaydalar" olmaqla iki hissəyə bölünürdü [4, s. 760-769]. Burada "Ümumi qərarlar", "Su işi üzrə idarələr haqqında" və "Suvarılmada sudan istifadə qaydaları haqqında" və digər bu kimi məsələlərlə qanunla nizamlanırdı.

Ümumi qərarlara görə, bir mülkün sərhədlərindən kənar olan sular üzərində sahibkarın hüququ torpağı suvarmaq və başqa məqsədlər üçün sudan istifadə edən digər sahibkarların hüququ ilə məhdudlaşırdı. Mülkün hüdudları daxilində başlanğıc alan sular sahibkarın müstəsna ixtiyarında – mülkiyyətində olurdu. Bu suvarma suyundan istifadə hüququ mülk sahibinə məxsus olub, həmin mülkdən kənarda heç kəsə güzəşt edilə bilməzdi. Suvarma suyundan istifadə hüququ dairə su idarələrinin və Baş su idarələrin qərarları əsasında Qafqaz su müfəttişliyi tərəfindən verilən xüsusi şəhadətnamə ilə təsdiq olunurdu. Lakin suvarma sistemlərinin yaxşılaşdırıldığı halda sudan istifadə hüququ təsdiq olunan şəhadətnamələrdə "*hər bir iştirakçıya onun suvardığı sahələrə çatacağı qədər sudan istifadə olunacağı barədə*" güzəşti edilirdi. Bu zaman əgər suvarma sisteminin yaxşılaşdırılması sudan istifadə iştirakçıların vəsaiti hesabına aparılardısa, ondan əldə olunan gəlir – səmərə həmin iştirakçılara çatırdı və əgər suvarma sisteminin yaxşılaşdırılması hökumət tərəfindən aparılardısa, ondan gələn gəlir yeni arxların çəkilməsinə xərclənirdi [4, s. 760-769].

1890-ci il 3 dekabr qanununun birinci hissəsinin "Su işi üzrə idarələr haqqında" bölməsinə görə Cənubi Qafqazda bütün su işlərinin idarə olunması Qafqaz su müfəttişliyinə tapşırılırdı. Qafqaz su müfəttişliyi yanında onun hüquq məsləhətxanası və dəftərxanası olmalı idi. Qafqaz su müfəttişliyinin əsas işi yerlərdə mühəndis-hidravlik işlərinin aparılmasına nəzarət etməli, fəaliyyətdə olan qanunla bağlı ortaya çıxan sual doğuran məsələləri qeyd etməli, su dairələrini şöbələrə bölməli, suvarma sistemlərindən istifadə hüququnu təsdiq edən şəhadətnamələri təqdim etməkdən ibarət idi. Su dairələrində işlərə rəhbərlik bu dairənin su istifadəçilərinin seçkili Şurasına, dairə starşinasına (miraba), kanala baxana (cuvara) və su starostasına verilirdi. Bütün bu vəzifələr seçkilərlə müəyyən olurdu. Su dairələrindən Şuraya seçilənlər və dairə starşinaları qubernatorun, kanala baxanlar və su starostaları (su vəkilləri – müəllif) qəza rəisləri təfəfindən təsdiq olunurdular.

Su dairəsi üzrə nümayəndəli seçkili Şura hər bir su dairəsindən bir nəfər olmaqla üç illiyə təyin olunurdu. Seçkili Şura kənd və yaxud ayrı-ayrı torpaq sahələrinə kimi kanallar üzrə suyu düzgün bölüşdürməli, fövqəladə quraqlıq olduğu illərdə suyun bölüşdürülməsinə müvəqqəti qaydalar tətbiq etməli, kanalların təmiri və yeni kanalların salınması üçün işləri qaydaya salmalı, kanalların təmiri və yeni kanalların tikintisi üçün su starostalarından başqa yerdə qalan bütün su istifadəçilərindən maddi vəsait toplamalı, suvarma zamanı əsas su kanalı su altında qaldıqda və yaxud sıradan çıxmış kanalları vaxtında istifadəyə verilməsi qeyri-mümkün olduqda suyu başqa yerdən aparmaq və yaxud özgə kanallardan istifadə razılığını almalı, tərəflər razılığa gəlinmədiyi halda dairə hüdudlarında suvarma və qurutma qurğuları üçün ayrılmış torpaqları qiymətləndirməli idi. Şurada dairə starşinası, yəni mirab sədrlik edirdi.

Bu və ya digər su dairəsi üzrə mirab da həmçinin üç illiyə təyin olunurdu. Mirablar suyun əsas kanaldan köməkçi kanallara bölünməsinə və kanala baxanlara nəzarət etməli, kənd və yaxud ayrı-ayrı torpaq sahələrinə qədər kanallar üzrə suyun bölünməsi ilə bağlı pozulmuş qaydaları bərpa

etməli, suyun çatışmadığı zaman sudan istifadə növbəsinə riayət etməsini gözləməli idi.

Bu vəzifəni bir il ərzində icra edən cuvarlar kanalların işlək vəziyyətdə saxlanılmasına, baş kanaldan axıb gələn suyun az və yaxud çox olmasına, ayrı-ayrı kəndlər və torpaq sahələrinə kanallarla verilən suyun bölüşdürülməsinə nəzarət etməli və suyun oğurlanmasının qarşısını almalı idi.

1890-cı il su sahibliyi və sudan istifadə haqqındakı qanuna görə yeni təsis olunmuş su starostaları (su vəkilləri – müəllif) da birilliyə təyin olunurdular. Su starostaları təsərrüfatlar arasında suyun düzgün bölüşdürülməsini, kənd və habelə şəhər kanallarının işlək halda olmasını nəzarətdə saxlamalı, su oğurluğunun qarşısını almalı, sudan istifadə qaydaları pozulduqda ümumi xəbərdarlıq etməli və pozulmuş qaydarın bərpa işlərini səhmana salmalı idi [4, s. 760-769].

Bu qanunun sudan istifadə qaydaları haqqında bölməsinə görə şəhadətnamədə göstərildiyi qədər sudan istifadə olunması Su müfəttişliyi idarəsinin sudan istifadə üçün tərtib etdikləri cədvəllərə əsasən həyata keçirilirdi. Şəhər və kəndlərdə sudan istifadə ardıcıllığı su istifadəsi iştirakçılarının yığıncaqlarında çıxarılan hökm ilə nizama salınırdı. Suvarma vasitəsinin sahibləri ayrı-ayrı sahələr üzrə qarşılıqlı razılıq əsasında sudan istifadə qaydalarının gündəliyini tərtib edirlər, öz suvarma suyunu bir neçə şəxsə verən mülk sahibi də belə bir gündəlik tərtib edirdi.

Məlumdur ki, Şimali Azərbaycanın digər bölgələri kimi Bakı quberniyasında da hər bir kənd cəmiyyəti, kənd və yaxud həyət su payına malik idi. Suvarma suyu pay qaydası ilə bölüşdürülürdü. Su payının qədəri, sudan istifadə etmək hüququ verən şəhadətnamə mühüm sənəd hesab olunurdu. Suyun dəqiq və bərabər bölüşdürülməsi üçün su vahidi “baş” (1 baş 25 litrə bərabər hesab olunurdu) əsas götürülürdü. Su ehtiyatının artması və azalması ilə əlaqədar olaraq “baş” ilə müəyyən olunmuş su payının qədərində də dəyişiklik edilirdi [4, s. 760-769].

1890-cı il 3 dekabr tarixli qanuna müvafiq olaraq, sudan azad şəkildə istifadə etmək hüququna malik olmaq üçün mühəndis-hidravlikə xahişlə müraciət olunmalı idi. Belə müraciətlərə mühəndis-hidravliklər qurultayında baxıldıqdan sonra qərar verilirdi. Sudan istifadə hüququnu əldə edən cəmiyyət, müəssisə və habelə ayrı-ayrı şəxslər mühəndis-hidravliklər qurultayının icazəsi ilə suyu çəkmək üçün su bəndlərini özgə kanallarla yanaşı edə bilərdi. Özgə torpaq sahələrindən kanal və digər su qurguları çəkiləndə xəttin eni, eyni zamanda qurgunun layihəsi mühəndis-hidravliklər qurultayı tərəfindən müəyyən olunurdu. Xüsusi şəhadətnamə ilə sudan istifadə etmək hüququ qazananlar arx və yaxud hər hansı suvarma vasitəsinə nəzarət etməyib, beş il müddətinə qədər onları istifadəsiz qoyarlarsa, onlar həmin suvarma vasitəsindən istifadə hüququndan məhrum edilirdilər. Sudan istifadə hüququndan məhrum edilən suvarma vasitəsinin sahibinə iki il əlavə vaxt verirdi ki, xarab olub dağılmış arx və yaxud kəhrizi təmir və yaxud da bərpa etsin. Həmin müddət ərzində bunu etmədikdə, arxın sahibi suvarma vasitəsinin üzərində mülkiyyətçilik hüququnu itirirdi. Bu şərt kənd cəmiyyətləri, kəndlər və kənli həyat qrupları tərəfindən çəkilən arxlara, kəhrizlərə və digər suvarma vasitələrinə də şamil edilirdi [4, s. 760-769].

1890-cı il 3 dekabr qanununun mətni ilə tanışlıqdan məlum olur ki, qanunun “Torpaqların suvarılmasında sudan istifadə hüquqlarının müəyyən edilməsi üçün qaydalar” adlanan ikinci hissəsi də üç bölmədən ibarətdir. Qanunun “Ümumi vəziyyət” adlı bölməsinə görə əhalinin suya olan tələbatını və doqquz il müddətində mübahisəsiz olaraq yerli adət və ənənələrlə sudan istifadə olunduğunu sübut edən şahid ifadələri və yazılı dəlillər təqdim olunmadan suvarmada sudan istifadə icazəsi verilmirdi. Suvarma suyundan istifadə hüququnun müəyyən edilməsi üçün müvəqqəti dairə və baş idarələr təsis olunurdu [4, s. 760-769].

Qanunun bu hissəsinin digər bölmələrində suvarma suyundan istifadə hüququnun müəyyən olunması üçün təsis edilən müvəqqəti dairə və baş idarələrinin vəzifələri açıqlanmışdır. Burada dairə idarəsi mühəndis-hidravlikin sədrliyi ilə yerli kənd vasitəçisi, qəza rəisi və yaxud onun göndərdiyi üç köməkçisindən ibarət olurdu. İdarənin iclaslarında dairə starşinası olan mirabın iştirakı mütləq vacib idi. Baş idarənin tərkibi Tiflis Məhkəmə Palatası üzvlərindən birinin sədrliyi ilə təşkil olunurdu.

1890-cı il 3 dekabr qanununun reallaşdırılması ilə əlaqədar olaraq, ali inzibati orqanlar tərəfindən müxtəlif təlimatlar və qaydalar tərtib olunaraq təsdiq edilmişdi. Qanun əsasında Cənubi Qafqaz üzrə suvarma işlərinə rəhbərlik etmək üçün Qafqaz su müfəttişliyi təşkil edildi. Qafqaz su müfəttişinin vəzifələri 1891-ci ilin mayın 4-də Dövlət əmlak naziri tərəfindən təsdiq edilmiş xüsusi təlimatda daha ətraflı şərh edilirdi. Təlimata görə, Cənubi Qafqaz quberniyalarının suvarma üzrə inzibati ərazilərə bölünməsini və su idarələrinin yaradılmasını, bununla yanaşı su dairələri üzrə təsis olunmuş su şurası üzvlərinin, onun sədri mirabın, arxlara nəzarət edən cuvarın və su vəkilinin seçilməsini müəyyən edən qaydalar layihəsini hazırlamalı və onu Dövlət əmlakı nazirliyinə təqdim etməli idi [9, s. 3].

Yerli inzibati orqanların yaxından iştirakı ilə Qafqaz su müfəttişinin suvarma üzrə Cənubi Qafqazın inzibati bölgüsü haqqında tərtib edildiyi layihəyə görə Cənubi Qafqaz ərazisində 75 su dairəsinin yaradılması nəzərdə tuturdu (lakin 95 su dairəsi təşkil edildi – müəllif). Hər bir su dairəsi müəyyən çay hövzəsini və ya inzibati ərazini əhatə etməli idi. Bakı quberniyasında 20 su dairəsinin yaradılması nəzərdə tutulmuşdu. Layihə bir sıra dövlət idarələrində müzakirə olunduqdan sonra 1892-ci il sentyabrın 24-də Əkinçilik və Dövlət əmlak nazirliyi tərəfindən təsdiq edildi.

Cənubu Qafqazda, o cümlədən Quzey Azərbaycanda su sahibliyi və sudan istifadə qaydalarının qanunvericilik yolu ilə təsbit edilməsi istiqamətində ilk ciddi addım olan 1890-cı il 3 dekabr qanununa əsasən Cənubi Qafqaz quberniyaları üzrə su sahələrinə rəhbərliyi bilavasitə Qafqaz su müfəttişinə tabe olan su mühəndislərinin əlində mərkəzləşdirilmişdi. Su mühəndislərinin fəaliyyəti 1891-ci ilin avqustunda imzalanmış xüsusi təlimat üzrə nizamlanırdı. Hər bir su mühəndisi 6-dan 14-ə qədər su dairələri əsasında suvarma işlərinə rəhbərlik etməli idi. Mirab, cuvar və su idarəsinin digər üzvləri su mühəndisinin nəzarəti altında işləməli idi. Suyun istifadə olunmasında su dairələrin vəzifələri şəxslərin seçilməsi qaydası 1893-cü ilin avqustun 12-də təsdiq edildi. Suvarma suyunun istifadə hüququnun müəyyən edilməsi üzrə dairə üzvlərinin seçilməsi qaydalarını müəyyən edən təlimat 1894-cü ilin dekabrında təsdiqini tapmışdı [12, v. 9-10].

Bütövlükdə götürüldükdə 1890-cı il 3 dekabr qanunu sudan istifadəni dövlət xəzinəsinə çoxlu gəlir, çar məmurları üçün isə rüşvət mənbəyinə çevirdi. Dövrün suvarma mütəxəssisləri su dairələrinin çoxunda suvarma suyu üzərində sudan istifadə hüquqları müəyyən edilməsinə baxmayaraq, suyun mərzlənməsi məsələsinin uzun çəkəcəyini etiraf etməli olmuşdu. Su mühəndislərinin ixtiyarında yüzlərlə belə inzibati işçinin olması onun işini çətinləşdirirdi. Əslində həmin şəxslərin üzərində heç bir nəzarət olmurdu. Mirab, cuvar və başqa vəzifəli şəxslər onların üzərində nəzarətin olduqca zəif, hətta bəzi yerlərdə isə olmamasından istifadə edərək suvarma suyunun bölüşdürülməsində mövcud qayda-qanunu pozurdular və nəticədə su mühəndisləri sahələri üzrə toplanmış şikayət ərizələrinə baxıb qurtara bilmirdi. Mirab, cuvar və digərləri qanunla seçilməli olduğu halda, çox vaxt təyin olunurdu və bununla qanun dövlət tərəfindən pozulurdu və bu yolla işə qəbul olunmuş həmin vəzifəli şəxslər də öz növbəsində səlahiyyətlərindən sui-istifadə edirdilər [11, v. 94-99 arxa].

Qanunun müddəalarına əsasən su şuraları hər su dairəsi üzrə suvarma suyu üzərində hüququn qorunub saxlanılmasına, hər bir kənd yaxud varlı torpaq sahibi arasında suyun bölüşdürülməsinə nəzarət, pul yaxud məhsul (natural) formasında su vergisinin toplanmasına, yeni arxların çəkilməsinə və s. işlərə rəhbərlik edirdi [4, s. 760-769]. Su şurasına əhali tərəfindən su dairəsinin hər bir xırda ərazisinin bir nümayəndəsi seçilməli idi: Cənubi Qafqazda mövcud olan 95 su dairəsinə Bakı quberniyasının Şirvan, Muğan, Aşağı Kür, Xəzər sahili və Qordı-Sumqayıt su dairələri daxil deyildi, yəni burada heç kəsə tabe olmayan mirablar hökmranlıq edirdilər.

1890-cı il 3 dekabr qanununa görə suvarma suyu üzərində hüququ müəyyən etmək üçün hər bir su dairəsi 3 xırda sahəyə bölünürdü. Sahələrin sayı qədər dairə idarəsinin üzvləri olurdu. Su üzərində hüququn qanuniliyini təsdiq etmək üçün əvvəlcədən kənd cəmiyyətləri kəndlər və heyətlər arasında suyun bölüşdürülməsi haqqında məlumat bilmək lazım gəlirdi. Bununla əlaqədar olaraq göndərilən şikayət ərizələri üzrə dairə idarəsinin hər bir üzvü suvarma mövsümü zamanı ona və

protokol tərtib edilməklə son qərarın elan olunması gününü təyin edirdi. Sudan istifadə edən tərəflərdən biri gəlmədikdə, onun suvarma suyu üzərində hüququ iclasda iştirak edən digər şəxslərin ərizələrinə əsasən müəyyən edilirdi.

Ayrı-ayrı su hövzələri və suvarma sistemləri şəbəkəsinin başlıca simalarından biri olan suvarma təsərrüfatına rəhbərlik edən mirab su suvarmasının sədri olub onun fəaliyyətini istiqamətləndirirdi. Mirabın başlıca vəzifəsi baş arxlar vasitəsilə suyun kənd cəmiyyətləri daxilində və arasında suyun qanunu şəkildə bölüşdürülməsinə bilavasitə nəzarət etmək, cuvarların işini yoxlamaq, sudan istifadə növlərini nizama salmaq və s. idi. Cuvar onun ixtiyarında olan arxların texniki vəziyyətini, arxın baş hissəsində axan suyun həcminə, arxdan istifadə edən kəndlərin sudan istifadə qaydasına, həmin kəndlərdə həyətlər arasında suyun bölüşdürülməsinə nəzarət edirdi [1, s. 96]. Su vəkilinin vəzifəsi isə yalnız bir kəndin ərazisində fəaliyyəti ilə məhdudlaşırdı.

1890-cı il 3 dekabr tarixli qanunun torpaqların suvarılması üçün suyun istifadəçiləri arasında bölüşdürülməsində, sudan istifadə məsələlərində hüquqi nizamlamanın əsasını qoymuşdu. İstifadəçinin hər biri onun sayında olduğu kimi sudan istifadə hüququnu özündə göstərən rəsmi sənəd olmalı idi. Bu qanun dövlət kəndlilərinin korluq çəkdiyi suyun zəbt olunması hallarının qarşısını almalı və suyun bölüşdürülməsini qanuniləşdirdi. Qanun veriləndə təmtəraqla elan olunurdu ki, əkin suyunun kəndlər və cəmiyyətlər arasında mövcud bölüşdürülməsi sudan istifadə olunmasında iştirakçıların tələbinə uyğun gəlməsindən çox uzaq idi [6, s. 31]. 1890-cı il 3 dekabr qanunu yeni su idarələrinin cavabdeh əsas həlqəsini təşkil edən mühəndis-hidravliklərin yeni su kanallarının və ya arxların çəkilməsində xüsusi icazənin tələb olunduğunu müəyyən etdi. Qanun həmçinin hər bir torpaq sahibinə "öz torpaq sahəsindən su xətlərinin çəkilməsinə görə güzəştlər" etdi. Qanunun ayrı-ayrı maddələri sudan istifadə olunmasında qaydaların yaradılması, suvarma yerlərində kəndlilərin iqtisadi vəziyyətinin cüzi olsa da yaxşılaşdırılmasına şərait yaratması qənaətinə gəlməyə imkan verir.

Mövcud qanun bu mürəkkəb sistemin bütün incəliklərini tənzimləməyə, təbii ki, qadir deyildi. Odur ki, artıq 1901-ci ildə mövcud su qanununa əlavələr və dəyişikliklər edilməsi haqqında su müfəttişinin qeydləri əsasında yeni layihə hazırlanır. Layihə uzunsürən müzakirələrdən sonra 1912-ci ilin noyabrında Canişin şurasına göndərilsə də, əlavələr və dəyişikliklərə ehtiyac olduğundan geri qaytarılmışdı [5, s. 154].

Müxtəlif qaynaqlarda saxlanılan məlumatlara görə, XIX yüzilliyin sonlarında 23 su dairəsinə bölünən Bakı quberniyası 240 932 desyatinlik suvarılan torpaq sahəsinə malik idi [1, s. 104]. 1916-ci ildə hər iki quberniya üzrə suvarılan torpaq sahəsi 856 400 desyatinə çatmışdı [1, s. 106]. Suvarılan torpaq sahələri Bakı quberniyasının Quba, Şamaxı və Cavad qəzalarında daha da artmışdı. 1900-cü ildə Muğanın şimalında 2 min desyatinə qədər yalnız pambıq əkini sahəsi suvarılırdısa, 10 ildən sonra bu 16 min desyatinə çatmışdı [8, s. 138]. Suvarılan torpaq sahələrinin belə artması, həmin torpaq sahələrinin əsasən varlıların əllərində cəmləşməsi ilə əlaqədar idi. Şimali Azərbaycanın iki quberniyasının 12 su dairəsində 5 min verst uzunluğunda iri magistral, 12 min verst uzunluğunda adi suvarma arxları 400 kəndin varlı torpaq sahiblərinin ixtiyarında olmuşdu. Belə ki, qanunla "*sahibliyin hüdudları daxilində başlanğıc olan sular sahibkarın müstəsna ixtiyarında olurdu*" [4, s. 760-769].

Qanuna görə sahibliyin ərazisindən kənara çıxan sulardan başqa sahibkarlar da, bu və ya digər məqsədlər üçün istifadə edə bilərdilər.

Məlumdur ki, Şimali Azərbaycan kimi isti iqlimə malik bir diyarda kəndlilərin suvarma suyu ilə təmin olunması onların təsərrüfatlarının inkişafı və yaxud tənəzzülü üçün əsas şərtlərdən biri idi. Suvarma suyunun çoxluğu və yaxud azlığı birinin əkinini və əmlakını çoxaldır, digərlərininkini azaldır, birini varlandırır və o birisini yoxsullaşdırırdı. Sudan istifadə hüququ xüsusi şəhadətnamə ilə təsdiqlənirdi. "*Xüsusi şəhadətnaməsi olan və sudan istifadə hüququ qazananlar arx və ya hər hansı suvarma vasitəsinə nəzarət etməyəndə, 5 il müddətinə bu hüququ itirirdi*" [4, s. 760-769].

Çarizmin bütün cəhdlərinə baxmayaraq, suvarma sahəsində bütün prosesləri sabit nəzarət altında saxlamaq mümkün olmurdu. Suvarma üzərində hüququn müəyyən edilməsi ləng getdiyindən su dairələrində vəziyyət acınacaqlı hala düşmüş, su üzərində mübahisəli hüququnun müəyyən edilməsi zamanı çoxlu çətinliklər meydana çıxırdı [7, s. 1].

Məlumdur ki, öyrənilən dövrdə hər bir kənd cəmiyyəti, kənd yaxud həyət müəyyən su payına malik idi. Su payının qədəri sudan istifadə hüququnu verən şəhadətnamədə göstərilirdi və su payının ölçü vahidi baş qəbul olunmuşdu [4, s. 760-769]. Su ehtiyatının artması və azalması ilə əlaqədar olaraq su payında da dəyişiklik edilirdi. Arxların çoxunda tənzimçi olmadığı üçün su gözəyarı ölçülürdü, varlı kəndlilər üçün suyun gözəyarı ölçülməsi mənfəətli idi. "*Köhnə mirab, yaxud yeni mirab suyun baş ilə ölçülməsini, bir baş suyun nə qədər olduğunu bilmirdilər. Onlar nəql edirdilər ki, keçən il bizə suyun ölçulməsi haqqında təlimat göndərilmişdi, lakin onu başa düşmədikləri üçün su müfəttişliyindən bir məmurun gəlib onlara başa salacağını gözləyirdilər. Heç kim gəlmədi, təlimat haqqında xatirə qaldı. Mirablara elə gəlirdi ki, onlar suyu əla ölçürlər*" [2, s. 13-15].

Onu da qeyd edək ki, 1890-cı il 3 dekabr tarixli qanunu sudan istifadə qaydaların pozulmasında cərimələr tətbiq edirdi. Belə ki, suyun oğurlanmasına görə, 100 manat cərimə edilirdi. Bakı quberniyasında hökmran olan müstəmləkə-polis rejimi, iri torpaq sahiblərinin sudan istifadə edilməsində özbaşınalığı, məmurların rüşvətə qurşanması qanunun həyata keçirilməsinə əngəllər yaradırdı. Nəticə etibarilə suyun zəbt edilməsi, digər həmkəndlilərlə mübahisələrə gətirirdi. Su üstündə mübahisələrin digər səbəbi suyun çatışmazlığı idi.

1890-cı il 3 dekabr qanununa əsasən yaradılmış çoxpilləli və mürəkkəb su idarə aparatının saxlanılması əhalinin üzərinə düşürdü. Su qanunu vəzifəli şəxslərin saxlanılması üçün kəndlilərin pul, yaxud məhsul ödəməsini rəsmiləşdirmişdi. Əvvəllər yalnız mirab və cuvarların saxlanılması üçün pul, yaxud məhsul ödənilirdisə, indi yeni təsis olunmuş su vəkili və su şura üzvlərinin saxlanılması da əlavə edilmişdi. Hər su dairəsi üzrə vəzifəli şəxslərin saxlanılması üçün sudan istifadə edən heyətlərin arasında ödəniləcək məhsulun qədəri və yaxud pulun məbləği şuralar tərəfindən müəyyən edilirdi. 1904-cü ilin məlumatına görə təkcə Ağsu mahalının sudan istifadə haqqı bir ildə 7 min rubl hesablanmışdı [10, v. 15-15 arxa].

Beləliklə, çar rejimi Şimali Azərbaycandakı bütün ağalığı dövründə Şimali Azərbaycan kəndinin təsərrüfat həyatının bu mühüm sahəsində də sabit, yaxşı düşünülmüş rəvan fəaliyyət göstərən bir sistem yaratmağa nail ola bilməmişdi.

## ƏDƏBİYYAT

1. Talıbzadə, İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə / İ.A.Talıbzadə. – Bakı: Elm, – 1980. – 150 s.
2. Бржозовский, В.А. Культура чалтыка, водный вопрос и главнейшая нужда орошения в Геогчайском уезде // – Тифлис: Кавказское хозяйство, №6, –1914, – с. 13-15.
3. Водные законы для Закавказья // – Тифлис: Кавказ, – 1892, 10 января, – №8, – с. 2.
4. Высочайше утвержденного: I. Положение о пользовании водами для орошения земель в Закавказье и II. Правила для определения существующих прав пользование оросительною водою // Полное Собрание Законов Российской империи. – Собрание третье. – Т. X. – Отделение первое. 1890. – Санкт-Петербург: Государственная типография, – 1893. – Закон 7 255, – с. 760-769.
5. Гасанов, Г.Н. Из истории Северо-азербайджанской деревни в конце XIX – начале XX вв. / Г.Н.Гасанов. – Баку: Тахсил, – 2007. –224 с.
6. Гасанов, И.М. Аграрные отношения в государственной деревне Азербайджана к концу XIX века (80-90-е годы): / автореферат диссертации на соискание ученой степени доктора исторических наук /– Баку: 1965.–55 с.
7. Егиазаров, С.А. О водовладении в Закавказском крае / С.А.Егиазаров. – Киев: – 1886. – 37 с.

8. Кузминский, А.М. Всеподданнейший отчет о произведенной в 1905 году, по высочайшему повелению сенатором Кузминским, ревизии города Баку и Бакинской губернии / А.М.Кузминский. – Баку: – 1906. – 686 с.
9. Матвеев Н. Водный закон и земство на Кавказе // Кавказское хозяйство, № 14, –1914, –с. 3.
10. Прошение жителей села Ахсу Шемахинского уезда Его превосходительству господину инспектору вод Кавказского Водного округа, 31 января 1904 г. // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond № 21, siyahı № 1, iş № 422, vərəq – 15-15 arxa.
11. Прошение поверенным общество казенных крестьян сел. Неваги 1-й, Куши и Муганны Шемахинского уезда Кербалаи Рустама Кербалаи Баба оглы, Кербалаи Меджида Мамедказим оглы и Кербалаи Гюлали Кербалаи Али оглы Его сиятельству господину главноначальствующему гражданскою частью на Кавказе, 22 ноября 1902 г. // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond № 21, siyahı № 1, iş № 323, vərəq – 94-99 arxa.
12. Рапорт инженера гидравлика 5-го водного участника на Кавказе, инженер пушки Вл. Кавицкого его превосходительству господину инспектору вод на Кавказе, 9 февраля 1902 г. // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond № 21, siyahı № 1, iş № 323, vərəq – 9-10.

## РЕЗЮМЕ
## ИЗ ИСТОРИИ ВОДОВЛАДЕНИЯ И ВОДОПОЛЬЗОВАНИЯ ГОСУДАРСТВЕННЫХ КАЗЕННЫХ КРЕСТЬЯН БАКИНСКОЙ ГУБЕРНИИ КОНЦА XIX - НАЧАЛА XX ВЕКОВ

***Бахшалиев А.Б., Абдуллаева С.М.***

***Ключевые слова:*** *Бакинская губерния, мираб, джувар, водовладение, водопользование, экономическая жизнь*

Изучена ситуация с местным владением водой и водопользованием как в гражданских, так и в государственных селах в период российской колонизации в Северном Азербайджане. Несмотря на все попытки царизма, держать под постоянным контролем все процессы в области ирригации не удалось. Ситуация стала плачевной, поскольку определение права на ирригацию шла медленно, и при определении спорного права на воду возникало много трудностей.

## SUMMARY
## FROM THE HISTORY OF WATER OWNERSHIP AND WATER USE BY STATE PEASANTS OF THE BAKU PROVINCE AT THE END OF THE XIX - BEGINNING OF THE XX CENTURIES.

***Bakhshaliyev A.B., Abdullaeva S.M.***

***Keywords:*** *Baku Governorate, mirab, juvar, water ownership, water use, economic life*

The situation with local ownership of water and water use in both civilian and state villages during the period of Russian colonization in Northern Azerbaijan was studied. Despite all the attempts of tsarism, it was not possible to keep all processes in the field of irrigation under constant control. The situation has become dire as the determination of irrigation rights is slow and many difficulties have arisen in determining the disputed water rights.

Daxilolma tarixi: İlkin variant 03.07.2023
Son variant 07.09.2023

UOT 94(479.24) DOI 10.54758/16801245_2023_19_3_51

# AZƏRBAYCAN RESPUBLİKASINDA ÇOXPARTİYALILIQ SİSTEMİNİN İCTİMAİ-SİYASİ FƏALLIĞIN ARTMASINA TƏSİRİ

**ŞAMİLOVA AYSEL MƏHƏMMƏD qızı**
*Sumqayıt Dövlət Universiteti, Azərbaycan, doktorant*
aysel.yaqubova5@mail.ru

***Açar sözlər:*** *siyasi, dövlət, partiya, cəmiyyət, fəallıq, idarəçilik, demokratik*

**Giriş.** SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş ölkələrdə vətəndaşların ictimai-siyasi fəallığının artmasına birbaşa təsir göstərən bir çox faktorlar formalaşmışdır. Bunlara cəmiyyət həyatının demokratikləşdirilməsində hüquqi islahatların dərinləşməsi, gender bərabərliyinin və ya qadınların cəmiyyətdə rolunun yüksəldilməsi, ictimai-siyasi həyatda gənclərin və onalrın təmsil olunduğu ictimai təşkilatların fəaliyyətinin güclənməsi, vətəndaş həmrəyliyinin təmin olunmasına xidmət edən bütün mümkün vasitələrdən istifadə edilməsi və s. göstərə bilərik. Bir məqalə daxilində onların hamısından, hətta ən qısa formada olsa belə, bəhs etməyin qeyri-mümkünlüyünü nəzərə alaraq, siyasi partiyaların cəmiyytimizdəki rolundan və fəaliyyətinin əhəmiyyətindən bəhs edilməsini vacib bildik.

Azərbaycan cəmiyyətində siyasi partiyalar mövcud demokratik qanunvericiliyin norma və prinsiplərinə uyğun olaraq fəaliyyət göstərən ictimai birliklərdir. Siyasi partiyaların üzvlərini siyasi məqsəd və maraqlar birləşdirir. Azərbaycan Respublikasında bütün siyasi partiyalar qanun qarşısında bərabər olaraq, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili, dövlət orqanlarına seçdikləri təmsilçiləri vasitəsilə hakimiyyət strukturlarının fəaliyyətində iştirak etmək imkanı əldə edirlər.

Azərbaycan Respublikasında bütün siyasi partiyalar prezident, parlament və bələdiyyə seçkilərində iştirak etmək üçün açıq formada, bərabər və sərbəst mübarizə aparırlar.

Bu gün Azərbaycan Respublikasında çoxpartiyalı sistem anlayışı getdikcə daha tez-tez səslənir. İndi rəsmi qeydiyyatdan keçməklə fəaliyyət göstərən siyasi partiyaların hər birinin öz proqramı, konkret desək, ictimai-siyasi həyatda baş verən əsas hadisə və proseslərlə bağlı öz mövqeyi var.

**Azərbaycanda ilk siyasi təşkilat və partiyaların yaranması.** Bu proses XX əsrin ilk illərinə təsadüf edir (1, c.12). Həmin vaxt siyasi partiyaların fəaliyyəti Rusiya imperiyasının milli maraqlarımıza zidd siyasətinə qarşı çıxaraq, mümkün olan bütün vasitələrdən istifadə etməklə bu siyasətin zərərli nəticələrinin təsirini azaltmağa çalışırdı. Təbii olaraq bu ciddi nəticələrə gətirib çıxara bilməzdi.

1918-1920-ci illərdə 23 aylıq fəaliyyəti ilə dövlətçilik ənənələrimizin davamının yeni, parlaq və yüksək mərhələsini yaradan Milli Hökumətin gördüyü tədbirlər nəticəsində siyasi partiyaların leqal fəaliyyəti təmin olundu. 23 aylıq fəaliyyəti dövründə qurulmuş 5 hökumət kabineti əksər siyasi partiyaların nümayəndələrinin təmsil olunduğu koalisiyon qurumlar idi [2, s.18-20].

Lakin 1922-1991-ci illərdə Sovet imperiyasının tərkibinə daxil edilən Azərbaycan SSR-də hakim kommunist partiyası istisna olmaqla, bütün siyasi partiyaların fəaliyyəti qadağan edilmişdi.

**Siyasi partiyalar dövlət müstəqilliyinin bərpasından sonra.** Dövlət müstəqilliyinin bərpasından sonra siyasi partiyaların fəaliyyətində yeni mərhələ başlandı. Cəmiyyət həyatının demokratikləşməsi Azərbaycan vətəndaşlarına geniş şəkildə müxtəlif ictimai təşkilatlar və siyasi partiyalar vasitəsi ilə cəmiyyət həyatının ən müxtəlif sahələrində, o cümlədən dövlətin idarəçilik

sistemində bilavasitə və ya birbaşa iştirak etməklə yüksək ictimai-siyasi fəallıq göstərməyə kömək etmiş oldu.

Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpa edilməsindən, xüsusilə də 1993-cü ilin 15 iyunundan bu günədək siyasi partiyaların sərbəst fəaliyyət göstərməsi üçün lazımi qanunvericilik bazası yaradılmış, normal şərait təmin edilmişdir. Azərbaycan Respublikasının Əsas Qanununun 58-ci maddəsində göstərilir ki, "Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir" [3, s.20].

Azərbaycan Respublikasında siyasi partiyaların yaranması və fəaliyyət prinsipləri üçün əsas sənəd Konstitusiya, "Siyasi partiyalar haqqında" mövcud qanun və bunların məzmununu tamamlayan Milli Məclisin digər qanunvericilik aktlarıdır [4; 5].

Azərbaycandakı bütün siyasi partiyaların fəaliyyəti ilk vaxtlar 3 iyun 1992-ci ildə qəbul olunmuş "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunu ilə tənzimlənirdi [4].

Siyasi partiyaların fəaliyyətini tənzimləyən ilk qanunun qəbulundan keçən 30 il ərzində cəmiyyətdə və dünya təcrübəsində baş verən proseslərlə əlaqədar olaraq qanuna 70-ə yaxın əlavə düzəlişlər edilmiş və nəhayət Azərbaycan Respublikasının Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlarla əməkdaşlığının nəticələrindən biri kimi qəbul edilmiş öhdəliklərin həyata keçməsi nəticəsində 2022-ci ildə qanunun yeni redaksiyası işlənib hazırlanmışdır. 6 fəsil, 30 maddədən ibarət yeni qanun layihəsi 2022-ci ilin dekabrın 16-da Milli Məclisdə müzakirəyə çıxarılaraq birinci oxunuşda qəbul edilmişdir [5, s.1].

Qeyd edilməlidir ki, "Siyasi partiyalar haqqında" yeni Qanunun hazırlanması və qüvvəyə minməsi faktı təkcə formalaşan yeni siyasi konfiqurasiyanın təzahürü deyil. Yeni Qanun, eyni zamanda siyasi dialoqu atributiv müstəvidən konstruktiv əməkdaşlıq müstəviyə çıxaran ali siyasi iradənin təzahürü və ölkədə siyasi dialoq mühitinin inkişaf etdirilməsi ilə siyasi proseslərdə iştirak edən bütün tərəflərin açıq və bərabərhüquqlu münasibətlərə dəvət olunması deməkdir [6].

Hüquqi demokratik cəmiyyət və dövlət quruculuğu yolunda inamla irəliləyən və mühüm uğurlar qazanan Azərbaycan Respublikasının siyasi sistemi üçün də çoxpartiyalılıq xarakterikdir.

**Vətəndaşların siyasi həyatda iştirakının əsas vasitələrindən biri.** Azərbaycan dövlətində sərbəst şəkildə müxtəlif siyasi partiyaların təşkil edilməsi ilk növbədə ondan xəbər verir ki, həmin cəmiyyətdə siyasi anlaşma prinsipi hakimdir. Belə ki, hər cəmiyyətdə müxtəlif siyasi əqidələrin mövcudluğunu Konstitusiya elan və təmin edir. Hüquqi demokratik dövlətdə həm də o deməkdir ki, cəmiyyətdə hər bir vətəndaş siyasi əqidə və baxışlarından asılı olmayaraq istənilən ictimai birliyə, cəmiyyətə və partiyaya daxil ola bilər.

Avropa Şurasının siyasi partiyaların fəaliyyət prinsiplərinin nizamlanması haqqında müvafiq sənəddə bildirilir ki, partiyalar vətəndaşların siyasi həyatda, siyasi mübarizədə iştirakının əsas alətidir. Avropa Şurası Parlament Assambleyası da bildirmişdir ki, demokratiyanın düzgün işləməsi üçün, rəqabət prinsipinə əsaslanan siyasi plüralizm və müxalifət partiyalarının olması vacibdir [7, s.37].

Bəhs edilən sənəd 233 maddə və "Əlavə"lərdən ibarətdir və müasir dövrdə demokratik cəmiyyət quruculuğunun davam etdiyi sivil dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında sərbəst fəaliyyət göstərən siyasi partiyaların fəaliyyət prinsiplərini nizamlamaq üçün əsasdır. Sənəddə siyasi partiyaların formalaşması, fəaliyyət prinsipləri barədə müfəssəl izah verilir.

Siyasi partiyaların sərbəst fəaliyyəti hər bir sosial təbəqənin, qrupun məqsəd və istəklərinin əks olunması baxımından olduqca əhəmiyyətlidir. Çünki nə qədər ki, həyat var, nə qədər ki, insanlar var, vətəndaşların hər bir kateqoriyası hər vasitə ilə öz məqsədlərinə çatmağa çalışır.

Hər bir partiya əhalinin müəyyən təbəqələri üçün öz ayrıca maraqlarını ifadə edən siyasi qüvvədir. Siyasi partiyalar vətəndaşların siyasi-ictimai fəallığının artırılmasında, əhalinin iradə və fikrini ifadə etməkdə, ilk növbədə, seçki proseslərində, mərkəzi və yerli dövlət orqanların formalaşmasında birbaşa iştirak etmənin həyata keçirilməsində ən mühüm vasitədir.

Bütün siyasi partiyalar bərabər hüquqlara malik olsa da, bu gün cəmiyyət həyatında onlardan bəziləri digərlərindən daha fəal təsirə malikdirlər.

Bu gün Azərbaycanda rəsmən qeydiyyata alınmış 60-a yaxın siyasi partiya və hərəkatlar var. Bunlar Yeni Azərbaycan Partiyası, Vahid Azərbaycan Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası, Azərbaycan Kommunist Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası, Azərbaycan Milli Demokrat Partiyası, Azərbaycan Milli Dövlətçilik Partiyası, Vahid Azərbaycan Partiyası və digərləridir. Bunlardan 10-u 1992-ci, 8-i 1993-cü, 5-i 1994-cü, 7-i 1995-ci, 3-ü 1998-ci, 3-ü 1999-cu, qalanları isə 2000-ci ildən sonra təşkil edilmişdir. 2005-ci il daha 8 yeni siyasi partiyaların yaranması baxımından məhsuldar olmuşdur [8].

**Çoxpartiyalı sistemin və ya siyasi plüralizmin inkişaf tendensiyaları.** Çoxpartiyalı sistem, parlamentarizm və fikir plüralizmi demokratik cəmiyyətin vacib atributlarıdır. Ona görə də hüquqi demokratik dövlət quruculuğu prosesi parlament və çoxpartiyalı sistemlər, eləcə də siyasi plüralizm inkişaf etmədən mümkün deyil.

Azərbaycanda çoxpartiyalı sistemin, parlamentarizmin və fikir plüralizminin xüsusiyyətləri aşağıdakılardır:

- Azərbaycanda dövlət tərəfindən çoxpartiyalı sistemin, parlamentarizmin və siyasi plüralizmin formalaşması və inkişafı təmin edilir;
- Qanunverici orqanın fəaliyyətində Yeni Azərbaycan Partiyasının fraksiyasının aparıcı rol oynamasına baxmayaraq burada siyasi müxalifətdən olan parlament azlıqlarının formalaşma tendensiyaları müşahidə edilir;
- Müasir parlamentarizmə xas olan siyasi maraqlar balansının mövcudluğu cəmiyyətin üzləşdiyi sosial və siyasi problemlərin həllində tərəflər arasında cəmiyyətin qarşısında konstruktiv əməkdaşlığın gələcək inkişafı üçün şərait yaradır;
- siyasi həyatda mühüm rol oynayan partiyalar özləri onların maliyyələşdirilməsi haqqında qanunların, habelə seçki qanunvericiliyininin təkmilləşdirilməsi işində mühüm rol oynayırlar.
- Azərbaycanda həyata keçirilən sistemli və ardıcıl islahatlar hüquqi demokratik dövlət və açıq vətəndaş cəmiyyəti quruculuğuna yönəlmişdir və seçkili orqanların formalaşdırılması və mövcudluğu üçün əsas şərt sayılır.

**Dövlət hakimiyyəti və çoxpartiyalı siyasi sistemin fəaliyyəti.** Siyasi inteqrasiya funksiyalarını yerinə yetirən partiyalar (hökumət prosesinə vətəndaşların daxil edilməsi) və siyasi sosiallaşma (vətəndaşları məlumatlandırmaq üçün iş, partiya kadrlarının hazırlanması və tərbiyəsi) bir növ vahid və əhəngdar mexanizm kimi çıxış edir.

Bu gün siyasi partiyaların ictimai-siyai həyatda rolunun artırılması üçün mühüm şərtlərdən biri olan parlament fəaliyyətinin inkişaf xüsusiyyətləri aşağıdakılardır:

- Azərbaycanda Respublikasının Milli Məclisi çoxpartiyalılıq əsasında yaradılmışdır;
- ölkənin partiyaları parlament çoxluğu və parlamentdə müxalifət azlığı şəklində institutlaşdırılmışdır. Bu, parlamentdə müasir plüralizm mexanizminin formalaşmasının başlanğıcı olmaqla yanaşı, həm də sağlam siyasi rəqabətə şərait yaratmışdır;
- cəmiyyətin üzləşdiyi sosial və siyasi problemlərin həllində siyasi partiyalar arasında konstruktiv rəqabət daha da inkişaf etdirilmişdir;
- siyasi partiyaların fəaliyyəti, onların cəmiyyətdə nüfuzunun güclənməsində və dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin təmin edilməsində rolunun və əhəmiyyətinin artması, bütövlükdə onların ölkənin sosial-iqtisadi və siyasi-hüquqi inkişafı proseslərinə təsir imkanlarını göstərir.

Müasir parlamentlərdə müstəqil namizədlər, demək olar ki, yox dərəcəsindədir və ya onların sayı azdır. Qeyd etməliyik ki, "Siyasi partiyalar olmadan parlamentarizm olmaz" ifadəsi doğrudur. Eyni zamanda həm parlamentin formalaşma tərzinə - çoxpartiyalı əsasda seçkilər yolu ilə, həm də

onun təşkili və fəaliyyətinə görə, həlledici rol siyasi partiyaların təmsil olunduğu parlament fraksiyalarına məxsusdur.

Siyasi partiyaların Milli Məclisdəki fraksiyaları əhəmiyyətli bir strukturdur, onun bir hissəsidir. Siyasi partiyaların parlament fraksiyaları siyasi partiyaların öz səlahiyyətlərini yerinə yetirməkdə iştirak etməklə parlamentin səlahiyyətlərinin səmərəli həyata keçirilməsi üçün əsasdır. Bu iştirakın əsas funksiyası xalqın iradəsinin formalaşmasına və ifadə olunmasına töhfə vermək, hakimiyyət qərarlarının qəbulunda iştirak etməkdir.

Çoxpartiyalı sistemdə faktiki olaraq bütün deputatlar siyasi partiyaların nümayəndələridir. Beləəri ilə parlamentin tərkibi, parlament fraksiyalarının formalaşması üçün ən uyğun meyar deputatların partiya mənsubiyyətidir.

**Siyasi partiyaların Milli Məclisə seçkilərdə iştirakı.** Qeyd etdiklərimizin əyani təsdiqi kimi Azərbaycanda 2015-ci ildə Milli Məclisə seçkilərinin bəzi nəticələrindən bəhs etmək vacibdir. 2015-ci ilin noyabrında keçirilən parlament seçkilərində on beş partiya ayrıca və yeddi partiyanı təmsil edən bir koalisiya seçkilərə qatılmışdı. Yeni Azərbaycan Partiyası (YAP) səs çoxluğu ilə parlamentdəki 125 yerdən 71-nə sahib olmuşdu. On siyasi partiya və ya hərəkat hər biri bir yer, Vətəndaş Həmrəyliyi Partiyası (VHP) iki deputat mandatı qazanmış, qalan yerləri müstəqil namizədlər tutmuşdu [9].

Azərbaycanda 2020-ci ildə Milli Məclisə seçki kampaniyası vətəndaşların, o cümlədən siyasi partiyaların fəallığı şəraitində keçmişdir. Seçki prosesinin böyük sayda müşahidəçi tərəfindən izlənməsi Milli Məclisə seçkilərin geniş ictimaiyyətin maraq dairəsində olduğunu göstərirdi. "Seçkilərdə məşvərətçi səs hüquqlu komissiya üzvü, səlahiyyətli nümayəndə, vəkil edilmiş şəxs və digər statusla, ümumilikdə, 90 minə yaxın seçki subyekti səsvermə günü məntəqə seçki komissiyalarının işini müşahidə etmək hüququna malik olmuşdu. Seçkiləri izləmək üçün 77790 yerli müşahidəçi qeydiyyatdan keçmişdi. Dairə seçki komissiyalarında isə 73 526 müşahidəçi akkreditə olunmuşdu ki, bunlardan da 34 152 nəfər 24 siyasi partiyanı, 1487 nəfər 16 qeyri-hökumət təşkilatını, 13099 nəfəri deputatlığa namizədləri, 358 nəfəri seçicilərin təşəbbüs qrupunu təmsil etmiş, 24430 nəfəri isə öz təşəbbüsü ilə seçkilərin müşahidəsinə qoşulmuşdu" [10].

**Nəticə.** Beləliklə, apardığımız təhlillər göstərdi ki, siyasi partiyalar, müxtəlif cəmiyyət və ictimai birliklər cəmiyyətin siyasi sisteminin ünsürləri, siyasi fəaliyyətin subyektləri kimi ölkənin siyasi həyatında iştirak dərəcələrini xeyli artırmışlar.

Siyasi fəallığın artması Azərbaycanda demokratik islahatların prioritet istiqamətlərindən biri olmuşdur. Bu gün parlamentdəki nümayəndəlik sistemində plüralizmin və real çoxpartiyalı sistemin rolu artır, siyasi partiyalar hüquqi demokratik cəmiyyət quruculuğunun əsas aparıcı qüvvələrindən birinə çevrilir. Demokratik islahatların dərinləşdirilməsində irəliləyiş, bazar iqtisadiyyatına keçid, hüquqi dövlət və açıq vətəndaş cəmiyyəti quruculuğu parlament islahatlarının başlıca istiqamətlərini təşkil edir.

Tədqiqatımızdan bir daha aydın oldu ki, son illərdə keçirilmiş hüquqi islahatlar vətəndaşların, xüsusi ilə də siyasi partiyaların ictimai-siyasi fəallığının genişlənməsi imkanlarını daha da artırmışdır. Siyasi partiyaların ictimai-siyasi fəallığının bu cür artması Azərbaycan cəmiyyətinin müasir dünya siyasi sisteminə inteqrasiyasının daha bir göstəricisi deməkdir.

.

## ƏDƏBİYYAT

1. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Елм, Баку: - 1997. - 336 с.
2. Həsənov Murtəza. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət idarəçiliyi. Uluslararası Türk dünyası dergisi. Cilt: 1. - Sayı: 1. Temmuz 2018. - s.16-22.
3. Azərbaycan Respublikasının Konstitusiyası. "Hüquq Yayın Evi", Bakı 2018, 98 s.
4. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu. 3 iyun 1992. // https://e-qanun.az/framework/7090

5. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu. 16 dekabr 2022. "Azərbaycan" qəzeti 12 yanvar 2023-cü il, № 6, s.1.
6.Dövlət qeydiyyatdan keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə təminat verilir // https://www.qanunla.az/dovlet-qeydiyyatdan-kecmis-butun-siyasi-partiyalarin-serbest-fealiyyetine-teminat-verilir/
7.Руководящие принципы правового регулирования деятельности политических партий. Принято Венецианской комиссией на 84-м пленарном заседании (Венеция, 15-16 октября 2010 г.). POLIGRAFUS Jacek Adamiak, Варшава/Страсбург: - 2011 г. - 130 с.
8.Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış siyasi partiyalar haqqında məlumat // https://www.msk.gov.az/uploads/partiyalar/2016/UmumiMelumat.php
9.Асланов Б., Самедзадзе С. Позиция политических партий и движений в Азербайджане по поводу урегулирования НагорноКарабахского конфликта // file:///C:/Users/Samir/Desktop/Siyasi%20h%C9%99yat/%D0%9D%D0%BE%D0%B2%D0%B0%D1%8F%20%D0%BF%D0%B0%D0%BF%D0%BA%D0%B0/Azerbaijan-Parties-RUS.pdf
10. Milli Məclisə seçkilər-2020. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Hesabatı // https://msk.gov.az/az/hesabatlar/1161/

## РЕЗЮМЕ
## ВЛИЯНИЕ МНОГОПАРТИЙНОСТИ НА ПОВЫШЕНИЕ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ АКТИВНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

***Шамилова А.М.***

***Ключевые слова:*** *политический, государство, партия, общество, активность, управления, демократический*

С 15 июня 1993 года и по сегодняшний день для политических партий в Азербайджанской Республике была создана законодательная база для свободной деятельности, обеспечены нормальные условия. Многопартийность характерна и для политической системы Азербайджанской Республики, которая уверенно идет по пути правового демократического общества и государственного строительства и добивается важных успехов. Сегодня в Азербайджане официально зарегистрировано около 60 политических партий и движений. Повышение роли политических партий в общественно-политической жизни является одним из основных направлений развития нашего общества.

## SUMMARY
## INFLUENCE OF THE MULTI-PARTY SYSTEM ON THE INCREASE OF SOCIAL AND POLITICAL ACTIVITY IN THE REPUBLIC OF AZERBAIJAN

***Shamilova A.M.***

***Keywords:*** *political, state, party, society, activity, management, democratic*

From June 15, 1993 to the present day, a legal framework for free activity has been created for political parties in the Republic of Azerbaijan, and normal conditions have been provided. A multi-party system is also characteristic of the political system of the Republic of Azerbaijan, which is confidently following the path of a legal democratic society and state building and is achieving important successes. Today, about 60 political parties and movements are officially registered in Azerbaijan. Increasing the role of political parties in social and political life is one of the main directions in the development of our society.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 17.07.2023 |
| | Son variant | 07.09.2023 |

**UOT 93/94** DOI 10.54758/16801245_2023_19_3_55

# ABŞ-DA PREZİDENT HAKİMİYYƏTİ İNSTİTUTU

**MƏMMƏDOV TURAL XALİD oğlu**
*Bakı Dövlət Universiteti, Azərbaycan, doktorant*
*tural.mammadov-4@bsu.edu.az*

***Açar sözlər**: ABŞ siyasi sistemi, Prezident hakimiyyəti institutunun funksiyaları, D. Tramp, “İmperiya prezidentliyi”, Dünya liderliyi.*

**Giriş**. Amerika Birləşmiş Ştatlarında artıq XX əsrin sonunda prezident hakimiyyəti institunun fəaliyyətində böhran hadisələrinin artması aydın görünürdü. Prezident U. Klintonun 1998 – 1999 -cu illərdə impiçment prosesi, respublikaçı – prezident kiçik C. Buşun hakimiyyətdə olduğu 2001 – 2009 -cu illər və prezident – demokrat B. Obama hakimiyyətdə olduğu 2009 – 2017 -ci illərdə konqresin sərt oppezisiyası ilə qarşılaşaraq məcburən konstitusiya qaydalarını pozaraq, hakimiyyəti prezident sərəncamları ilə idarə edirdi və yenidən Ağ evin üzərində impiçment kölgəsi yaranmışdı. Bu vəziyyət həm ölkə daxili, həm də xarici politoloqları ABŞ prezident hakimiyyəti institutunun fundamental əsaslarını ciddi olaraq yenidən düşünməyə həvəsləndirir, onun reallığa və XXI əsrin çağırışlarına həvəsləndirir.

Bu məsələ ona görə vacib görünür ki, Amerika siyasi sistemi bütövlükdə və xüsusi halda prezident institutu Rusiya da daxil olmaqla dünyanın böyük əksəriyyətində demokratik sistem qurmaq üçün nümunəvi model olaraq qalır. 2018-ci ilin məlumatına görə dünyadakı 195 dövlətdən 150-sində prezident hakimiyyəti institutu fəaliyyət göstərir [1, s.272]. Dünya ölkələrinin əksəriyyətinin, xüsusilə “yeni demokratiya” adlanan ölkələrin prezident hakimiyyəti institutunun daxili və xarici siyasi problemlərin ən effektiv həll formasının qəbul edilməsi ölkələrin mədən-tarixi ənənələrinə çox böyük uyğunsuzluğu simptomuna çevrildi. Burada prezidentlərin cəmiyyətin bütün sosial-ideoloji və siyasi problemləri spektrini effektiv həll etmək bacarığının olmaması, cəmiyyətin daim inkişaf etməsi zərurətinin olmasını təmin edə bilməməsi öz rolunu oynadı. Bu perspektivdə ABŞ-da prezident hakimiyyəti institutunun hüquqi və funksional əsaslarının dərin təhlili prinsipial problemdir, onun spesifik Amerika və universal xarakteristikalarının nisbətinin aydınlaşdırılmasıdır, onun birbaşa digər ölkələrə tətbiq oluna bilməsidir.

Prezident hakimiyyəti institutunun XXI əsrin reallığına və xüsusən qloballaşma prosesinin qanunauyğunluqlarına qeyri-adekvatlığı ABŞ-ın özündə də daha çox müşahidə olunur. Bu gərginliyin ən yüksək nöqtəsi D. Y. Trampın Amerikanın 45-ci prezidenti seçilməsi oldu. 2017-ci ilin yanvarında D. Trampın ABŞ prezidenti vəzifəsinə başlaması və Ağ evin Oval kabinetində sonrakı fəaliyyəti aparıcı Amerika politoloqlarını və analitiklərini ABŞ-da prezident hakimiyyəti institutu mexanizminin sındığına daha tez inandırdı. Amerika Birləşmiş Ştatlarının dünyada öz təsirini artırmaq istəyi həm daxili, həm də xarici krizislərin artma tendensiyasıdır[2].

Amerika politoloqlarını bu nəticəyə gətirən ABŞ-ın 45-ci prezidentinin iri və müvəffəqiyyətli biznesmen olması idi, hansı ki, daha az vaxtda tikinti biznes-imperiyasını qurdu və bir neçə milyard dollar var-dövlət qazandı. İşgüzar və idarə etmə bacarığı olan insanlar gərginliyin təsiri altında qurulmuş biznes imperiyaları bu gün qloballaşma prosesinin mühüm tərkib hissəsi kimi qəbul edilirlər. Amerika cəmiyyətinin bu təbəqəsinin nümayəndələri kimi Amerika maliyyə və iqtisadi elitası icra başçısının vəzifələrini nisbətən daha tez mənimsəməyi bacarmalıdır. Məhz bu mühit çoxalır, müəyyən edilmiş qaydalara və qanunlara müntəzəm riayət etməkdənsə, rasional idarəetmə formalarının axtarışı demək olar ki, tələb olunan insanlardır, hansılar ki, iki əsr yarım

əvvəl onların həyati fəaliyyətinin əsasını təşkil edir. Təxminən iki əsr yarım əvvəl bir insanın şəxsində prezident institutuna ayrılan vəzifə ilə onun bu gün yerinə yetirdiyi məsələlər arasında uyğunsuzluq görünür. Lakin, amerikalı politoloq C. Dikkersonun yazdığı kimi, simptomatik olaraq "problem yoxdursa nə olacaq" başlığı altında yazdığı məqalədə: "heç bir insan 327 milyondan çox Amerika vətəndaşının marağını güdə bilməz, xüsusilə münaqişə tərəfləri, operativ və professional yanaşma tələb edən müasir dünyadakı mürəkkəb quruluşlu daxili və xarici problemləri" [3, s.354].

Bu amil bir sıra problemləri əvvəlcədən müəyyənləşdirir. Ekspertlər bunu daha çox ABŞ-da prezident hakimiyyəti institutunun disfunksionallığının artması kimi xarakterizə etməyə meyillidirlər. Bu, dövlət institutları arasında qarşılıqlı əlaqənin pozulması şəklində özünü göstərir, hansı ki, müasir şəraitdə prezidentin adekvat qərarlar qəbul etmək bacarığını sarsıdır. Prezidentlik institutunun özünün fəaliyyətinin fərdiləşdirilməsi göz qabağındadır, prezident institutunun fəaliyyəti prezidentin şəxsiyyətinin xüsusiyyətləri ilə müəyyənləşəndə dövləti idarə etmənin konstitusiya qaydaları pozulur. Bu proseslər üçün onun fəaliyyət məqsədinin aydın olmaması, funksiyaların qeyri-müəyyənliyi, hərəkətlərin xaotikliyi, dövlət rəhbərinin nüfuzunun və prestijinin enməsi, prezident postunun dezakralizasiyası xarakterikdir. Bu siyasi sistemin fəaliyyəti üçün destruktiv nəticəsi olan neqativ siyasi proseslər seriyası ilə müşayiət olunur, hansını ki, bu gün ABŞ-da müşahidə edirik, politoloqlar isə çox tez-tez hakimiyyətin prezident institutunun fəaliyyətində krizis tendensiyasının artmasını qeyd edirlər.

Prezidentlik institutunda krizis hadisələri Amerika prezidentinin formal və qeyri-formal səlahiyyətlərini daha diqqətlə, ehtiyatlı və hərtərəfli analiz etməyə məcbur edir, çünki prezidentin üstünlük hüququnu hər bir yeni dövlət başçısının istədiyi kimi təqdim etməsi, onun məqsəd və vəzifələri, funskiyaların konstitusiya ilə müəyyənləşmiş çərçivədən yuxarı qaldırması əsrlərlə yaranmış sistemi sarsıdır, hansı ki, bu sistem ABŞ-ın siyasi sisteminin təməl daşıdır.

**ABŞ Prezidentinin rolunun və funksiyalarının birləşməsi.** Amerika Birləşmiş Ştatlarının konstitusiyasına görə, Amerika prezidenti ölkənin seçilmiş yüksək vəzifəli şəxsdir, dövlətin rəhbəridir. Bununla belə o, eyni zamanda hökumət başçısı rolunu yerinə yetirir. Bu vəzifədə o nazirliklərin və şöbələrin rəhbərləri vəzifələrinə namizədləri irəli sürür, hansı ki, bu vəzifələr ABŞ senatı tərəfindən təsdiqlənir. Həmçinin prezident onları tutduqları vəzifədən uzaqlaşdırır və ya vəzifədən azad edir. Prezidentin konstitusiya səlahiyyətlərinə baş icraçı funksiyası ali icra hakimiyyətinin direktoru və ya ali idarəedici funksiyası daxildir və o qəbul olunmuş federal qanunlara ciddi əməl olunmasına və yerinə yetirilməsinə nəzarət etməlidir.

ABŞ konstitusiyası həmçinin prezidentə ABŞ silahlı qüvvələrinin mülki Ali Baş Komandanının səlahiyyətlərini verir. Nəhayət, ABŞ prezidenti Amerikanın ali diplomatik nümayəndəsidir və ya ali Amerika diplomatıdır. Bu rolda o ABŞ-ı xarici dünyada təmsil edir və milli təhlükəsizliyi təmin etməyə və öz ölkəsinin iqtisadi marağını qoruyaraq saxlamağa borcludur. Baxmayaraq ki, Konstitusiyaya görə xarici siyasi funksiyalar prezident və Konqres arasında bölünmüşdür. Xarici siyasət sferasında prezidentin imkanları ABŞ konqresinin imkanları ilə heç cür müqayisə olunmur.

Nəhayət, prezident ölkənin "Baş qanunvericisidir", Konqres qarşısında "Millətin vəziyyəti haqda" çıxış edərək və yeni federal qanunların qəbul olunması ilə qanunvericilərin rekomendasiyalarına tövsiyyələr verə bilir.

ABŞ-da prezidentlik institunun rollarının və funksiyalarının fundamental problemi onların miqdarında deyil, tarixi təkamülündədir. Bu planda unutmaq olmaz ki, ABŞ-da prezident hakimiyyəti institutu XVIII əsrin sonunda yaradılmışdır. Amerika Birləşmiş Ştatları dövlət başçısının və hökumət başçısının bir şəxsdə birləşdiyi dünyada birinci ölkədir.

Bundan başqa məhz Amerika Birləşmiş Ştatlarında prezidentlik institutu siyasi sistemin konstruktiv elementlərinin ən vaciblərindən biri kimi zaman keçdikcə bütün dünyaya yayıldı. Bununla əlaqədar olaraq qeyd etmək olar ki, XX əsrin başlanğıcına qədər prezident hakimiyyəti institutu Amerikadaxili problemlərin həllinə istiqamətlənmişdi, çünki xarici siyasət məsələləri

ənənəvi olaraq Ağ evin maraqlarının periferiyasında dururdu, bunun səbəbi isə ictimai şüurda və Amerika izoliyasiyaçılıq fəlsəfəsinin hüquqi dairələrinin idealogiyasında və ictimai şüurunda hökmranlığının nəticəsi idi. Uyğun olaraq, prezident olmağı bacarmış Amerika siyasətçilərinin fəaliyyətlərinin effektivliyi əsasən onların qabiliyyətləri nöqteyi-nəzərdən siyasi düyünləri açmaq və onlara reaksiya vermək qabiliyyətindən və Amerika cəmiyyəti qarşısında duran sosial-iqtisadi problemləri həll etməkdən qiymətləndirilmişdir.

Amerika tədqiqatçıları göstərirlər ki, XVII – XIX əsrlərdə Amerika prezidentlərinin fəaliyyətinin tarixi qiyməti məşhur Amerika tarixçisi J. Şlezinqerin təsiri altında formalaşmışdı, hansı ki, müasir Amerika nəslinin, politoloqların və tarixçilərin dünyagörüşü qiymətləndirmələri aparılmasının əsasını qoymuşdur.

ABŞ-da prezident hakimiyyəti institutunun rolları və funksiyaları ilə bağlı vəziyyət XIX və XX əsrlərin hüdudunda dinamik olaraq dəyişdi. Bu dəyişiklik birbaşa olaraq ABŞ-ın siyasi və idealoji gücünün, iqtisadiyyatının güclənməsi ilə birbaşa bağlı olduğu görünürdü, hansı ki, XX əsrin ortalarına Amerikanın tədricən qlobal super güc olmasını təqdir etdi. Artıq həmin dövrdə o zamanın ən məşhur tarixçilərindən və politoloqlarından biri, Amerika Birləşmiş Ştatları hakimiyyətinin prezident institutunun öyrənilməsində ixtisaslaşmış K. Rossiter (1917–1970) “Amerika prezidentliyi” adlanan öz klassik işində birbaşa göstərdi ki, II Dünya müharibəsi qurtardıqdan sonra “Bütün prezident hakimiyyəti institutu funksiyaları arasında I yerə əminliklə baş diplomat rolu çıxdı”, hansı ki, çox sürətlə həm elmi ədəbiyyatda, həm də Amerika ictimai şüurunda dünya liderinin roluna transformasiya olundu [4, s.173].

Bu rolda Amerika prezidenti başqa şeylərlə yanaşı, dünyanın demək olar ki, bütün ölkələri və regionları ilə qohumluq əlaqələri və ortaq kökləri olan immiqrantlar, Amerika etnik azlıqları və diasporlarından ibarət bir xalqın nümayəndəsi kimi çıxış edir və buna görə də Amerika prezidenti təkcə bütün dünyada insan hüquqlarını qorumağa deyil, həm də demokratik cəmiyyətin prinsip və ideyalarını təbliğ etməyə borcludur. Bu rolun konkret həyata keçirilməsi 1977-ci ildən başlayaraq dünyanın demək olar ki, hər bir ölkəsində insan hüquqlarının vəziyyəti haqqında illik hesabatlar dərc edən və eyni zamanda, ABŞ-ın xarici işlər orqanlarının əsasən də Dövlət Deportamentinin fəaliyyətidir. Üstəlik ABŞ Dövlət Deportamentinin rəsmi sənədlərində qeyd olunur ki, bütün dünyada insan hüquqlarının müdafiəsi bilavasitə 200 ildən çox əvvəl ABŞ-ın yaradılması zamanı qoyulmuş “təməl daşı”na əsaslanır. O vaxtdan bəri ABŞ-ın xarici siyasətinin əsas məqsədi insan hüquqlarına hörmət prinsiplərinin 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş insan hüquqları haqqında Ümumi Bəyannamədə təcəssüm olunduğu formada təsdiq etmək olmuşdur. Öz növbəsində, insan hüquqlarının müdafiəsi və cəmiyyətin demokratik quruluşu prinsipinin “Amerika siması və bənzəri”ndə təbliği təkcə dini azadlıqlar və fərdi hüquqlar kimi fundamental Amerika dəyərlərinin təsdiqinin formasıdır, həm də Birləşmiş Ştatların öz milli maraqlarını irəli sürə biləcəyi daha təhlükəsiz, sabit və firavan qlobal dünya nizamının formalaşmasıdır. Bundan əlavə, sənəddə qeyd olunur ki, demokratiya xarici siyasətin məqsədlərinə qarşı hər şeyə nail olmağa kömək edən milli maraq formasıdır. Demokratik ölkələr sülh şəraitində yaşamağa, təcavüzü dəf etməyə, azad bazarları genişləndirməyə, iqtisadi inkişafı stimullaşdırmağa, müdafiəni təmin etməyə daha çox meyillidirlər. Amerika vətəndaşlarının beynəlxalq terrorizmə və cinayətə qarşı mübarizə, insan və əmək hüquqlarının müdafiəsinin təmin edilməsi, humanitar fəlakətlərin qarşısının alınması, qaçqın axınının qarşısının alınması, qlobal ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması və əhalinin sağlamlığının qorunmasının təmin edilməsi demokratik ölkələr üçün xas xüsusiyyətlərdir.

Yuxarıda qeyd edilənlərin ABŞ Prezidentinin dünya lideri kimi məsuliyyətlərini xarakterizə etdiyini və təsvir etdiyini başa düşmək vacibdir, çünki ABŞ Dövlət Departamentinin siyasət direktivində daha sonra qeyd olunur ki, Birləşmiş Ştatlar bütün dünyanı qorumaq və planları həyata keçirmək üçün geniş imkanlara malikdir, ikitərəfli diplomatiya, çoxtərəfli əməkdaşlıq, iqtisadi və hərbi yardım, mediadan istifadə və dünya ictimaiyyətinə müraciətlər, habelə iqtisadi sanksiyalar da

daxil olmaqla dünyada azadlıq prinsiplərini müəyyən etsin. Lakin bu xarici siyasət alətlərindən istifadə etmək səlahiyyəti son nəticədə baş və ikinci dərəcəli güc kimi ABŞ prezidentinin əlində cəmləşib.

Beləliklə, ABŞ Prezidentinin ən azı qeyri-rəsmi şəkildə "dünyanın prezidenti" kimi göründüyünü söyləmək mübaliğə olmaz. Dünyanın heç bir başqa ölkəsinin prezidenti və ya dövlət başçısı bu rolu oynamır. Üstəlik, amerikalı politoloqların qeyd etdikləri kimi, dünya lideri rolunda ABŞ Prezidenti ABŞ Konstitutusiyasının və onun əsasında qəbul edilmiş qanunvericilik aktlarının ona tətbiq etdiyi "nəzarət və tarazlıq" sisteminin böyük bir hissəsindən azaddır.

XIX – XX əsrin başlanğıcından bəri "Amerika müstəsnalığı" anlayışının prezident hakimiyyəti institutunun xarici siyasət rolunun ən mühüm hissəsinə çevrildiyini başa düşmək də əsaslı şəkildə vacibdir. ABŞ Prezidenti çox vaxt ölkənin əsas müstəsna şəxsiyyəti rolunu oynayır. Məhz buna görə də XIX – XX əsrin əvvəlindən ABŞ-ın siyası, hərbi-iqtisadi və ideoloji rolunun güclənməsi U. Makkinli və T. Ruzveltdən başlayaraq, demək olar ki, hər bir Amerika Prezidentinin belə bir fakta çevrilməsinə səbəb oldu. B. Obama və D. Tramp müxtəlif tipli messian idealarını etiraf edirdilər.

**ABŞ Prezident hakimiyyəti institutunda disfunksionallıq.** Beləliklə, ölkə prezidenti seçilmək barədə ciddi düşünən və ya ABŞ Prezidenti vəzifəsində çalışdığı ilk günlərdən prezident seçilən hər bir amerikalı siyasətçi özünü bir növ qədim Amerika ənənəsinin məngənəsində tapır. Bir tərəfdən o, bir sıra "böyük Amerika prezidentləri" ilə üzləşir ki, onlar onun Birləşmiş Ştatların Prezidenti kimi fəaliyyətini qiymətləndirmək üçün standart qoyur. Digər tərəfdən isə, tərifinə görə, dünya lideri rolu, ondan görünən "məsih keyfiyyətləri" göstərməyi tələb edir. İstər tarixi, istərsə də hazırki siyasi proseslərin bu cür təzyiqlərinə hər bir siyasətçi, hətta çox istedadlı biri də tab gətirə bilmir və əgər söhbət nisbətən təcrübəsiz siyasətçilərdən gedirsə, bu "bayrağın" ümumi nəticəsi "qırılmış prezidentlik" fenomenidir, D. Trampın hakimiyyətdə olduğu illərdə açıq şəkildə başlayan prezidentlikdir.

Bununla belə Birləşmiş Ştatlarda müasir prezident hakimiyyəti institutunun bəxş etdiyi böyük imkanlara baxmayaraq zəmanəmizin prezidentləri nadir hallarda istənilən nəticələrə nail olurlar, çünki onların mövqeləri böyük psixoloji və fiziki gərginliklə bağlıdır. ABŞ Prezidentinin belə bütün üstünlüklərinə baxmayaraq bunun öhdəsindən gələ bilmir. C. Surinin qeyd etdiyi kimi, "onlar ölkəni düzgün istiqamətə yönəltməyə çalışmaqdansa, öz səlahiyyətləri müddətində istər-istəməz yaranan böhranları həll etməklə daha çox məşğuldurlar" [2, s.290].

ABŞ-da hər biri iki müddət ardıcıl olaraq prezidentlik etmiş U. Klinton, C. Buş – kiçik və B. Obamanın prezidentliklərinə retrospektiv nəzər salsaq, baxmayaraq ki onların prezidentlikləri uğurlu prezidentlik kimi hesab edilsə də lakin onların prezidentlik dövrü bir növ daxili siyasi və maliyyə iqtisadi böhranlar ilə yadda qalmışdır. Prezidentin ardıcıl, bəzən isə eyni vaxtda baş verən beynəlxalq, daxili siyasi və iqtisadi böhranların idarəedicisi və hakimi rolu amili ABŞ-da prezident hakimiyyəti institutunun artan disfunksiyasının ən mühüm səbəblərindən biridir, çünki, hüquqi nöqteyi-nəzərdən o, əvvəlcə "ictimai işlərin nizam-intizamlı aparılmasına" yönəlmiş bir dövlət orqanı kimi düşünülmüşdür. C. Surinin bu xüsusda vurğuladığı kimi "prezidentlərin böhran vəziyyətlərinə sərf etdikləri vaxt və resurslar onların siyasi kapitalını boşaldır və diqqəti ABŞ-ın üzləşdiyi fundamental problemlərdən yayındırır. Buna görə də prezidentlər çox vaxt uzunmüddətli fəaliyyət planlarına nəzarəti itirirlər, çünki onlar güclərini böyük problemlərin həllinə cəmləmək əvəzinə kiçik problemlərə sərf edirlər" [2, s.297].

D.Trampın prezidentliyi xüsusilə indi prezidentin özünün fəal iştirak etdiyi böhranlarla əlamətdar oldu. Dünyanın aparıcı iqtisadi güc mərkəzləri (Avropa İttifaqı, Çin) ilə ticarət müharibələri, yaxın müttəfiqlərlə (Kanada, Meksika, Yaponiya, Cənubi. Koreya) ticarət-iqtisadi əlaqələrin kəskinləşməsi; Koreya yarımadası, İran ətrafında ciddi xarici siyasət böhranlarının yaranması və Venesuela, Rusiya ilə, NATO müttəfiqləri ilə, əsasən Almaniya ilə, "Şimal axını – 2" qaz kəmərinin və bir sıra digər kiçik qaz kəmərlərinin tikintisi səbəbindən kəskin şəkildə pisləşdi ki,

bu da Donald Trampın prezidentliyinin lap əvvəlində Amerikalı müşahidəçilərə onun xarici siyasətinə diaqnoz qoymaq üçün səbəb oldu: "Tramp bütün dünyaya qarşı. Dünyanın ən qüdrətli ölkəsi heç kimə lazım olmadığına qərar verəndə nə baş verir?" [2, s.304]

ABŞ-da prezident hakimiyyəti sistemində artan böhran hadisələrinin tədqiqini yekunlaşdıraraq bir neçə məqamı qeyd etmək olar. Birincisi, prezident hakimiyyəti institutunun qeyri-funksionallığı ABŞ-da Birləşmiş Ştatlar prezidentin konstitusiya və digər hüquqi aktlarla müəyyən edilmiş funksiyaları və rolları düzgün yerinə yetirməməsi kimi müəyyən edilə bilər ki, bu da ilk növbədə dövlət başçısının digər vəzifələrini lazımi şəkildə yerinə yetirməsinə mane olur. İkincisi, mövcud qanunvericiliyə əməl edilməməsi ilə özünü göstərir. Üçüncüsü, son nəticədə konstitusiyada təsbit olunmuş üç hakimiyyət qolunun səlahiyyət bölgüsü prinsipinin pozulmasına gətirib çıxarır ki, bu da onun çərçivəsində icra hakimiyyətinin hakimiyyət qolu olan qanunvericilik orqanının, bəzi hallarda isə məhkəmə orqanlarının funksiyalarını özü üzərinə götürür.

**Nəticə.** Prezident hakimiyyəti institutunun artan disfunksionallığı uzunmüddətli perspektivdə sosial quruluşun demokratik prinsiplərinin zəifləməsinə və cəmiyyətin avtoritar və hətta diktator idarəçilik formalarının bərqərar olmasına gətirib çıxarır. Nəticədə dövlətin və onun orqanlarının, eləcə də bütövlükdə siyasi sistemin fəaliyyətinin səmərəliliyi kəskin şəkildə aşağı düşür ki, bu da cəmiyyətin mütərəqqi inkişafında meydana çıxan problemlərə vaxtında və adekvat cavab vermək iqtidarında deyil. Öz növbəsində, siyasi sistemin fəaliyyətinin səmərəsizliyi cəmiyyətin sosial-iqtisadi sistemlərinin sabitliyinin pozulması ehtimalını artırır ki, bu da cəmiyyətdə sosial gərginliyin kəskin şəkildə kəskinləşməsinə, kütləvi ixtişaşların və ictimai yerlərdə digər neqativ halların yaranmasına səbəb ola bilər.

## ƏDƏBİYYAT


1. Травкина Н. М. Институт президентской власти в США: в поисках модели современной идентичности // Политическая наука. – 2019. – № 4. – С. 262-283.
2. Suri J. The Impossible Presidency. The RISE and FALL of America's Highest Office. – N. Y.: Basic Books, 2017. – 343 p.
3. Dickerson J. The Hardest Job in the World. – 2020. – June. – 656 p.
4. Rossiter C. The American Presidency. – Second edition. – N. Y. Harcourt, Brace, & World, 1960. – 266 p.


## РЕЗЮМЕ
## ИНСТИТУТ ПРЕЗИДЕНТСКОЙ ВЛАСТИ В США

***Мамедов. Т. Х.***

***Ключевые слова**: американская политическая система; Функции института президентской власти; Д. Трамп; "Императорская президентура"; Мировое лидерство.*


В статье обсуждаются растущие проблемы в институте президентства США в начале 21 века. Выделены два ключевых фактора, формирующих деятельность президента: историческую традицию "Великих" американских президентов и расширяющуюся роль президента США как глобального лидера, представляющего Западный мир. Это увеличение ответственности усложняет оценку эффективности президента.

В результате дисфункциональность в институте президентской власти усилилась в различных администрациях, что делает сложным решение внутренних и внешних проблем, особенно в глобализированном контексте. Это привело к увеличению явления "имперской президентуры", отклоняющейся от конституционной структуры президентства

**SUMMARY**
**INSTITUTE OF PRESIDENTIAL POWER IN THE UNITED STATES**
***Mammadov T.X.***

***Key words**: U.S. political system; Functions of the Presidential authority institution; D. Trump; "Imperial Presidency"; World leadership.*

The article discusses growing issues within the U.S. presidential institution during the early 21st century. It highlights two key factors shaping presidential activities: the historical tradition of "Great" American presidents and the expanding role of the U.S. president as a global leader representing the Western world. This increased responsibility complicates the assessment of presidential effectiveness.

Consequently, dysfunctionality within the presidential authority institution has risen across various administrations, making it challenging to address complex domestic and foreign issues, particularly in a globalized context. This has led to the prominence of the "imperial presidency" phenomenon, deviating from the constitutional framework for the presidency.

.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 03.03.2023 |
| | Son variant | 18.05.2023 |

UOT 93/94 DOI 10.54758/16801245_2023_19_3_62

# MÜSTƏGİLLİK DÖVRÜNDƏ SUMQAYIT ŞƏHƏRİNDƏ SOSİAL PROBLEMLƏRİN HƏLLİ (1993-2003-cü illər)

**İBRAHİMLİ MEHİN BAYRAM qızı**
*Sumqayıt Dövlət Universiteti, Azərbaycan, doktorant*
mehin.m.96@mail.ru

***Açar sözlər:*** *Sumqayıt, sosial problemlər, iş yerləri, sənaye müəssələri, sosial təminat, xidmət sahələri*

Heydər Əliyevin 1993-cı ildə hakimiyyətə qayıdışı ilə digər sahələrdə olduğu kimi, Sumqayıt da özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndər sovet illərində olduğu kimi, müstəqil Azərbaycana rəhbərliyi dövründə də Sumqayıta diqqət və qayğısını əsirgəmədi. [6]

Azərbaycan Respublikasının iqtisadi inkişafında regionların rolunun artırılması və regionların iqtisadi inkişafının təmin edilməsinin əsas prinsipləri və istiqamətləri bu faktorlarla səciyyələnir: social problemlərin həllində əhalinin iştirakının təmin olunmasına şraitin və stimulun yaradılması; mövcud istehsal sahələrinin bərpası, inkişafı və yeni texnologiyalara əsaslanmış müəssisələrin yaradılması; regionlarda olan təbii və nineral ehtiyatlardan, xammal mənbələrindən səmərəli istifadənin təşkili; yeni iş yerlərinin yaradılması hesabına əhalinin əmək qabilliyyətli hissəsinin, xüsusilə də gənclərin işlə təmin olunması; potensial investorların və iş adamalarının regionlara cəlb olunmasının sürətləndirilməsi; əhalnin sahibkarlığz meylli hissəsinin regionlarda mini zavodların, emal müəssisələrinin yaradılmasına həvəsləndirilməsi, bu məqsədlə infrastruktur obyektlərinin, maddi texniki bazaların yaradılması, kredit, maliyyə resruslarının ayrılması, vergi güzəştlərinin tətbiqi və s. [8, s.98-108]

Müstəqillik illərində Heydər Əliyev bir neçə dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bu, Ulu Öndərin Sumqayıta və sumqayıtlılara xüsusi diqqətinin təzahürü idi. Bu səfərlər zamanı Ulu Öndərin verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermişdi. [6]

Ümummilli Liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətləndi. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda öz müsbət nəticəsini göstərməyə başladı. [5]

Ümummilli Liderin şəhərlə bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, Sumqayıt yenidən ənənəvi sənaye kompleksi kimi bərpa edilsin, yerli kadr potensialına söykənərək müasir müəssisələr açılsın. [5]

Sosial problemlərin həlli istiqamətində bir sıra tədbirlər həyata keçirildi. Uşaqlı ailələrə müavinətlərin təyini və verilməsi haqqında təlimata tez-tez əlavə və dəyişikliklər edilir. Bu hər şeydən əvvəl hazırki iqtisadi böhran və sosial vəziyyətlə bağlıdır. [18, s.1]

Sumqayıt şəhər Xalq Deputatları Soveti Rəyasət heyətinin növbəti iclası keçirilmişdir. İclasda şəhid ailələrinin sosial müdafiəsi işində mövcud olan problemlər və nöqsanlarda göstərilmişdir. Qeyd olunmuşdur ki, şəhid ailələri ilə sıx əlaqələrin saxlanılması onların valideynlərinin, uşaqlarının hərtəfəli qayğı ilə əhatə olunması işində sistemli fəaliyyət yoxdur. Vaxtilə işlədikləri müəssisə və təşkilatların rəhbərləri onların ailələri ilə əlaqəni lazimi səviyyədə qura bilmirlər. Bu isə şəhid ailələrinin haqlı narazılığına səbəb olur. 74 şəhid ailəsinin mənzil

şəraitinin yaxşılaşdırılması tələb olunur. Şəhid ailələrinin mənzillərin telefonlaşdırılmasında da problemlər mövcuddur. Şəhidlərin xatirə lövhələrinin hazırlanması və vurulması işidə olduqca ləng həyata keçirilir. [17, s.1]

Keçmiş İttifaq Respublikaları ilə əlaqələrin pozulması, davam edən iqtisadi blokada Sumqayıtın sənaye müəssələrinin işinə ağır zərbə vurmuşdur. Təkcə son dörd ildə müəssisələrdə istehsal olunan əsas məhsulların həcmi, o cümlədən polad boru 20 dəfə, ilkin aliminium 3,9 dəfə, kauçuk və lateks 27 dəfə, sulfanor 22 dəfə, yuyucu vasitələr 12 dəfə azalmışdır. 1994-cü ilin 11 ayı ərzində müqayisəli qiymətlərlə sənaye məhsulu istehsalı əvvəlki illə müqayisədə 38 faiz aşağı düşmüşdür. [16, s.1]

1994-cü ildə bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq şəhər iqtisadiyyatının müxtəlif sahələri xammal və material təchizatının aşağı səviyyədə olduğu qiymətlərin durmadan artdığı bir şəraitdə işləmiş, nəticə də məhsul istehsalı azalmışdır. Sənaye məhsulu istehsalının həcmi müqayisəli qiymətlərlə 21,3 mlrd. manat təşkil etmiş, əvvəlki ilin eyni dövrü ilə müqayisəıdə 34,5% və ya 11,3 mlrd. manat azalmışdır. Dekabr ayında həmin qiymələrlə 1,3 mlrd manatlıq sənaye məshulu istehsal olunmuşdur ki, buda əvvəlki ilin eyni ayına nisbətən 64,7 % azdır. 1994-cü ildə qüvvədə olan faktiki qiymətlərlə istehsalın həcmi 107,5 mlrd. manat təşkil etmişdir ki, buda ötən ilin eyni dövrü ilə müqayisədə 5,3 dəfə çoxdur. Dekabr ayında 26,3 mlrd. manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Bu ötən ilin dekabr ayında nisbətən 3,1 dəfə çoxdur. [1, s.3]

Sumqayıt şəhərinin müəssisə, təşkilat və idarələrində əhaliyə göstərilən xidmətin həcmi faktiki qiymətlərə 1,6 mlrd manat təşkil etmiş, keçən ilin eyni dövrü ilə müqayisədə 12,5 dəfə və yaxud 1,5 mlrd manat artmışdır. Pullu xidmət həcminin əsasını pullu xidmət təşkil edir. Əhaliyə 135,7 mln.manatlıq məişət xidməti gösətrilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,5 dəfə, 213,3 mln. manat çoxdur. Əhaliyə göstərilən məişət xidmətinin artmasına baxmayaraq ümumi xidmətin həcmində onun xüsusi çəkisi 14,8 % təşkil etmişdir. Pullu xidmətin və digər xidmət növlərinin artım həcminin yüksək olması xidmət tariflərinin və qiymətlərinin kəskin dərəcə də qalxması ilə bağlıdır. [1, s.3]

Respublika Nazirlər Kabineti, Azərbaycan Respublikası Ali sovetinin 1991-ci il 6 noyabr qərarına uyğun olaraq Ermənistandan qovularkən həlak və əlil olmuş qaçqın ailələri evi və əmlakı məhv edilmiş, daimi yaşayış yerindən iki və daha çox qovulmuş ailələr 1992-1995-ci illərdə bütün vergilərdən və komunal xidmət haqlarını ödəməkdən azad edilmişlər. Bundan əlavə Azərbaycan Respublikası Milli Məclisi qaçqın və məcburi köçkünlərə vergi güzəştləri edilməsi barədə 17 fevral 1993-cü il tarixdə qərar qəbul etmişdir. Həmin qərar əsasən qaçqın və köçkün statusu alan şəxslər 1993-1995-ci illərdə qazanclar üzrə vergi verməkdən azad edilmişlər. [4, s.2]

Əmək və Məşğulluq Mərkəzinə 1994-cü ildə işlə bağlı müraciət etmiş 1312 nəfərdən 1218 nəfəri sənət və peşəsinə uyğun olaraq işlə təmin edilmiş, 45 nəfərə mərkəzin vəsaiti hesabına yeni peşə öyrədilmiş, 52 nəfərə isə işsizlik statusu verilməklə müavinət ödənilmişdir. Peşə yönümünə 1 milyon manat və işsizlik müavinəti üçün 580 min manat vəsait xərclənmişdir. Məşğulluq Mərkəzinin təklifinə əsasən hər il Şəhər İcra Hakimiyyəti Başçısının sərəncamı ilə idarə və müəssisələrdə güzəştli iş yerləri yaradılır və sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların müəyyən qismi işlə təmin edilir. Ötən ildə işlə təmin olunanlardan 540 nəfəri güzəştli iş yerlərinə düzələnlərdir. Erməni təcavüzü ilə bağlı Sumqayıtda məskunlaşan əhalinin işlə təmin olunması il bağlı məqsədyönlü iş həyata keçirilir. 1994-cü il ərzində Mərkəzin köməyi ilə 568 nəfər məcburi köçkün işlə təmin edilmiş, 34 nəfər mərkəzin vəsaiti hesabına peşə yönümünə göndərilmiş, 31 nəfərə isə işsizlik statusu verilməklə müavinət ödənilmişdir. [13, s.3] 1995-ci ilin yanvar-mart aylarında Sumqayıtda müqayisəli qiymətlərlə istehsal olunan sənaye məhsulunun həcmi 76,1 mlrd manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 73,6 % olmuşdur. Bu müqayisəli qiymətlə ümumi məhsul istehsalının 26,4 % azaldığını göstərir. İlin əvvəlində müqayisəli qiymətlərlə məhsul istehsalını eyni dövrlə müqayisə etdikdə məlum olur ki, bəzi sənaye müəssisələri istisna olmaqla əksər müəssisələrdə istehsal səviyyəsi aşağı düşmüşdür.

Azərbaycan Respnlikasının Prezdienti Heydər Əliyevin imzaladığı 2 may 1995-ci il Fərmanında müharibə və əmək veteranlarına qayğı sayəsində işi daha da yaxşılaşdırılması, onların sosial ehtiyaclarının ödənilməisi ilə bağlı qarşıda duran vəzifələr konkret müəyyən olunmuşdur. Müharibə və əmək veteranlarına qayğı göstərilməsi məsələsi digər hökumət sənədlərində də öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, veteranlara qayğı ilə bağlı Respublika Prezidentinin imzaladığı qanun və Fərmanda, habelə digər hökümət aktlarında qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması istiqamətində müəyyən işlər görülmüşdür. Lakin Şəhər veteranlar təşkilatı, habelə yaşılı nəslin ayrı-ayrı nümayəndələri tərəfindən Şəhər İcra Hakimiyyətinə daxil olan məlumatlar göstərir ki, bu sahədə nöqsanlara yol verilir. [20, s.1] 1995-ci ilin oktyabrında Sumayıtda 8093 nəfər müxtəlif qrupdan olan əlil, 1065 nəfər ahıl və kimsəsiz vətəndaş şəhər ailəsinin sosial müdafiəsi mərkəzində qeydiyyatda olmuşdur. Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə əlil olmuş 296 nəfər Sumqayıtlı qeydiyyata alınaraq onlara müvafiq pensiyalar təyin olunmuşdur. Onlardan 219 nəfərə yerli büdcə hesabına 571 min manat məbləğində kompensasiya ödənilmişdir. Çernobel qəzasının ləğvində iştirak etmiş və zərər çəkmiş şəhər sakinlərinin statusu müəyyənləşdirilmiş, onlara Respublika büdcəsi hesabına 10 milyon 596 min manat pul kompensasiyası verilmişdir. Ahıl və tənha vətəndaşlara, əlillərə nəqliyyat xidməti, tibbi dərman ləvazimatı ilə təchiz olunması ilə bağlı qarşıya qoyulan tədbirlərdə əsasən yerinə yetirilmişdir. 855 nəfər xüsusi qrup əlilə 50%-lik güzəştlik istifadə üçün vəsiqə verilmişdir. 73 nəfər əlil mühafizə məqsədilə 870 min manat pul vəsaiti almış, 71 nəfərin sanatoriyaya göndərilməsi təmin edilmişdir. [15, s.2]

1995-ci ilin 9 ayında başqa sahələr kimi xidmət sahələrində də geriliyə yol verilmişdir. Şəhərin müəssisə, təşilat və idarələrində əhaliyə göstərilən xidmətin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 10,9 dəfə artıq olmuşdur. Xidmətin həcminin belə yüksək olması yalnız faktiki qiymətlərin qalxması ilə əlaqədardır. Əhaliyə göstərilən xidmət sahəsində sərnişin nəqliyyatı mühüm yer tutur. Cari ilin 9 ayında nəqliyyat xərclərinin qalxması ilə əlaqədar olaraq sərnişin nəqliyyatı 4,2 mln. manat olmuşdur ki, bu da ümumi xidmət sahəsinin 54,7 %-ni təşkil edir. Əhaliyə 716 min manatlıq rabitə xidməti göstərilmişdir. [14, s.1]

Şəhərin müəssisə, idarə və təşkilatları tərəfindən əhaliyə göstərilən pullu xidmətin həcmi faktiki qiymətlə 5,5 mlrd. manat təşkil etmişdir. Bu keçən ilin müvafiq dövrünə nisbətə 28,6 % və ya 1,2 mlrd. manat çoxdur. Qiymətlərin müəyyən dərəcədə artması, xidmətin həcminin çoxalmasına da təsir göstərmişdir. Hesabat dövründə əhaliyə 123 mln. manatlıq məişət xidməti göstərilmişdi. Əhaliyə göstərilən nəqliyyat xidməti 2,2 mlrd. manat olmuşdur ki, bu ötən ilin eyni dövrü ilə müqayisədə 14,5 % çoxdur. [12, s.3]

Sumqayıt Şəhər İcra Hakimiyyəti Başçısının 7 iyun 1999-cu ild imzaladığı 367 saylı sərəncamda göstərilir: vətəndaşların istifadəsində olan bağ evlərinin qeydiyyata alınması barədə mövcud qanunverciliyi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Vətəndaşların Əmlak Vergisinə cəlb olunması barədə 16 mart 1999-ci il 58 saylı qərarını Azərbaycan Respublikası Mənzil Komunal Təsərrüfatı Komitəsinin 19 mart 1999-cu il 01/02-12 saylı müraciətini nəzərə alaraq qərar alıram: Bağ icarədarlarının, baş tikinti kooperativləri üzvlərinin istifadələrindəki (icarələrindəki) bağ sahələrindən mövcud bağ evləri və tikililəri onların arzuları ilə qeydiyyata alınsın. [10, s.1]

1999 cu ilin 9 ay ərzində şəhər üzrə hesabat təqdim edən müəssisələrin yarmarkaların, mağazaların, bazarların, apteklərin, ticarətlə məşğul olan kiçik müəssisələrin göstəricilərinə əsas əmtəə dövriyyəsi 15,5 mlrd manat təşkil etmişdir. O cümlədən ictimai iaşə üzrə pərakəndə əmtəə dövriyyəsi 2,6 mlrd manat olmuşdur. Topdansatış əmtəə dövriyyəsi 16,5 mlrd. manat, hesabat dövrünü sonuna ticarət təşkilatlarında əmtəə qalığı isə 8,5 mlrd manat təşkil etmişdir. Əhaliyə göstərilən pullu xidmətin həcmi 30 mlrd manat, o cümlədən məişət xidməti 636,9 mln. manat təşkil etmişdir. Sosial obyektlərin fəaliyyəti hesabat dövründə 3,2 mlrd manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrünə nisbətdə isə 17,7 % azalmışdır. 1999-cu ilin 9 ayı ərzində sosial obyektlər

tərəfindən əhaliyə göstərilən pullu xidmətlərin həcmi 1,5 mlrd manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən 0,3 % az xidmət göstərilmişdir. [2, s.4]

Sumqayıt Şəhər İcra Hakimiyyətinin birinci müavini Nəbi Nəbiyev Sumqayıt şəhərində məskunlaşmış qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həll sahəsində "Sumqayıda görülən işlər haqqında" məruzə etmişdir.

Məruzəçi Sumqayıtda məskunlaşan 62 min nəfər qədər soydaşımızın sosial ehtiyaclarının ödənilməsi istiqamətində görülən işlər barədə məlumat vermiş, idarə və təşkilatların təhsil və səhiyyə şöbələrinin, şəhər təsərrüfatına daxil olan kollektivlərin, Sumqayıtda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərin ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həll olunması, tibbi xidmət səviyyəsinin yüksəldilməsi, uşaqların təhsilinə qayğının artırılması istiqamətində görülən işləri qeyd etmiş, qarşıda duran vəzifələrdən danışmışdır. [9, s.1]

Əhaliyə ödənilən bir sıra sosial müavinətlərin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Azərbaycan Respublikası vətəndaşlarına dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini genişləndirmək məqsədilə qərara alınmışdır: 1. Uşağın anadan olmasına görə bir dəfəlik müavinətin məbləği 150 min manat müəyyən edilsin. 2. Pensiyaçılara dəfn üçün ödənilən müavinətin məbləği vətəndaşların Pensiya təminatı haqqında Azərbaycan Respublikasının qanunu ilə müqəyyən edilən aylıq pensiya məbləğinin 3 misli miqdarında (300 min manatdan az olmamaqla) müəyyən edilsin. 3. Əlil olmuş və digər kateqoriyalardan olan bir qrup vətəndaşlara dövlət yardımının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 19 dekabr tarixli 579 nömrəli sərəncamının 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin. [7]

2001-ci il ərzində şəhərin tikinti sahəsində geriləmə halları davam etmişdir. Bütün maliyyə mənbələri hesabına 17,4 milyard manat həcmində investitsiyadan istifadə edilmişdir. Ümumi investitsiyaların 12,7 milyard manatı və ya 72,9 faizi istehsal təyinatlı obyektlərin tikintisinin davam etdirilməsinə sərf edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə istifadə edilmiş investitsiyaların həcmi 81,7 faiz azalmışdır... Əsas investitsiyanın 8,3 milyard manatını (25,3 faizi) müəssisə və təşkilatların 360,6 milyon manatı (2,1 faizi) xarici investitsiyanın, 8,5 milyard manatı (48,9 faizi) bank kreditlərinin, 0,4 milyarad manatı (2,3 faizi) büdcə vəsaitinin, investitsiyanın 15,3 milyard manatı (87,9 faizi) dövlət mülkiyyətində olan təşkilatların, 2,1 milyard manatı (12,1 faizi) isə qeyri-dövlət mülkiyyətindən olan təşkilatların payına düşür. Əsas kapitala yönəldilmiş investitsiyanın 8,5 milyard manatı (48,8 faizini) daxili, 8,9 milyard manatını (51,1 faizini) xarici investitsiya təşkil edir. [3, s.3]

Yaşayış binalarında eyvanların genişləndirilməsi, binaların birinci mərtəbəsində qapıların açılması, şəhər sakinlərinin ciddi narazılığına səbəb olmuşdur. Bütün bunlar isə memarlıq və şəhərsalma idarəsi rəhbərlərinin belə bir vacib məsələyə laqeyd münasibəti nəticəsində baş vermişdir. Bu cür xoşagəlməz vəziyyət yaşayış binalarının mühafizəsi üçün bilavasitə cavabdehlik daşıyan Mənzil Komunal İstismar Birliyini, onun struktur bölmələri olan mənzil istismar sahələrini narahat etməlidir. [21, s.3]

Regionların sosial İqtisadi İnkişafı dövlət proqramına əsasən Sumqayıtda 20 çarpayılıq stasionarı olan yeni reabilitasiya mərkəzi tikilmişdir. Mərkəzin smet dəyəri 1 mlrd. 450 milyon manat olmuşdur. Reabilitasiya mərkəzi il ərzində 500-600 nəfərə fiziki sağlamlığını bərpa etməyə imkan verəcəkdir. Burada 30 nəfərin işlə təmin olunması üçün şərait yradılmışdır. Mərkəz üçün müasir avadanlığı BMT-nin İnkişaf proqramı Azərbaycan hökümətinə təmannasız vermişdir. [11, s.1]

2003-cü il ərzində şəhər iqtisadiyyatına qoyulan investitsiyanın 19500,0 mln. manatının (69,1faiz) müəssisə və təşkilatlara cəlb olunmuş investitisiyalar təşkil etmişdir.istifadə edilmiş investitsiyanın 12200,0 mln. manatı (43,3 faizi) dövlət mülkiyyətində olan təşkilatların payına düşür. [8, s.101]

Mənzil fondununu qorunması istiqamətində təsirli tədbirlər həyata keçirilir. Yaşayış evlərinin zirzəmilərinin çirkab sularının qurudulması, dam örtüklərinin təmir edilməsi istiqamətində az iş görülməyi, uzun illərdən bəri iflic vəziyyətində olan lift təsərrüfatının fəaliyyəti canlandırılıb,

çoxmərtəbəli yaşayış binalarında liftlərin işlək vəziyyətə gətirilməsi əsasən təmin olunub. Bugün Sumqayıtda su təsərrüfatında problem yoxdur. Elektrik və qaz təchizatının yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərdə həyata keçirilmişdir. Sumqayıtda istilik sistemləri tamamilə sıradan çıxıb. Bu məsələnin həlli gündəlikdədir.

Məktəblərdə uşaq bağçalarında səhiyyə ocaqlarında istilik sisteminin bərpa olunması ilə bağlı ilk uğurlu nəticələr əldə olunmuşdur. Bütünlükdə Sumqayıtda istilik sisteminin bərpası ilə bağlı proqramın reallaşdırılmasına başlanılmışdır. Sumqayıtlıların daim təmasda olduğu rabitə sistemində iş uğurla gedir. Müasir elektron tipli ATS-lərin nömrə tutumunun artırılması məqsədilə müvafiq tədbirlər görülür. [22, s.2]

"Sumqayıt kiçik bir Azərbaycan kimidir" deyən mərhum Heydər Əliyev Sumqayıtı onun inkişafını daim öz şəxsi nəzarəti altında saxlamışdır. 55 yaşlı Sumqayıtın inkişafının ən məhsuldar 34 ili Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə olmuşdur. Bu müddət ərzində dahi rəhbərimiz Sumqayıta 16 dəfə səfər etmiş, sumqayıtlılarla görüşmüş, çox mühüm tarixi əhəmiyyət kəsb edən tədbirlərdə iştirak etmişdir. O şəhər sakinlərinə daima diqqət və qayğı ilə yanaşmış, onların problemləri ilə maraqlanmış, həlli üçün əlindən gələni əsirgəməmişdir. [19, s.3]

## ƏDƏBİYYAT


1. 1994-cü ilin yekunları nə göstərdi. Sumqayıt Şəhər Statistika İdarəsinin məlumatı // Sumqayıt qəzeti, –1995. 18 fevral, –s.3.
2. 1999-cu ilin 9 ayı ərzində Sumqayıtın sosial-iqtisadi göstəriciləri // Sumqayıt qəzeti, –1999. 4 dekabr, –s.4
3. 2001-ci ildə Sumqayıtın sosial-iqtisadi vəziyyəti haqqında statistik məlumat // Sumqayıt qəzeti, –2002. 2 mart, –s.3
4. Bayramova, S., Musayev A. Qaçqın, köçkün necə yaşayırsan. Şəhər Qaçqınlar Cəmiyyətininsədri Sevindik Hüseynovla müsahibə. 15 aprel, 1995-ci il, s.2
5. Cəfərli, R. İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib // Azərbaycan qəzeti. –2019, 21 noyabr .
6. Cəfərli, R. Sumqayıtın yüksəlişi və inkişafı Milli Qurtuluşun real nəticəsidir "Azərbaycan" https://www.azerbaijan-news.az/posts/detail/sumqayitin-yukselisi-ve-inkisafi-milli-qurtulusun-real-neticesidir-1623966089
7. Əhaliyə ödənilən bir sıra sosial müavinətlərin artırlması haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. –2004. 29 dekabr.
8. Əliyev, Ş. Milli iqtisadiyyatımızda Sumqayıt şəhərinin iqtisadi potensialının rolu // –Bakı, İqtisadiyyat və həyat jurnalı, –2004. №5-6, –s.98-108.
9. Qaçqın və məcburi köçkünlərin sosial ehtiyaclarının təmin olunması diqqət mərkəzində durmalıdır. (Sumqayıt şəhər Şurasının iclası) // Sumqayıt qəzeti, –2000, 30 sentyabr, –s.1.
10. Muğanlı Q. Özəlləşdirmə zamanının tələbidir // Sumqayıt qəzeti, –1999, 24 iyul, –s. 1.
11. Reabilitasiya mərkəzi açılmışdır // Sumqayıt qəzeti, –2005, 29 yanvar, –s.1.
12. Rübü necə başa vurmuşuq. Sumqayıt Şəhər Statistika İdarəsinin məlumatı // Sumqayıt qəzeti, –1998, 6 iyun, –s. 3.
13. Sumqayıt Şəhər Xalq Deputatları Sovetində // Sumqayıt qəzeti, –1995, 6 may, –s.3
14. Şəhər iqtisadiyyatı 9 ayda. Sumqayıt Şəhər Statistika İdarəsi // Sumqayıt qəzeti, –19954 noyabr, –s.1.
15. Şəhər Sovetinin Rəyasət heyətində // Sumqayıt qəzeti, –1995, 14 oktyabr, –s.2.
16. Şəhər Sovetinin sessiyası // Sumqayıt qəzeti, –1995, 7 yanvar, –s.1.
17. Şəhid ailələrinin sosial müdafiəsi // Sumqayıt qəzeti. –1994, 22 oktyabr, –s.1.
18. Tağıyev, C. Təlimata əlavələr və dəyişikliklər edilmişdir // Sumqayıt qəzeti, –1994, 19 may, –s. 1.

19. Ümummili Liderimiz Heydər Əliyevin anadan olmasının 82-ci ildönümü ilə əlaqədar keçirilən yığıncaqda Sumqayıt Şəhəri İcra hakimiyyətinin başçısı Vaqif Əliyevin çıxışı // Sumqayıt qəzeti, –2005, 11 may, –s.3.
20. Veteranlara qayğını ön plana // Sumqayıt qəzeti, –1995, 9 sentyabr, –s.1.
21. Veysəlli, K. Memarlıq və şəhərsalma prinsiplərindən yan keçmək yolverilməzdir // Sumqayıt qəzeti, –2005, 26 yanvar, –s.3.
22. Veysəlli, K. Sumqayıtda quruculuq və yenidənqurma işləri. 9 fevral 2005-ci il, s.2.

**РЕЗЮМЕ**
**РЕШЕНИЕ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ В ГОРОДЕ СУМГАИТ В ПЕРИОД НЕЗАВИСИМОСТИ (1993-2003 гг.)**
***Ибрагимли М.Б.***

***Ключевые слова****: Сумгаит, социальные проблемы, рабочие места, промышленные предприятия, социальное обеспечение, сферы услуг*

В статье отмечается, что с возвращением Гейдара Алиева к политической власти Сумгаит вступил в новый этап развития. В годы независимости неоднократные поездки Гейдара Алиева в Сумгаит и встречи с общественностью города дали большой толчок к восстановлению промышленного потенциала города, модернизации существующих предприятий, решению социальных проблем. К исследованию были привлечены услуги, оказываемые населению на предприятиях, в организациях и ведомствах города Сумгаит, обращения населения в Центр труда и занятости по вопросам занятости и их трудоустройства в соответствии с их профессией, повышен уровень услуг, оказываемых населению на предприятиях, в организациях и ведомствах города.

**SUMMATY**
**SOLUTION OF SOCIAL PROBLEMS IN SUMGAYIT DURING THE PERIOD OF INDEPENDENCE (1993-2003)**
***Ibrahimli M.B.***

***Keywords****: Sumgayit, social problems, jobs, industrial enterprises, social security, service areas*

The article notes that with the return of Heydar Aliyev to political power, Sumgait has entered a new stage of development. During the years of independence, Heydar Aliyev's repeated trips to Sumgait and meetings with the city's public gave a great impetus to the restoration of the city's industrial potential, modernization of existing enterprises, and solving social problems. The study involved services provided to the population at enterprises, organizations and departments of the city of Sumgait, appeals of the population to the Labor and Employment Center on employment and their employment in accordance with their profession, increased the level of services provided to the population at enterprises, organizations and departments of the city

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 27.07.2023 |
| | Son variant | 11.09.2023 |

**УДК 338.2** DOI 10.54758/16801245_2023_19_3_68

# ЗАНГИЛАН В КОНТЕКСТЕ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА

**[1]АМИРОВ ИМРАН БАЛАМИРЗА оглу** ORCID
**[2]МИРЗАБЕКОВ АРАЗ АЛИОСМАН оглу** ORCID
*Сумгаитский государственный университет, Азербайджан, 1,2-ст.преподаватель*
*imran_amirov@mail.ru; araz.mirze@gmail.com*

***Açar sözlər**: turizm, potensial, təbii mənbələr, gəlir, çinar meşəsi, əməkdaşlıq, sanatoriyalar*

Азербайджанская Республика (АР), ставшая гарантом мира на Южном Кавказе и постоянно укрепляющая свою экономическую независимость, наращивает свое социально-экономическое развитие. Наша страна стремится стать сильным государством, постепенно улучшая условия жизни населения до 2030 года, используя имеющиеся ресурсы. АР неуклонно наращивающая производство устойчивой к конкуренции продукции, приумножая свои успехи в социальной сфере и укрепляя свою экономику стабильно развивается.

Благодаря нашей победоносной армии и главе страны наше государство, победившее во 2-й Отечественной войне, обеспечило свою безопасность и территориальную целостность. Наша страна, продвигаясь вперед со стратегией устойчивого развития, постоянно повышает свои макроэкономические показатели, добиваясь новых достижений в национальной экономике. Так, в результате увеличения показателя валового внутреннего продукта (ВВП) в прошлом году он достиг 133,8 млрд. манат, а также прирост на 9,1% (69826 млн. манат) не нефтяного сектора дают основания прогнозировать тенденцию роста нашей экономики и в текущем году [1]. По данным Госкомстата АР, 51,1% производства ВВП приходится на промышленность, 8,2% - на торговлю; ремонт автомобилей, 6% транспорт и складское хозяйство, 4,8% сельское хозяйство, лесное хозяйство и рыболовство, 4,8% строительство, 1,6% размещение туристов и общественное питание, 1,4% сектор информации и связи, 14,7% другие сектора, за вычетом налогов на продукты и импорт составили 7,4% ВВП (рис. 1). По расчетам, на 2022 год пришлось 13292,2 маната ВВП на одного человека населения страны [2].

В целях комплексного развития нашей национальной экономики Указом Президента АР от 6.12.16 года утверждена Стратегическая Дорожная Карта (СДК) по развитию отрасли специализированного туризма в АР. СДК, принятый для развития туристической отрасли, отражал долгосрочную стратегию развития отрасли на период до 2020, 2025 годов и дальнейшую перспективу, а также принятие комплексных мер, связанных с комплексным развитием туризма на устойчивой основе. Поддерживая сотрудничество и развитие в сфере туризма, этот государственный документ приведет к созданию в нашей стране туристического опыта, соответствующего национальным и нравственным ценностям, и к предоставлению качественных услуг в будущем [3].




***Рисунок.*** *Удельный вес туризма в структуре производства ВВП АР в 2022 г. (в %)*

В продолжение пути, намеченного нашим общенациональным лидером, в целях совершенствования управления в сфере туризма и эффективного использования имеющихся ресурсов решением президента страны (27.12.21) принят “Закон туризма АР”. Этот закон, подготовленный в соответствии с основным законом нашей страны (Конституцией АР), состоит из 5 глав и 22 статей и сам по себе обобщает основы государственного управления в сфере туризма, регулирующие механизмы, использование ресурсов и другие вопросы [4].

Появление нового этапа в развитии туристической отрасли в нашей стране и ее соответствие мировым стандартам зависят от ряда факторов. Развитие туризма в нашей местности, известной как Страна огней, основано на ее загадочной природе, флоре и фауне, существующем географическом ландшафте, туристических ресурсах, гостеприимстве азербайджанского народа, древней культуре и историческом наследии, кадровом потенциале и других важных факторов. К рассматриваемым факторам относятся действующие в нашей стране санаторно-курортные учреждения, эффективная работа гостиниц, турфирм и туроператоров, а также организация транспортно-коммуникационных связей, обслуживающих туристов, прибывающих в Азербайджан, в соответствии с международными стандартами и др. Увеличение количества туристов, приезжающих в нашу страну, фиксируется в прямой зависимости от названных факторов и эффективного использования имеющегося потенциала (таб.).

Освобождение Карабаха от угнетения врага и обеспечение безопасности территории страны создали большие возможности для развития туристической отрасли в этом регионе. С победой нашей победоносной армии и под руководством Главнокомандующего в освобожденных районах быстрыми темпами продолжаются восстановительные работы. Жизнь возродится в ближайшее время на наших территориях, освобожденных решимостью и политической волей Президента страны. В настоящее время выполняются задачи, вытекающие из Указа Президента АР № 3587 от 16.11.22 об утверждении ”I Государственной программы Великого возвращения на территории, освобожденные от оккупации Азербайджанской Республики”.

***Таблица .***

***Количество санаторно-курортных учреждений в АР за последние годы***

| № | Показатели | 2015 | 2016 | 2019 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| 1 | Санатории | 32 | 30 | 28 | 28 | 32 |
| 2 | Койки в них | 5726 | 5616 | 5266 | 5266 | 5657 |
| 3 | Детские санатории | 13 | 13 | 12 | 12 | 12 |
| 4 | Койки в них | 910 | 910 | 860 | 860 | 860 |
| 5 | Дома отдыха, профилак-тории, пансионаты и центры оздоровления | 23 | 23 | 15 | 13 | 11 |
| 6 | Количества мест в них | 2658 | 2658 | 1926 | 1675 | 1822 |

*Источник: [5, s.277]*

Уже с прошлого отчетного года начаты посадочные работы с целью восстановления лесов в Карабахе. Планируется создание террас и лесопарков в Карабахе и Восточном Зангезуре, которые входят в число 14 экономических районов АР, особенно в Агдамском, Физулинском, Джебраильском и Зангиланском районах. При поддержке Турецкой Республики в Джебраиле были созданы ”Лес дружбы”, “Умная хозяйства саженцев” и “Азербайджано-турецкий международный учебный центр лесного хозяйства”. Меры по выращиванию 2 миллионов деревьев в год в Восточном Зангезуре и восстановлению лесов в Карабахе создадут благоприятные условия для развития здесь туризма.

По словам экономиста-ученого, академика З.А.Самедзаде, “будут определены виды животных для реинтродукции видов фауны, будет проведена подготовка к процессу их адаптации. Животные, прошедшие адаптационный период, будут выпущены в отдельные районы. В прошедший период были предприняты различные меры в направлении восстановления деятельности особо охраняемых природных территорий, расположенных на территории области, биологического разнообразия и памятников природы. Совместно с общественным объединением IDEA и Всемирным фондом дикой природы начаты проекты по реинтродукции некоторых видов животных, газели и безоарского козла на их исторических территориях. В прошлом году в Джебраиле выпущено 33 джейрана” [6, с. 5].

Природные биологические ресурсы Карабахского экономического района, восстановление его лесного фонда, флоры и фауны, наличие минеральных источников, таких как Туршсу и Ширлан, полезных как для лечения, так и для отдыха, создают основу для развития туристической отрасли. В целях восстановления и приумножения лесов на указанных участках планируется провести лесопосадочные работы на площади 1150 га [7].

На освобожденных от оккупации территориях наряду с промышленно важными месторождениями находятся 16 подземных месторождений пресных вод и 11 месторождений минеральных вод. Территория Карабаха, обладающая богатыми природными ресурсами, археологическими и архитектурными памятниками, также может привлечь туристов своей редкой растительностью. Зангиланский район, расположенный на левом берегу реки Араз (на юго-востоке Малого Кавказа) и имеющий площадь 707 км$^2$ в Карабахе, подверженном экологическому терроризму, имеет благоприятные возможности для развития национального туризма. Баситчайский государственный заповедник, основанный в 636 г. (в районе был 1 город, 5 поселков и 79 деревень), расположенный на площади 107 гектар (га), и заповедная территория Аразбою, имеющий площадь 2,2 тыс. га, могут представлять интерес для туристов. 4 памятника природы в этом районе, а также особо охраняемый дубовый лес Араз площадью 10000 га и государственный лесной фонд площадью 12864 га свидетельствуют о том, что воздух, циркулирующий в этом районе, чище и насыщен кислородом. До 1200

природных родников в Зангилане, а также минеральные источники, состоящие из 4-х источников, соответствующих по своему составу воде Есентуки-4, минеральные источники Туршсу могут привести к увеличению приезда туристов в нашу страну. Зангиланский район, обладающий загадочной природой и богатыми минеральными водами, позволяет построить многочисленные лечебные санатории, что является одним из факторов, напрямую увеличивающих поток туристов. Расположение исторических памятников и многочисленных мест паломничества, связанных с христианской и исламской религией, стимулирующих развитие национального туризма, на территории Зангилана принесет в будущем больше дивидендов в государственный бюджет, сыграв уникальную роль в развитии индустрия туризма. Наличие горных районов в Зангиланском районе создает благоприятные условия для развития здесь горно-спортивного туризма. В советский период (1974 г.) Баситчайский национальный парк, в котором произрастают деревья, некоторым из которых более 1200-1500 лет, может еще больше привлекать туристов. Все это еще раз подтверждает, что Зангиланский район обладает большим туристическим потенциалом.

Следует отметить, что Зангилан, входящий в состав Восточно-Зангезурского экономического района (Джебраильский, Кельбаджарский, Губадлинский, Лачинский и Зангиланский районы) по переделу экономических районов нашей страны, был известен единственным ”Красным платановым (чинарским) лесом” в мире. Армянские фашисты разграбили всемирно известный платановый лес Зангилана, а также уничтожили природные ресурсы Карабаха. Вызвавший интерес всего мира Платановый лес занял уникальное место в обогащении флоры и фауны АР, а также всего Кавказа. Этот природный платановый лес, расположенный в Баситчайской котловине, вызвал интерес во всем мире благодаря своей площади, физическому здоровью деревьев и красивому внешнему виду.

Вообще Платановый лес является очень редким, очаровательным источником зелени и считался бесценным достоянием нашей страны. Платаны, растущие в этом регионе, были одним из 8 видов платанов, произрастающих во всем мире. В начале XX века нашей стране принадлежало почти 120 гектаров платанового леса. Однако с передачей 50% территории Зангезура Армении в 20-е годы часть Платанового леса - деревья, раскинувшиеся по долинам рек Хачин и Шихавуз - осталась на территории Армении. Таким образом, армяне присвоили себе часть наших платановых лесов.

Позже, по инициативе академика Гасана Алиева, в целях охраны платанового леса, являющегося редким памятником природы, согласно постановлению Совета Министров Азербайджанской ССР от 4.07.74 г. был создан Баситчайский государственный природный заповедник на площади 117 га в районе Зангилан. Платановый лес Зангилана - самый большой в Европе и второй по величине в мире после Канады. Ряд ученых пришли к выводу, что чиранский лес Зангилана является самым большим платановым лесом в мире. Согласно исследованиям исследователя, географа О.Алекперова, платановый лес в Зангилане является самым большим платановым лесом на земле. Площадь этого лесного массива является самым большим лесным массивом в мире.

Хотя в этом очаровательном уголке Азербайджана есть 8 историко-религиозных памятников, 20 святынь, 18 исторических-архитектурных памятников, эти памятники были разрушены во время оккупации. В Зангилане армянские вандалы уничтожили 70 библиотек, 3 музея, 4 музыкальные школы, 2 кинотеатра и парк. В настоящее время в этом районе начаты реставрационные работы памятников, идет ремонт мечетей - паломничеств. В ближайшем будущем Зангилан будет известен как туристический регион и внесет новый вклад нашей стране в развитие как нашей национальной экономики, так и туризма [8, с.15].

В настоящее время в Карабахе реализуются проекты по восстановлению 9 городов и строительству 300 сельских домов. Здесь планируется подготовить проекты строительства и ввода в эксплуатацию объектов инфраструктуры, связанных с созданием Баситчайского

государственного природного заповедника. Проекты, реализуемые в Карабахе с участием передовых иностранных компаний, в долгосрочной перспективе обеспечат возвращение наших граждан в родные места. Следует также отметить, что из госбюджета текущего года на проведение восстановительных работ в Карабахе выделено 3 миллиарда манатов. В результате реализации Государственной программы возвращения будет обеспечено устойчивое заселение путем достижения большинства целей реконструкции и реконструкции, поставленных к 2026 году.

Следует отметить, что гражданская авиация, а также действующие в стране международные аэропорты играют уникальную роль в развитии национального туризма. В районе Зангилан завершается строительство Международного аэропорта площадью 141 га, фундамент которого был заложен в апреле 2021 года. Ввод в эксплуатацию 8 самолетов и порта, способного принимать 200 пассажиров в час, еще больше увеличит наши возможности по перевозке пассажиров и грузов. Несомненно, Зангиланский международный аэропорт, который будет сдан в эксплуатацию в августе этого года, внесет в будущем новый вклад в развитие туристического бизнеса, помимо улучшения коммуникационных связей с соседними регионами.

По данным исследования Всемирной туристской организации, состояние мировой туристической отрасли в целом стабильное, несмотря на объективные трудности последних лет. Туристический бизнес сохраняет свои позиции крупнейшего, наиболее прибыльного и быстрорастущего сектора мировой экономики. В основе этого лежит повышенная заинтересованность развитых стран мира в обеспечении эффективной государственной политики по развитию туризма [9, с.74].

Признание нашей страны путем занятия достойного места на мировом туристическом рынке и непрерывное развитие отечественного туризма являются сегодня одними из приоритетов нашего государства. Поэтому очень важно укреплять международное сотрудничество, проводить выставки в зарубежных странах, распространять аудиовизуальные материалы туристических мест (продукцию) с использованием различных современных технических средств и технологий.

Устранение проблем, возникающих при развитии туризма в АР, создаст условия для расширения национального туристического сектора за счет возрождения этой сферы. Развитие туристического бизнеса в нашей стране в соответствии с имеющимся потенциалом и оказание услуг на основе международных стандартов повысит конкурентоспособность современной туристической отрасли. Таким образом, изучение перспектив и факторов развития туристической отрасли в нашей стране позволяет прийти к следующим выводам:

- развитие индустрии туризма, ставшей ведущей сферой не нефтяного сектора экономики страны, является одним из главных приоритетных направлений укрепления нашей государственности. В результате развития сферы туризма увеличение доходов, поступающих в бюджет страны, полностью отвечает национальным интересам нашего государства и народа;

- соответствующие проекты должны быть реализованы в соответствии с политикой нашего государства по развитию туристической отрасли. Комплексное использование отношений с органами местного самоуправления государственными и частными структурами в развитии туристического бизнеса, ставшего ведущим направлением ненефтяного сектора, позволит устранить ряд проблем, возникающих в развитии регионов;

- в целях дальнейшего расширения туризма в регионах должны быть созданы благоприятные условия в создании туристских инфраструктур и продуктов. Рациональное использование туристического потенциала АР обеспечит устранение проблем с занятостью за счет увеличения удельного веса этого сектора в ВВП;

- развитие регионального туризма в нашей стране позволяет прогнозировать, что количество туристов, приезжающих в республику, увеличится до 4 млн в ближайшие 3 года, помимо увеличения доходов в этом секторе. Для этого должны быть приняты комплексные меры по устранению трудностей, возникающих в сфере туризма, и повышению привлекательности нашей страны.

## ЛИТЕРАТУРА


1. Джаббаров, М. Увеличение ВВП в Азербайджане. https://az.trend.az/business/3698683.html Электронный ресурс дата обращения: 12.06.23
2. https://www.stat.gov.az/news/index.php?lang=az&id=5403 Электронный ресурс дата обращения: 9.05.23
3. https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf s.98-s.4 Электронный ресурс дата обращения: 7.06.23
4. https://e-qanun.az/framework/49162 Электронный ресурс дата обращения: 24.05.23
5. Государственный статистический комитет Азербайджанской Республики. Статистические показатели Азербайджана – 2022. Официальное издание. Статистический сборник / Баку: “Дом Типографии Нарынджы” ООО, –2022. –747 с.
6. Самедзаде, З.А. Великое возвращение: Карабах и Восточный Зангезур на пути к созиданию и возрождению // Экономика. 7-15.03.2023. Еженедельная экономическая, общественно-политическая, независимая г/т. Типография “Азермедия” ООО, с.8
7. https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F_iqtisadi_rayonu#cite_note-3 Электронный ресурс дата обращения: 17.04.23
8. Мехралы, Л. Карабах: Роль Зангилана в экономике Азербайджана. г/т Сас 5.05.23 № 077 (6760) Агентство развития средства массовой информации Азербайджанской Республики Орган Азербайджанского благотворительного общества “Алинджа”, с.16.
9. Qurbanova, R. V. Q. Dünyada turizmin inkişaf xüsusiyyətləri və ona təsir edən amillər / R. V. Q. Qurbanova // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2020. – Vol. 16, No. 2. – P. 72-75. – EDN PFQBKQ. https://www.elibrary.ru/item.asp?id=43169100



## XÜLASƏ
## ZƏNGİLAN AZƏRBAYCANIN TURİZM SEKTORUNUN İNKİŞAFI KONTEKSTİNDƏ

***Əmirov İ.B., Mirzəbəyov A.Ə.***

***Açar sözlər:*** *turizm, potensial, təbii mənbələr, gəlir, çinar meşəsi, əməkdaşlıq, sanatoriya*

Hazırlanmış məqalənin məqsədi Azərbaycanın Şərqi Zəngəzur iqtisadi zonasının rayonlarından biri olan Zəngilanın milli turizmin inkişafındakı imkanlarının araşdırılmasıdır. Bildirilib ki, dövlət meşə fondu ərazisindəki dövlət qoruğu, təbii bulaqlar, təmiz hava və zəngin mineral sular və digər amillər Kiçik Qafqazın cənub-şərqində yerləşən bu bölgədə milli turizm potensialını artırır.

Ölkəmizdə turizm biznesinin inkişafının əsas prioritetini nəzərə alaraq analitik təhlil nəticəsində belə nəticəyə gəlinib ki, yaxın 3 ildə ölkəmizə gələn turistlərin sayında ciddi artım qeydə alınacaq.

**SUMMARY**
**ZANGILAN IN THE CONTEXT OF DEVELOPMENT OF THE TOURISM SECTOR OF AZERBAIJAN**
***Amirov I.B., Mirzabekov A.A.***

***Key words:*** *tourism, potential, natural sources, income, sycamore forest, cooperation, sanatorium*

The purpose of the prepared article is to study the possibilities of Zangilan, one of the regions of the East Zangezur economic zone of Azerbaijan, in the development of national tourism. It was emphasized that the State Reserve, natural springs, clean air and rich mineral waters on the territory of the state forest fund and other factors increase the potential of national tourism in this region, located in the southeast of the Lesser Caucasus.

Taking into account the main priority of the development of the tourism business in our country, as a result of the analytical analysis, it was concluded that in the next 3 years there will be a significant increase in the number of tourists arriving in our country.

.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 08.06.2023 |
| | Son variant | 27.07.2023 |

**UOT 339.9** DOI 10.54758/16801245_2023_19_3_75

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ SİYASƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**ƏHMƏDOVA GÜLNARƏ SABİR qızı** ORCID
*Sumqayıt Dövlət Universiteti, Azərbaycan, baş müəllim*
*gulnaraahmadova.ga@gmail.com*

***Açar sözlər:*** *milli, dövlət, XİF, XİS, xarici ticarət*

Xarici iqtisadi fəaliyyət (XİF) müxtəlif firma və təşkilatların təsərrüfat fəaliyyətinin ayrılmaz hissəsidir. Hazırda müxtəlif ölkələrdən olan biznes tərəfdaşları ilə sənaye, iqtisadi və elmi əməkdaşlığa maraq artır. Bu şəraitdə kiçik və orta müəssisələrin, dövlət qurumlarının və istehsal sektorunun çoxlu sayda işçiləri dünya bazarının vəziyyəti, onun struktur təşkili və kommersiya əməliyyatlarının icrası texnologiyası haqqında etibarlı məlumata ehtiyac duyurlar. Qloballaşma şəraitində xarici iqtisadi fəaliyyət maliyyə, əmək, intellektual, informasiya və digər resursların ölkə hüdudlarından kənarda yenidən bölüşdürülməsinin müxtəlif formalarının, istiqamətlərinin və vasitələrinin məcmusu kimi təqdim oluna bilər. Bu, dövlətin müdaxiləsinin dərəcəsinin dövlətin xarici iqtisadi siyasətin (XİS) köməyi ilə həyata keçirildiyini deməyə əsas verir. Xarici iqtisadi fəaliyyət əsasən Xarici iqtisadi əlaqələr (XİƏ) çərçivəsindədir və bu da iqtisadiyyatın müxtəlif sahələrində dövlətlər və onların subyektləri arasında müxtəlif beynəlxalq əməkdaşlıq formalarının kompleks sistemidir. XİƏ dövlətlər və dövlətlərin iqtisadi subyektləri arasında müxtəlif mənbələrin hərəkətindən irəli gələn mürəkkəb iqtisadi münasibətlər sistemidir.

Məlumdur ki, iqtisadiyyatın bazar üsulu ilə yenidən qurulmasında xarici iqtisadi fəaliyyət həlledici rol oynayır. Xarici iqtisadi fəaliyyət iki əsas vəzifənin həllinə yönəldilməlidir:

1. Respublikada iqtisadi vəziyyətin sabitləşməsi prosesini təşviq etmək;

2. Beynəlxalq xarici investisiyalarının (BXİ), qabaqcıl texnologiyanın və dünya idarəetmə təcrübəsinin geniş cəlb edilməsi yolu ilə milli iqtisadiyyatın keyfiyyətcə transformasiyasını sürətləndirmək.

Beləliklə, xarici iqtisadi fəaliyyət müxtəlif dövlətlərin iqtisadi fəaliyyət subyektləri arasında qarşılıqlı əlaqə prosesləridir. XİF-i bütün iqtisadi fəaliyyət sahəsindən ayırmağa imkan verən spesifik xüsusiyyətləri vardır. Bu spesifiklik istənilən dövlətin dünya ticarətinin beynəlxalq norma və prinsipləri ilə hesablaşma zərurəti ilə əlaqədardır. XİF-in inkişafı, iqtisadiyyatın səmərəliliyinin artırılması, milli maraqlarını həyata keçirməsi məqsədi ilə tənzimlənərkən hər hansı bir dövlət digər ölkələrin maraqlarını pozmamalı və beynəlxalq təşkilatlar General Agreement on Tariffs and Trade (GATT) tərəfindən hazırlanmış qaydalar çərçivəsində hərəkət etməlidir. Beləliklə, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi (XİFDT) sərhədləri bir tərəfdən milli ixracatın genişləndirilməsi və beynəlxalq əməkdaşlıq formalarının inkişafı zəruriliyi ilə, digər tərəfdən beynəlxalq təşkilatların qaydaları ilə müəyyənləşdirilir.

Bu fəaliyyət növünün ən vacib xüsusiyyəti maddi nemətlərin (xidmətlərin) bir dövlətdən digərinə hərəkəti (mübadiləsi) faktıdır. XİF-in xüsusiyyətləri istənilən dövlətin təkcə müəyyən bir ərazi ilə deyil, bir sıra ictimai-siyasi, sosial-iqtisadi göstəricilərlə xarakterizə olunması ilə də əlaqələndirilir. Hər bir dövlətin yalnız özünə xas olan, milli qanunvericiliyə tabe olan iqtisadiyyatı vardır. Bu münasibətlərin təsirli bir tənzimlənməsi olmadıqda, milli iqtisadiyyat üçün son dərəcə mənfi nəticələr yarana bilər. Bu səbəbdən dövlət, həm digər ölkələrlə mal və xidmət mübadiləsi qurmağa çalışır, həm öz iqtisadi subyektlərinin ayrı-seçkiliyinin qarşısını alır, həm də XİF

nümayəndələrinin maraqlarına hörmət edir. Buna görə XİF-in ən vacib tərəfi, dövlətin xarici iqtisadi siyasətinnin köməyi ilə reallaşdırılan tənzimlənmədir. Bu vəziyyət nəzərə alınaraq XİFDT indiyədək geniş yayılmışdır və bütün dünyada tətbiq olunmağa davam edir.

Azərbaycanda dövlət tərəfindən xarici iqtisadi siyasətin tənzimlənməsi və təkmilləşdirilməsi məqsədilə tarif və qeyri-tarif metodlarından istifadə edilir, həmçinin XİF sahəsində norma və qaydaları hazırlanır [1, s.11].

Hazırda Azərbaycanın xarici iqtisadi siyasətin-i davamlı inkişafın təkmilləşdirilməsinə yönəlib. Xarici iqtisadi siyasətin dövlətin xarici dövlətlərlə BİM-in inkişafı və tənzimlənməsində gördüyü işdir. Əsas vəzifəsi ölkədə subyektlərinin fəaliyyətində, beynəlxalq əmək bölgüsündə (BƏB) və kooperasiyasında faydalı iştirak etməkdən ibarətdir. Xarici iqtisadi siyasətin müxtəlif dövlətlərlə xarici iqtisadi əməliyyatların balansına kömək edir, bu fəaliyyətin ayrı-ayrı subyektlərinin xarici ölkələrin oxşar müəssisələri ilə qarşılıqlı əlaqəsini optimallaşdırır və dövlətin iqtisadi təhlükəsizliyini təmin edir.

Xarici iqtisadi siyasətin-i dar və geniş mənada başa düşmək olar. Dar mənada xarici iqtisadi siyasətin malların və xidmətlərin ixracı, Beynəlxalq xarici investisiyalarının (BXİ) cəlb edilməsi, xaricə kapital ixracı, beynəlxalq kreditlər, beynəlxalq iqtisadi layihələrin reallaşdırılması, digər dövlətlərə iqtisadi yardım göstərilməsi sahəsində dövlət siyasətidir. Geniş mənada xarici iqtisadi siyasətin dedikdə, dövlətin dünya iqtisadiyyatının digər subyektləri ilə iqtisadi əlaqələrin formalaşmasına və tənzimlənməsinə yönəlmiş fəaliyyətidir. Nəzəri olaraq, dövlətin makroiqtisadi siyasətinin bu istiqamətinin əsas məqsədi ölkənin iqtisadi inkişafıdır. Təcrübədə xarici iqtisadi siyasətin-in məqsədi müxtəlif yollarla (proqram sənədlərində və qanunvericilik aktlarında) formalaşdırılır və həmişə milli rifahın maksimum səviyyəsini əks etdirmir.

Beləliklə, xarici iqtisadi siyasətin - dövlətin və onun orqanlarının xarici iqtisadi münasibətləri tənzimləmə rejimini müəyyənləşdirmək və ölkənin BƏB-də iştirakını optimallaşdırmaq üçün məqsədyönlü fəaliyyətidir.

Azərbaycanın xarici iqtisadi siyasətin-nin ən mühüm məqsədlərindən biri əhalinin vəziyyətinin yaxşılaşdırılması məqsədilə rəqabət üstünlüklərindən istifadə əsasında ölkəmizin BƏB-də səmərəli iştirakıdır.

Xarici iqtisadi siyasətin müəyyən zaman, eləcə də uzun müddət ərzində ölkənin XİƏ-lərinin formalaşması və tətbiqi sahəsində fəaliyyətini müəyyən edən müvəqqəti aspektə təsir göstərir. Buna görə xarici iqtisadi siyasətin cari və uzunmüddətli olaraq bölünür. Cari XİS, XİF-in operativ tənzimlənməsinə yönəldilmişdir. Uzunmüddətli xarici iqtisadi siyasətin çoxlu vaxt və vəsait tələb edən irimiqyaslı xarici iqtisadi vəzifələri həll edir. Bu siyasət kifayət qədər uzun bir dövrü əhatə edir.

Xarici iqtisadi siyasətin-in əsas istiqamətləri xarici ticarət, valyuta, BXİ-nin cəlb edilməsi və investisiyaların tənzimlənməsi sahəsində siyasətləri, eləcə də müxtəlif ölkələrlə XİF-in tarazlaşdırılması problemlərinin həllidir. Xarici iqtisadi siyasətin ölkənin elmi-istehsalat potensialını lazımi miqyasda və texnoloji səviyyəyə qaytarmaqla onun iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinin mühüm və səmərəli vasitəsinə çevrilə bilər ki, bu da təkcə daxili bazarın deyil, həm də əhalinin ödəmə qabiliyyətli tələbatının ödənilməsinə kömək edəcək.

Xarici iqtisadi siyasətin ixrac və idxal, məhdudiyyətlər, tariflər, gömrük rüsumları, xarici kapitalın cəlb edilməsi və xaricə kapital ixracı, xarici kreditlər, digər ölkələrə iqtisadi yardımın göstərilməsi, birgə iqtisadi layihələrin tətbiqi sahəsində dövlət siyasətidir. Xarici iqtisadi siyasətin xarici ticarəti, xarici investisiyaları, valyuta-kredit münasibətlərini, yeni texnologiyaların transferini, əmək miqrasiyasını tənzimləyir.

Xarici iqtisadi siyasətin ölkə daxilində iqtisadi artımı sürətləndirmək və ya yavaşlatmaq üçün istifadə olunan əsas makroiqtisadi alətlərdən biridir. Makroiqtisadi siyasət dövlətin iqtisadi artım tempini saxlamaq, tam məşğulluq və inflyasiyanın qarşısını almaq məqsədilə iqtisadiyyatı tənzimləməyə yönəlmiş tədbirlərdir. Makroiqtisadi siyasətin əsas məqsədi işsizlik və inflyasiya

arasında tarazlığın təmin edilməsidir. XİS-in əsas məqsədi daxili və xarici şəraitin müxtəlifliyi və birliyi kontekstində insanların rifahını, şəxsiyyətin, cəmiyyətin və dövlətin həyat qabiliyyətli inkişafını təmin etməkdir. XİS dövlətlər və onların inteqrasiya birlikləri tərəfindən hazırlanır.

Liberallaşma və qloballaşma proseslərinin təsiri altında dövlətlərin XİƏ-lərin tənzimlənməsində səriştəsi məhdud olsa da, onlar hələ də malların, xidmətlərin, kapitalın ixracını və idxalını stimullaşdıra və ya məhdudlaşdıra bilən mühüm səlahiyyət funksiyalarını özündə saxlayırlar. Sənayecə İEÖ-lərdə XİS-in dövlət tənzimlənməsi mexanizmi xarici ticarətə nəzarət edən və stimullaşdıran bir sıra vasitələrin köməyi ilə tətbiq edilir.

Dövlətin xarici ticarət siyasəti (XTS) - dünyanın digər ölkələri və (və ya) onların qruplaşmaları ilə ticarət əlaqələrinin inkişaf etdirilməsinə və tənzimlənməsinə yönəlmiş müxtəlif strategiya və vasitələrin məcmusudur. XTS ölkənin iqtisadi siyasətinin bir-biri ilə əlaqəli olan tədbirlərindən istifadə etməklə reallaşdırılır. Bu tədbirlərə XTS-i tətbiq üçün istifadə olunan iqtisadi, inzibati, hüquqi, texniki vasitələr daxildir [2, s.30].

XİS-də iki əks tendensiyanın daimi qarşılıqlı təsiri mövcuddur: azad ticarət və proteksionizm siyasəti. XTS dövlətin xarici dövlətlərlə malların, xidmətlərin, məlumatların, işlərin, əqli fəaliyyətin nəticələrinin beynəlxalq mübadiləsini əhatə edən XTF sahəsində münasibətlərini qurur və tənzimləyir. Belə münasibətlər beynəlxalq hüququn qəbul edilmiş və cəmiyyət tərəfindən tanınmış prinsiplərinə, normalarına və ölkənin beynəlxalq müqavilələrindən irəli gələn öhdəliklərinə əməl olunması əsasında qurulur.

Xarici ticarət XİF-in ən geniş yayılmış formasıdır. XİF demək olar dünyanın bütün ölkələri üçün zəruri olan xarici ticarətin inkişaf səviyyəsi ilə də müəyyənləşdirilir. İstənilən dövlətin XİF-də və bütövlükdə BİM sistemində XTF mərkəzi yer tutur və ölkələr arasındakı XİƏ-lərin ən inkişaf etmiş forması olmaqla bütün dünyada çox geniş yayılıb. Xarici ticarət - mal və xidmətlərin ticarəti, informasiya və əqli mülkiyyət sahəsində əməliyyatların reallaşdırılmasına dair fəaliyyətdir. Xarici ticarət - ölkələr arasında beynəlxalq sərhədləri üzərindən kapital, mal və xidmətlər mübadiləsi məqsədi daşıyan fəaliyyətlər məcmusudur. Bu, müxtəlif ölkə istehsalçıları arasında BƏB əsasında yaranan və onların qarşılıqlı asılılığını xarakterizə edən bir əlaqə yoludur . Geniş mənada, ölkələr arasındakı ticarət ümumi ödənişli dövriyyəni ifadə edir. Dar mənada, hər hansı bir qitənin, bölgənin və s. məcmu dövriyyəsidir.

Dünya ölkələri xarici ticarət prosesində fəal iştirak edirlər. Çünki bu, milli iqtisadiyyatın səmərəli işləməsinə, mövcud resursların bölgüsünə və istifadəsinə, elm və texnikanın qabaqcıl nailiyyətlərinin tətbiqinə imkan verir. Xarici ticarətin inkişafına qloballaşma prosesləri çox böyük təsir göstərir. Xarici ticarət, daimi mənfəət kütləsinin artmasına kömək edir və istehsal miqyasını genişləndirməyə imkan verir. Ölkədəki xarici ticarətin subyektləri idxalatçılar, ixracatçılar və xarici ticarətə nəzarət edən qurumların daxil olduğu dövlət sektorudur.

Ümumilikdə xarici ticarət malların və xidmətlərin dövlət xaricində hərəkətini əhatə edən prosesi əks etdirir. Həm də malların və xidmətlərin ixracı və idxalı məqsədi ilə dövlətlər arasındakı münasibətlər kimi yozula bilər. Bu münasibətlər dövlətin XTS-i vasitəsilə tənzimlənir. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin əsas vəzifəsi dövlət xarici ticarət siyasətin bütün növ və formalarını inkişaf etdirmək, onların fəaliyyətinin səmərəliliyini artırmaq və bununla da əlverişli iqtisadi və təşkilati şərait yaratmaqdır. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi adətən dövlətin başqa ölkələrlə olan ticarət əlaqələrinin inkişafına və tənzimlənməsinə yönəlmiş fəaliyyətləri kimi başa düşülür. XTF-nin əsas vəzifəsi ölkə daxilində genişləndirilmiş təkrar istehsala əlverişli xarici ticarət şəraiti yaratmaqdır.

Dövlətin XTF-i dövlətin və onun orqanlarının bu sahədə əlaqələrini tənzimləmə rejimini müəyyənləşdirmək və ölkənin BƏB-də iştirakını optimallaşdırmaq üçün məqsədyönlü fəaliyyətlərini nəzərdə tutur. Ölkənin iqtisadi təhlükəsizliyinin təminatı məqsədilə ayrı-ayrı dövlətlər və bölgələrlə xarici ticarət əməliyyatlarının coğrafi tarazlığındakı mühüm vəzifələrin

həllinə töhfə vermək üçün nəzərdə tutulmuşdur. Beləliklə, daha geniş və ya ümumi mənada XTF bir ölkənin milli iqtisadiyyatının dünya iqtisadiyyatı ilə qarşılıqlı təsir şərtlərini müəyyənləşdirir.

Xarici ticarət üçün aşağıdakı formalar xarakterikdir: idxal əməliyyatları, ixrac əməliyyatları, təkrar idxal əməliyyatları, təkrar ixrac əməliyyatları.

Uzun əsrlər boyu xarici ticarət dünya birliyi ölkələrinin iqtisadi artımı üçün vacib şərt, bu ölkələrin milli iqtisadi sistemlərini inkişaf etdirmək və daha da ixtisaslaşdırmaq, əmək məhsuldarlığını artırmaq və mövcud ehtiyatlarından səmərəli istifadə vasitəsi olmuşdur. Dünya iqtisadiyyatının qloballaşma, ticarət və iqtisadi inteqrasiya (regional maneələrin aradan qaldırılması, ümumi bazarların, azad ticarət zonalarının formalaşması) proseslərinin intensiv inkişafı ilə əlaqədar olaraq XİƏ-lərin rolu xüsusilə artır. İstehsalın beynəlmiləlləşdirilməsi və BƏB-in dərinləşdirilməsi baş verir, transmilli şirkətlərin beynəlxalq bazarlarda aktiv fəaliyyəti artır. Dünya ölkələrinin milli iqtisadiyyatlarının dominant funksiyası ixracdan, texnologiyadan, xammaldan, valyuta ehtiyatlarından öz ehtiyaclarını səmərəli şəkildə ödəmək üçün rasional istifadə etməkdir [3, s.98] .

Hazırda ticarət siyasəti müxtəlif tənzimləmə üsulları (idxal və ixrac üçün gömrük tarifləri, müxtəlif növ kvotalar və lisenziyalar) vasitəsilə realaşdırılır [4, s.94].

Dövlət xarici ticarət siyasətinə ixrac və idxal siyasəti daxildir. İxrac XTS dünya bazarında rəqabətqabiliyyətli malların satışına və bu malların istehsalını stimullaşdırmağa yönəlib.

İdxal XTS xarici malların ölkəyə idxalını tənzimləməyə yönəlmişdir. Belə tənzimləmə alətləri aşağıdakılardır:

1) Dövlətin iqtisadiyyatını qorumaq məqsədi ilə idxalın birbaşa məhdudlaşdırılması. Bunun üçün antidempinq və kompensasiya rüsumları, idxalın lisenziyalaşdırılması və şərtiləşdirilməsi, minimum idxal qiymətləri sistemi və s. tətbiq edilir.

2) Birbaşa idxalın məhdudlaşdırılmasına yönəlməyən, lakin xarici ticarəti məhdudlaşdıran inzibati rəsmiləşdirmələr. Bunlar gömrük rəsmiləşdirilməsi, sanitar və baytarlıq qaydaları, texniki standart və normalar və s.-dir.

İdxal XTS öz fəaliyyətində idxalın daxili iqtisadiyyatda rolunu nəzərə alır. Bu rol iki məqamla müəyyən edilir:

1) idxal - dövlətin gömrük gəlirlərinin ənənəvi mənbəyidir;

2) idxal - antiinhisar aləti və yerli malların istehsalında rəqabət elementidir [5, s.56].

Xarici investisiya siyasəti ölkə ərazisində BXİ-nin cəlb edilməsi və istifadəsi üzrə tədbirlər kompleksidir. İnvestisiyalar, investorun mənfəət əldə etmək məqsədi ilə sahibkarlıq fəaliyyəti obyektlərinə qoyduğu bütün növ əmlak və intellektual dəyərlərdir. İnvestisiyada kapital böyük rol oynayır bə bu, gəlir əldə etmək məqsədlərinə görə istifadə olunan puldur. Kapital idarəetmə hüququ verən və mənfəətin əldə edilməsi məqsədilə birbaşa müəssisənin yaradılmasına yatırıla (birbaşa investisiya), qiymətli kağızların alınmasına (portfel investisiyası) sərf oluna, faizlə kreditə verilə bilər (kredit kapitalı).

Dövlətin XİS-nə pul siyasəti təkan verir. Pul siyasəti valyuta vəsaitlərindən məqsədyönlü istifadə edilməsi üzrə dövlətin fəaliyyətidir. Pul siyasətinin məzmunu çoxşaxəli olub, valyuta fondlarının formalaşdırılması və onların istifadəsinin əsas istiqamətlərinin, həmin vəsaitlərdən səmərəli istifadəyə yönəlmiş tədbirlərin hazırlanmasını özündə ehtiva edir. Uzunmüddətli pul siyasətinin tədbirləri valyuta hesablaşmaları proseduru, məzənnə rejimi və paritetlər, qızıl və ehtiyat valyutalardan, beynəlxalq ödəniş vasitələrindən istifadə və digərləridir.

Xarici iqtisadi siyasət də digər bir istiqamət gömrük siyasətidir. Azərbaycanda gömrük siyasətinin məqsədləri aşağıdakılardır:

• gömrük nəzarəti və mal mübadiləsi ilə bağlı tənzimlənmə alətlərindən ölkənin gömrük ərazisində ən səmərəli və məqsədyönlü istifadənin təmin edilməsi;

• ölkə bazarını qorumaq və milli iqtisadiyyatın inkişafının motivasiyası məqsədilə ticarət və siyasi vəzifələrin reallaşdırılmasında iştirak etmək.

Gömrük siyasəti, əsasları ölkənin Gömrük Məcəlləsi ilə müəyyənləşdirilmiş gömrük işinin bir hissəsidir. Azərbaycan gömrük sahəsində beynəlxalq əməkdaşlıqda fəal iştirak etməyə çalışır.

XİF bir sıra metodlarla tənzimlənir. XİFDT-nin üsullarını 3 qrupunu ayırmaq olar:

1. Tarif metodları. Gömrük tarifləri XİFDT-si üçün klassik alət kimi xidmət edir və iqtisadi tənzimləyicilərdir. Gömrük tarifi mallar idxal edilərkən, hətta bəzən dövlətdən çıxarıldıqda da onlardan alınan gömrük rüsumlarının sistematik siyahısıdır. İstənilən dövlətin gömrük tarifinə idxal və ya ixrac olunan mallara vergi qoyulması üçün istifadə olunan müəyyən gömrük rüsumları daxildir. Tarif kvotası dəyişən gömrük rüsumlarından biridir, dərəcələri malların idxalının həcmindən asılıdır. Müəyyən sayda idxal edildikdə, tarifin əsas kvota dərəcəsi ilə vergi tutulur. Müəyyən bir həcm artıq olarsa, idxala tarifin artıq kvota dərəcəsi ilə vergi tutulur.

2. Qeyri-tarif üsulları. Bunlara kvota, lisenziyalaşdırma və "könüllü məhdudiyyətlər"ə bölünən kəmiyyət məhdudiyyətləri daxildir. Kəmiyyət məhdudiyyətləri əmtəə dövriyyəsinin qeyri-tarif tənzimlənməsinin inzibati forması olub, ixrac və ya idxal oluna bilən malların sayını və növlərini müəyyən edir. Kvota müəyyən müddət üçün idxal və ixracı müəyyən sayda və ya məbləğlə məhdudlaşdıran qeyri-tarif ölçüsüdür.

"Könüllü" ixrac məhdudiyyəti ticarət tərəfdaşlarından birinin öhdəliyinə əsaslanır. İxracın həcmi məhdudlaşdırıla və ya genişləndirilə bilər. Bu, ixrac kvotalarının təsdiqinə dair rəsmi hökumətlərarası və ya qeyri-rəsmi razılaşmadan asılıdır.

Lisenziyalaşdırma, müəyyən müddət ərzində müəyyən miqdarda malların ixracı və ya idxalı üçün ölkə tərəfindən verilən icazə vasitəsilə XİF-in tənzimlənməsidir. Lisenziyalaşdırma kvotaların tərkib hissələrindən biridir və həm də dövlət tənzimlənməsinin müstəqil aləti ola bilər.

Qeyri-tarif alətlərinə birtərəfli qaydada ixrac və idxalın məhdudlaşdırılmasına təsir edən gizli proteksionizm növləri də daxildir.

Gizli proteksionizmin əsas növlərini nəzərdən keçirək. Texniki maneələr milli texniki, inzibati və digər qaydaların xaricdən malların idxalına maneə törətməsi səbəbindən yaranan XİS-in gizli üsullarıdır. Ən populyar texniki maneələr milli standartlara uyğunluq tələbləri, idxal olunan mallar üçün keyfiyyət sertifikatının alınması, etiket və xüsusi məhsul qablaşdırması və s.-dir. Bunlar idxal olunan malların daxili bazarda qiymətini artırır və nəticədə rəqabət qabiliyyətini azaldır.

3. Maliyyə üsulları.

Subsidiyalar yerli istehsalçıları dəstəkləməyə və dolayı yolla idxala qarşı ayrı-seçkiliyə yönəlmiş nağd ödənişlərdir.

İxrac krediti XİS-in maliyyə üsuludur, yerli müəssisələr tərəfindən ixracın inkişafı üçün ölkə tərəfindən maliyyə stimullaşdırılmasını nəzərdə tutur.

Dempinq - bu maliyyə metodu malların qiymətlərini normal səviyyədən aşağı salmaqla bazara çıxarılmasından ibarətdir.

Beləliklə, XİF ölkənin iqtisadi fəaliyyətinin ən mühüm hissələrindən biridir, çünki dövlətlərin heç biri yalnız öz qüvvələrindən və elmi-texniki potensialından istifadə etməklə, iqtisadi inkişafın ən yüksək səviyyəsinə çata bilməz. Dövlətin bütün daxili problemlərinin və mövcud tendensiyaların dərin çoxtərəfli təhlili aparılaraq daha fəal və məqsədyönlü XİS-in həyata keçirilməsindən ibarət olan XİƏ-lərin r rolu üzə çıxır. XİF-in formalaşması və səmərəli fəaliyyət göstərməsi proseslərinə mənfi təsir edən amillərin siyahısı mövcuddur. Bunlara emal səviyyəsi yüksək olan malların aşağı rəqabət qabiliyyəti, firmaların istehsal fondlarının yüksək dərəcədə köhnəlməsi və bu firmaların daxili investisiya resurslarından məhdud istifadə, bu ehtiyacları ödəyən idxalın yenidən istiqamətləndirilməsinin yaranması, XİF-in infrastrukturunun formalaşmasında iştirak edən firma və təşkilatların işinin qeyri-adekvat əlaqələndirilməsi və s. aiddir.

## ƏDƏBİYYAT

1. Əliyev, Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti / Ş.T.Əliyev. –Sumqayıt: Sumqayıt Dövlət Universiteti, –2015. –185 s.
2. Пантюшина, О.В. Мировая экономика и международные экономические отношения: учебное пособие для вузов / О. В. Пантюшина, Е. Н. Яковлева, И. М. Гулый [и др.] – Вологда: Негосударственное образовательное учреждение высшего профессионального образования Вологодский институт бизнеса, –2015. – 136 с.
3. Типанов, В.В. Эволюция международной торговли: различные временные горизонты, аспекты и тенденции // В.В.Типанов, Вестник финансового университета, № 6, –2013, –с.98-111.
4. Качалова, С. М. Внешнеэкономическая политика: методы внешнеэкономической политики РФ / С.М. Качалова, В.А. Мешалкина, М.Г. Лебедева // Центральный научный вестник. – 2018. – Т. 3. – № 9(50). – С. 93-95
5. Елебесов, А.Д. Внешнеэкономическая политика государства / А.Д. Елебесов // М. Рыскулбеков атындагы Кыргыз экономикалык университетинин кабарлары. – 2017. – № 3(41). – С. 55-57

## РЕЗЮМЕ
## ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

***Ахмедова Г.С.***

***Ключевые слова:*** *национальный, государство, ЦАХАЛ, внешняя торговля*

В условиях тотальной глобализации экономики внешнеэкономические связи имеют большое значение для деятельности государства и его предприятий. Одной из наиболее важных стратегических задач на будущее является укрепление и развитие ИГО. СНГ – это многогранные формы международного сотрудничества между государствами в различных сферах экономики. Внешнеэкономическая деятельность (ПИИ) напрямую влияет на развитие отношений между странами. Государство разрабатывает программы, учитывающие интересы всех сторон в этой сфере, возможные проблемы и последствия для социальной и экономической безопасности

## SUMMARY
## THEORETICAL AND METHODOLOGICAL FOUNDATIONS OF THE FOREIGN ECONOMIC POLICY OF AZERBAIJAN

***Ahmedova G.S.***

***Key words***: *national, state, IDF, foreign trade*

In the conditions of total globalization of the economy, foreign economic relations are of great importance for the activity of the state and its enterprises. One of the most important strategic tasks ahead is the strengthening and development of CSIs. CSIs are multifaceted forms of international cooperation between states in various fields of economy. Foreign economic activity (FDI) directly affects the development of relations between countries. The state develops programs that take into account the interests of all parties in this area, possible problems and consequences for social and economic security

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 03.07.2023 |
| | Son variant | 07.09.2023 |

**UOT37.046.14** DOI 10.54758/16801245_2023_19_3_81

# QEYRİ-METALLARIN XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ METODOLOGİYASI

**ƏSKƏROV AĞAİSA BAYRAMƏLİ oğlu** ORCID
**ƏHMƏDOV ELNUR NOFƏL oğlu** ORCID
*Sumqayıt Dövlət Universiteti, Azərbaycan, 1-dosent, 2-baş müəllim*
*agaisa.askerov55@mail.ru*

***Açar sözlər***: *qeyri metallar, halogenlər, halogenidlər, oksidləşmə-reduksiya, oksigen, kükürd.*

Sistematik kursun deduktiv öyrənilməsi zamanı şagirdlər toplanmış baza biliklərdən istifadə üçün yeni şərtlərlə üzləşirlər, bu da müxtəlif mənimsəmə problemlərinə, problemli vəziyyətlərə gətirib çıxarır. Kimyanın sistematik kursunda elementlərin öyrənilməsi aşağıdakı plan üzrə aparılır.

1. Qeyri-metalların elementlərin dövri sistemində mövqeyi (kimyəvi işarəsi, atom kütləsi , sıra nömrəsi, dövr, qrup, yarımqrup)
2. Atomun quruluşu, elektron quruluşunun xüsusiyyətləri, oksidləşmə dərəcəsinin ehtimal olunan qiymətləri
3. Kimyəvi element haqqında qısa tarixi məlumat
4. Mövcud elementin əmələ gətirdiyi sahə, maddələr, onların quruluşu, atomlar arasında kimyəvi rabitənin və kristal qəfəsin növü. Sadə maddələrin xassələri, tətbiqi və alınması (istehsalı)
5. Elementin birləşmələrinin formaları, xassələri, tətbiqi və alınması
6. Elementin təbiətdə yayılması
7. Mövcud elementin daxil olduğu yarımqrupun ümumi xarakteristikası

Sistematik kurs bilavasitə halogenlərdən başlayır. Bu mövzunun özəlliyi ondan ibarətdir ki, atom və molekulyar nəzəriyyə əsasında halogenlərin fiziki-kimyəvi xassələri haqqında ilkin məlumatlar artıq “dövri qanun və D.İ.Mendeleyevin elementlərin dövri sistemi mövzusunda öyrənilmişdir. Həmçinin orada halogenlərin təbii qrup anlayışı verilmişdir. Hidrogen xlorid, oksigensiz turşuların nümayəndələrindən biri kimi xlorid turşusunun fiziki-kimyəvi xassələri haqqında ilkin təsəvvürlər VII sinifdə şagirdlərə verilmişdir. Buna görə də “Halogenlər” mövzusuna başlayaraq nəzəriyyələrin izahedici və proqnozlaşdırıcı funksiyalarından fəal istifadə etmək və halogenlər haqqında bütün məlumatların dövri qanun, sistem və elektron nəzəriyyəsi əsasında nəzərdən keçirilməsini əsas vəzifə hesab edərək onların xassələrinin quruluşdan asılılığını daima açıqlamaq gərəkdir. Eyni zamanda hidrogen-xlorid, xlorid turşuşu və xloridlər haqqında sistematik məlumatlar geniş şəkildə təqdim olunmalıdır. Qabaqcadan əldə edilmiş faktiki biliklərin laboratoriya təcrübələri və praktiki məşğələlərlə, həmçinin yeni xassələrə nəzər yetirilməsi ilə möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin bilik və bacarıq səviyyələrinin nəzərə alaraq, onlara müstəqil işlərin verilməsi məqsədəuyğundur.

Halogenlər tipik qeyri-metallara aiddirlər. Buna görə də ümumi plana əsasən elementləri öyrənmək üçün ilk növbədə halogenlərin dövri sistemdəki mövqeyini nəzərə almaq, atomların quruluşunun xüsusiyyətlərini, əsasən də xarici səviyyədə qoşalaşmamış elektronun mövcudluğunu qeyd etmək lazımdır. Şagirdlərin diqqəti müxtəlif halogenlərin və onların əmələ gətirdiyi birləşmələrin böyük oxşarlığının, əsasən onların atomlarının xarici elektron səviyyəsinin oxşar quruluşu ilə, xassələrindəki keyfiyyət fərqlərinin isə valent elektronlarının nüvədə müxtəlif məsafələrdə qaynaqlandığına yönəldilir. Rabitələrin əmələgəlmə mexanizminə dair biliklərdən istifadə edərək şagirdlər belə nəticəyə gələ bilərlər ki, halogen atomları kovalent qeyri-polyar rabitə

ilə xarakterizə olunan ikiatomlu molekullar əmələ gətirə bilərlər. Məhz belə molekullardan müvafiq sadə maddələr əmələ gəlir. Sonra şagirdlər proqramın nəzəri hissəsinin öyrənilməsi zamanı əldə olunan ümumi nəticələrdən istifadə edərək, onların aşağıdakı cədvəldə təqdim edilən ən mühüm xassələrini izah edəcəklər.

***Cədvəl1.***

*Halogenlərin xassələri*

| Maddə-nin adı | Aqreqat halı | Rəngi | Ərimə temperaturu, $^oC$ | Qaynama tempera-turu, $^oC$ | Sıxlıq kq/$m^3$ | Rabitənin əmələgəlmə enerjisi, kC/mol |
|---|---|---|---|---|---|---|
| Flüor | Qaz | Zəif-sarı | -223 | -188.1 | 1.693 | 156.5 |
| Xlor | Qaz | Sarımtıl-yaşıl | -102.4 | -34.7 | 3.214 | 239.4 |
| Brom | Maye | Qırmızı-qonur | -7.3 | +58 | 3.102 (25 $^oC$) | 190 |
| Yod | Bərk | Qara-çəhrayı | +113.4 | +158 | 4.940 (20 $^oC$) | 148.4 |

Qeyd etmək lazımdır ki, flüor-xlor-brom-yod sırasında xassələrin dəyişməsi onları əmələ gətirən elementlərin dövri sistemdəki vəziyyətinə və xassələrin dəyişməsinə tam uyğun şəkildə baş verir. Molekulyar quruluşlu maddələr kimi, onlar aşağı ərimə və qaynama temperaturlarına malikdirlər. Halogenlər sırasında molekulyar çəkinin artması səbəbindən molekulların hərəkətliliyi azalır və molekullararası qarşılıqlı təsir də artır, bu da kristal qəfəsinin möhkəmlənməsinə səbəb olur. Bunun nəticəsi kimi, şagirdlər özləri aqreqat halının, həmçinin xlorun, bromun və yodun ərimə və qaynama temperaturlarının dəyişməsini izah etməlidirlər. Eyni zamanda, sadə maddələrin xassələrinin molekulların quruluşu ilə, molekulların quruluşunun isə onları əmələ gətirən atomların quruluşu ilə sıx bağlı olduğunu konkret misallarla göstərmək vacibdir. Onların bu bilikləri yalnız istifadə olunmur, həmçinin inkişaf etdirilir. Kimyəvi rabitənin təbiətinin öyrənilməsində nüvəarası məsafənin rabitənin möhkəmliyindən asılılığı zamanı əldə edilən anlayışlara əsaslanaraq, şagirdlər flüor molekullarında rabitənin möhkəmliyini xlor molekullarına nisbətən daha çox olmasını fərz edirlər. Lakin, şagirdin fərziyyəsi ilə təcrübə göstəricilərin arasındakı uyğunsuzluq göründüyü kimi onları bunun əksinə inandırır. Ziddiyətin izahının axtarışında onlar flüor və xlor atomlarının quruluşunun və molekulların əmələ gəlməsinin elektron sxemlərini yazırlar.Məlum olur ki, həmin molekulların xarici elektron təbəqəsində çoxlu sayda elektron cəmləşmişdir, lakin flüor atomunun ölçüsü xeyli kiçik olduğu üçün molekulda onların arasında məsafə xlor molekulunda olan məsafədən (1,4 dəfə) azdır. Şagirdlərin flüor və xlorun elektron quruluşunun xüsusiyyətləri və onlar tərəfindən kimyəvi əlaqənin (rabitənin) əmələ gəlməsi haqqında mülahizələrdən istifadə edərək, onları sadə maddələrin xassələrindəki qanunauyğun dəyişiklikləri tək atomların xassələrindəki qanunauyğun dəyişikliklərdən fərqli ola biləcəyi qənaətinə çatdırmaq gərəkdir.

Halogenlərin kimyəvi aktivliyinin öyrənilməsi şagirdlərin maddələrin xassələrinin kimyəvi rabitənin təbiətindən asılılığı haqqında bilikləri əsasında qurulur. Halogenlərin hidrogenlə qarşılıqlı təsir şəraitini nəzərə alaraq (flüor hidrogenlə hətta -250$^0$C-də partlayışla reaksiyaya girir, xlor-ultrabənövşəyi şüaların katalitik təsirindən reaksiyaya girir, yodun hidrogenlə reaksiyası isə dönərdir), şagirdlərdən hidrogen halogenidlərin molekullarında kimyəvi rabitənin möhkəmliyi haqqında fərziyyə irəli sürmək, onu atomların qruluşunun mövqeyi tərəfindən izah etmək və bu fərziyyələrin cədvəl 2-də yerləşdirilmiş təcrübi göstəricilərə uyğun olub-olmadığını yoxlamaq təklif olunur.

***Cədvəl 2.***

*Hidrogen halogenidlərin xassələri*

| Maddənin adı | Aqreq at halı | Nüvəarası məsafə, nm | Rabitənin əmələgəlmə enerjisi, kC/mol | Ərimə temperaturu, $^oC$ | Qaynama temperaturu, $^oC$ | Sıxlıq kq/$m^3$ |
|---|---|---|---|---|---|---|
| Hidrogen flüorid | Qaz | 0.0917 | 565 | -83.0 | +19.5 | 0.99 |
| Hidrogen xlorid | Qaz | 0.1275 | 431 | -114.2 | -85.0 | 1.639 |
| Hidrogen bromid | Qaz | 0.1415 | 365 | -87 | -66.7 | 3.645 |
| Hidrogen yodid | Qaz | 0.1609 | 297 | -50.8 | -35.3 | 5.789 |

Hidrogen halogenidlərinin əmələ gəlməsi proseslərini oksidləşmə-reduksiya nəzəriyyəsi baxımından nəzərdən keçirmək olar. Bu zaman qeyd etmək lazımdır ki, valentliyin qiyməti dəyişməz qalır. Metallara qarşı halogenlərin aktivliyini xarakterizə edərkən nəzərə alnmalıdır ki, müqayisə yalnız hər hansı konkret metalla münasibətdə doğrudur (etibarlıdır). Adətən xlorun, bromun və yodun natrium və alüminiumla qarşılıqlı təsirinin nümunələri götürülür. Metalların quruluşunun xüsusiyyətlərini nəzərə alaraq şagirdlərin onların müxtəlif aktivliyini yalnız ilkin anda izah etmək imkanı vardır, bu da həmin hadisənin qanunauyğunluqlarını və fərdiliyini başa düşmək (anlamaq) üçün kifayətdir. Beləliklə, halogenləri öyrənərkən şagirdlər konkret misallar üzərində qənaətə gəlirlər ki, maddələrin xassələri yalnız onları əmələ gətirən atomların təbiəti ilə birmənalı şəkildə müəyyən olunmur, həmçinin kimyəvi rabitənin təbiətindən, molekulyar qarşılıqlı təsirindən, kristallik qəfəsin növündən və s. asılıdır.

Atomların quruluş xüsusiyyətlərinə əsaslanaraq halogenlər yarımqrupunun ümumi xarakteristikası verilir. Bu zaman şagirdlər mənimsəməlidir ki, halogenlər, flüordan başqa, müsbət oksidləşmə dərəcəsini göstərir və onun maksimal qiyməti xarici elektron təbəqədəki elektronların sayına bərabər olur (yəni yeddiyə). Məktəblilər həmçinin həmin elementlərin dövri sistemdəki mövqeyindən və onların xassələrindən belə nəticə çxarmalıdırlar ki, halogen oksidlərdə rabitənin polyarlığ metal halogenidlər və hidrogen halogenidlərdən az olmalıdır.

Şagirdlərdə halogenlərin xassələrinin mənimsənilməsində dərketmə dərəcəsini müəyyən etmək məqsədilə onlara aşağıdakı suallar və tapşırıqlar təklif oluna bilər.

1. Birləşmələrdə florun niyə həmişə -1 oksidləşmə dərəcəsi göstərdiyini izah edin.
2. Elementlərin sıra sayının artması ilə halogenlərin fiziki xassələrinin qanunauyğun dəyişməsini necə izah etmək olar?
3. Bromun asan buxarlanmasının səbəbi nədir?
4. Bromun və yodun suda az həll olmasını və hidrogen bromid və hidrogen yodidin çox yaxşı həll olmasını necə izah etmək olar?
5. Hansı səbəbdən kalium yodid məhluluna nişasta əlavə edildikdə rəng dəyişikliyi baş vermir? Göy rəngin əmələ gəlməsi üçün nə etmək lazımdır?
6. Tərkibində 0.25 mol kalium bromid və 0.15 mol kalium yodid olan məhlula 0.075 mol xlorlu su olan məhlul əlavə edilmişdir. Bu zaman hansı kimyəvi proseslər baş verir? Kimyəvi rabitənin davamlılığı baxımından həmin prosesləri necə izah etmək olar? Hansı reaksiya məhsulları əmələ gəldi və hansı miqdarda? və s. "Oksigen yarımqrupu" mövzusunda maddə, kimyəvi element, kimyəvi reaksiya anlayışlarının davamlı inkişafı və təsbiti baş verir. Burada halogenlərin tədqiqində (öyrənilməsində) olduğu kimi, deduktiv yanaşmadan istifadə olunur. Əldə edilmiş nəzəri biliklər əsasında şagirdlər oksigenin və onun birləşmələrinin məlum olan xassələrini izah edir, onları əvvəllər öyrənilmiş halogenlərin xassələri ilə müqayisə edirlər. Belə ki, allotropiya anlayışından istifadə edərək, şagirdlərdən halogenlərin hansı səbəbdən allotropik modifikasiyalar əmələ gətirdiyi haqqında düşünmək, bu yarımqrup elementlərinin atom quruluşunu, əmələ gətirdikləri maddələrin

və birləşmələrin quruluş və xassələrini müqayisə etmək təklif edilməlidir. Mövcud mövzunun nümunəsində şagirdlərin axtarış (tədqiqatçılar) fəaliyyətini də göstərmək mümkündür.

Oksigen yarımqrup elementləri xassələrinə görə (əvvəlcə öyrənilmiş) ən yaxın olduqları halogenlərlə müqayisə edilir. Bu zaman VII sinifdə əldə edilən biliyə istinad olunur. Nəzəri biliklərdən istifadə edərək, şagirdlərə bu yarımqrup elementlərinin atomlarının quruluşunu xarakterizə etmək, dövri sistemdəki mövqeyinə əsaslanaraq iki elementdən oksigen və ya kükürddən hansının daha çox elektromənfi olduğunu müəyyən etmək tapşırılır. Bu analizə əsaslanaraq, bütün bu elementlərin atomlarının xarici elektron təbəqəsində altı elektron varsa, oksigen yarımqrupun oksigen və hidrogenli birləşmələrində hansı oksidləşmə dərəcəsini göstərə biləcəyini şagirdlər qeyd etməlidirlər. Onların metallar və hidrogenlə birləşmələrinin hansı xassələrə malik olduqları da nəzərdən keçirilməlidir. Kükürdün və onun birləşmələrinin xassələrinin öyrənilməsinə keçməzdən əvvəl oksigenin xassələrini elektron nəzəriyyəsi nöqteyi-nəzərindən yenidən dərk etməli və kükürdün xassələri ilə müqayisə edərək ümumi bilik səviyyəsini artırmaq lazımdır. Şagirdlər təsbit etməlidir ki, oksigen atomun sabit konfiqurasiyası üçün iki elektron çatmır və oksigen molekulunun quruluşunu çəkərək, iki ümumi elektron cütünün əmələgəlmə mexanizmini nəzərdən keçirməlidirlər. Bundan başqa quruluşa əsaslanaraq, halogenlərdə olduğu kimi, oksigenin aşağı ərimə və qaynama temperaturlarını izah edirlər. Oksigenin suda az həll olması oksigen molekullarında qeyri-polyar kovalent rabitənin olması ilə əlaqədardır. Oksigenin kimyəvi xassələrini öyrənərkən oksigenin fosfor, kükürd, qrafit və s. kimi sadə maddələrlə (atomlararası kimyəvi rabitənin mövcud olması) reaksiyalarının baş verməsi üçün şərt kimi əvvəlcədən qızdırma prosesinin zəruriliyini şagirdlər izah etməlidirlər. Allotropiya haqqında dərsi keçərkən şagirdlərin oksigenin quruluşu və xassələrinə dair biliklərinə istinad olunmalıdır.Sonra müqayisəli planda şagirdləri ozon molekulunun elektron quruluşu və onun xassələri ilə tanış etmək gərəkdir.

